Şuşa

# ZƏFƏR TARİXİ



9



**HEYDƏR ƏLİYEV**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

*PƏRVİZ AĞALAROV, NİYAMƏDDİN QULİYEV,*
*HAFİZ CABBAROV, TALIB TALIBLI, RAMİL TANRIVERDİ*

*Ümumi təhsil müəssisələrinin* 9*-cu sinifləri üçün*

# ZƏFƏR TARİXİ

*kursu üzrə*

## DƏRS VƏSAİTİ

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi info@eastwest.az və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

# MÜNDƏRİCAT



**§1** Münaqişə başlayır 7



**§2** Birinci Qarabağ müharibəsi 11



**§4** Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq müzakirələrdə 29



**§5** Böyük zəfərə doğru 34



**§7** Qəhrəmanlar unudulmur 73



**§8** Müzəffər Ali Baş Komandan 86

**ŞƏRTİ İŞARƏLƏR**

MƏNBƏ

İZAH

QEYDLƏR VƏ FAKTLAR

SKAN ET



§3 Atəşkəs 27



§9 Mədəniyyətimizin incisi – Şuşa 90



§6 Vətən müharibəsi 44



§10 Qarabağ bu gün 108

## ƏZİZ MƏKTƏBLİLƏR!

2021–2022-ci tədris ilindən ümumi təhsil müəssisələrində "Zəfər tarixi" tədris olunur. Kursun tədrisində əsas məqsəd şanlı ordumuzun qazandığı zəfərin tarixi əhəmiyyətini vurğulamaq, şagirdlərimizin milli-mənəvi dəyərlərə malik vətənpərvər ruhda yetişmələrinə yardımçı olmaqdır.

Dərs vəsaitində Ermənistan-Azərbaycan münaqişəsinin baş verməsi, azərbaycanlı əhalinin soyqırımına məruz qalması, Qarabağın dağlıq hissəsinin və ona bitişik ərazilərin Ermənistanın təcavüzü nəticəsində işğal olunması, atəşkəs rejimi, 2016-cı ilin aprel döyüşləri, 2020-ci ildə 44 günlük Vətən müharibəsi və azad olunmuş torpaqlarımızda quruculuq işlərinin aparılması, Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu və Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması sahəsində gördüyü böyük işlər, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğal altında olan torpaqlarımızın azad olunmasında göstərdiyi müstəsna xidmətləri diqqət mərkəzində saxlanılmışdır.

İnanırıq ki, siz Zəfər tariximizin öyrənilməsinə xüsusi həssaslıqla yanaşacaq, onun təbliğ olunmasında mühüm rol oynayacaqsınız!

# GİRİŞ

XIX əsrin birinci yarısında Qafqazı işğal etmək uğrunda gedən müharibələrdə çar Rusiyası öz istəyinə çatdı. Rusiyanın müvafiq olaraq Qacarlar dövləti və Osmanlı imperiyası ilə imzaladığı Türkmənçay (1828) və Ədirnə (1829) sülh müqavilələri nəticəsində tarixi Azərbaycan torpaqlarına erməni əhalisinin köçürülməsi prosesi genişləndi. Çar hökuməti bu addımı ilə işğal etdiyi yeni ərazilərdə özünə dayaq yaratmaq məqsədi güdürdü. Sonrakı dövrlərdə də erməni mənşəli əhalinin Azərbaycan torpaqlarına köçürülməsi davam etmişdi. Gəlmə əhali məhsuldar torpaqlarda yerləşdirilir, onların rahat yaşaması üçün hər cür şərait yaradılırdı. Beləliklə, çarizmin köçürmə siyasəti Azərbaycanın şimal torpaqlarında, o cümlədən keçmiş Qarabağ xanlığı ərazisində erməni əhalisinin sayının süni surətdə artmasına səbəb oldu. Bu da öz növbəsində gəlmə əhalidə əsassız ərazi iddialarının formalaşmasına şərait yaradırdı.

XX əsrin əvvəllərində çar Rusiyasının dağılması və Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin meydana gəlməsi xaricdə güclü dayaqlara malik erməni siyasi dairələrinin iştahını artırdı. Tarixi torpaqlarımızda – keçmiş İrəvan xanlığı ərazisində dövlət qurmalarına baxmayaraq, qonşularımız Azərbaycan Xalq Cümhuriyyətinə qarşı ərazi iddiaları irəli sürməkdən çəkinmədilər. Bu dəfə onların hədəfi Qarabağ idi. 1920-ci ildə Qarabağda qiyam qaldırıldı, buraya erməni quldur dəstələri yeridildi. Lakin yeni yaradılmış Cümhuriyyət ordusu bu qiyamı yatırdı və Qarabağı təcavüzkar basqınlardan qorudu.

Sovet hakimiyyətinin ilk illərində Azərbaycanın tarixi torpaqlarının Ermənistana verilməsi prosesi başlandı. 1920-ci il noyabr ayının 30-da Qərbi Zəngəzurun yuxarı hissəsinin Ermənistan SSR-ə verilməsi elan edildi. Təəssüf ki, Azərbaycanda sovet hakimiyyətinin qurulduğu ilk illərdə respublikaya rəhbərlik edənlərin səriştəsizliyi, Moskvanın və ermənilərin də təzyiqləri nəticəsində Qarabağın dağlıq hissəsində erməni əhalisi üçün muxtariyyətin yaradılması qərarı verildi. Bundan başqa, 1923-cü ildə Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradıldı və beləliklə, gələcək münaqişənin əsası qoyuldu. Az sonra Xankəndi şəhəri yeni yaradılan muxtar vilayətin inzibati mərkəzinə çevrildi. Maraqlıdır ki, vaxtilə Qarabağda məskunlaşdırılmış erməni əhalisinə muxtariyyət hüququ verilsə də, bəhs edilən dövrdə Ermənistan SSR-də yaşayan çoxsaylı azərbaycanlı əhali üçün belə hüquq tanınmadı.

Azərbaycan SSR-in tərkibindəki DQMV-də yaşayan ermənilər XX əsrin 40-cı illərindən etibarən erməni lobbisinin təhriki ilə Ermənistan SSR-ə birləşmək üçün bir neçə dəfə SSRİ rəhbərlərinə müraciətlər etmişlər. Lakin 1988-ci ilə qədər sovet rəhbərliyi bunun bütün SSRİ-də milli münaqişələrin alovlanacağını anlamış, bu təklifləri rədd etmişdi.

Ancaq XX əsrin 80-ci illərində sovet rəhbərliyinə gələn M.Qorbaçov erməni millətçilərinin separatçı hərəkətlərinə göz yumdu. Beləliklə, silahlı münaqişəyə şərait yaradıldı.



1

# MÜNAQİŞƏ BAŞLAYIR

Tarixi Azərbaycan torpaqlarına, o cümlədən Qarabağın dağlıq hissəsinə Ermənistanın iddiaları onların "Böyük Ermənistan" yaratmağa yönəlmiş məkrli və işğalçı planlarının tərkib hissəsidir. Ona görə də ermənilər, bir qayda olaraq, əlverişli şərait yaranan kimi bu planın reallaşdırılması üçün separatçı hərəkata başlamışlar.

1985-ci ildə SSRİ-də ermənipərəst Mixail Qorbaçovun hakimiyyətə gəlməsi ilə erməni separatçıları növbəti dəfə fəallaşdılar. Bu dəfə sovet rəhbərliyinin silahlı erməni separatçı-terrorçularını himayə və müdafiə etdikləri daha tez aşkara çıxdı. Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana ilhaq etmək planını həyata keçirmək üçün M.Qorbaçov ilk addım olaraq 1987-ci ildə onun qarşısında ən böyük maneə olan **Heydər Əliyevi** sovet rəhbərliyində tutduğu vəzifədən uzaqlaşdırdı. Bu amil Moskvanın birbaşa ermənipərəst mövqe tutacağını göstərdi.

Bundan az sonra əvvəllər gizli fəaliyyət göstərən İrəvandakı erməni millətçi "Qarabağ komitəsi", Xankəndidəki "Krunk" təşkilatı yenidən açıq fəaliyyətə keçdi. Beləliklə, Qarabağın dağlıq hissəsinin işğalı üçün separatçı-terrorçuluq fəaliyyəti başlandı.

Erməni millətçiləri SSRİ rəhbərliyi və dünya erməni lobbisinə arxalanırdı.



Ümummilli lider Heydər Əliyev

1987-ci ilin payızında İrəvanda millətçi "Qarabağ komitəsi"nin ilk mitinqi keçirildi. Bu, Qarabağa köçürülüb yerləşdirilən ermənilərin öz müqəddəratını təyinetmə hərəkatı deyildi. Bu, Ermənistanın məhz işğalçı niyyətini sübut edən fakt idi. Hadisələr 1988-ci ilin fevralından sonra daha aqressiv məcraya yönəldi. Xankəndidə erməni separatçıları və millətçilərinin mitinqləri başladı.

Bir neçə gün sonra keçirilən mitinqdə ilk dəfə olaraq "saqqallılar" adlanan xüsusi hərbi dəstənin üzvləri də iştirak etdilər. Ermənistandan göndərilən tapşırıqlara uyğun olaraq "saqqallılar"ın zorakı səyləri nəticəsində vəziyyət daha da gərginləşdi. DQMV-nin Xalq

Deputatları Sovetinin fövqəladə iclasında bölgənin Ermənistana birləşdirilməsi ilə bağlı təklif müzakirəyə çıxarıldı.

İclasda qanunsuz olaraq DQMV-nin Azərbaycan SSR-in tabeliyindən çıxarılaraq Ermənistan SSR-in tərkibinə daxil olması barədə qərar qəbul edildi. Bu qərar Azərbaycanın ərazi bütövlüyünə təhlükə və SSRİ Konstitusiyasına zidd olmaqla yanaşı, həm də SSRİ miqyasında separatizm meyillərinin ilk qığılcımı idi.

Respublika rəhbərliyi sussa da, Qarabağ əhalisi bələd olduğu erməni məkrini dayandırmaq üçün səfərbər oldu. Hadisələrin ən qızğın vaxtında, 1988-ci il fevralın 22-də Ağdamın minlərlə sakini Əsgəran üzərinə yürüşə çıxdı. Azərbaycan məhz həmin gün Ermənistan-Azərbaycan münaqişəsinin ilk şəhidlərini: Əli Hacıyev ilə Bəxtiyar Quliyevi torpaq və millət uğrunda fəda etdi.



**Əli Hacıyev**



**Bəxtiyar Quliyev**




Erməni separatçılarının qısa müddət ərzində fəaliyyətlərini genişləndirməsinin əsas səbəbi məhz Moskvadan aldığı dəstək idi.

1987-ci ilin sonunda Ermənistan SSR-in Qafan; 1988-ci ilin əvvəllərində isə Mehri rayonlarından azərbaycanlıların öz tarixi torpaqlarından qəddarlıqla deportasiyası başlandı. 1988–1989-cu illərdə Ermənistandan bütövlükdə 250 mindən çox azərbaycanlı deportasiya edildi. Deportasiya zamanı 216 nəfər vəhşicəsinə qətlə yetirildi, 1154 nəfər isə yaralandı. Qovulanlar Azərbaycana sığındılar.

Əgər Azərbaycan rəhbərliyi yaranmış vəziyyətə biganə qalmayaraq azərbaycanlıların düşmənə qarşı müqavimətini təşkil edə bilsə idi, separatçı meyillərin qarşısını vaxtında almaq olardı.

Erməni iddialarını əsaslandırmaq üçün 1988-ci il fevralın sonlarında Azərbaycanın böyük sənaye şəhəri olan Sumqayıtda erməni xüsusi xidmət orqanları və SSRİ Dövlət Təhlükəsizlik orqanlarının iştirakı ilə əvvəlcədən planlaşdırılmış qətl və qarətlər törədildi. Qətl və qarətlərin əsas icraçısı erməni Eduard Qriqoryan idi. Əvvəlcədən planlaşdırıldığı kimi, bu hadisədən Ermənistanda yaşayan azərbaycanlıların tam deportasiyası və DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistana ilhaq edilməsi üçün dərhal istifadə edildi. Vaxtilə tarixi Azərbaycan torpaqlarında yaradılan Ermənistan SSR-də yerli azərbaycanlılara qarşı qətllər və talanlar təşkil olundu. Azərbaycanlılara qarşı dəfələrlə təkrar olunmuş erməni vəhşilikləri və soyqırımları yenidən tüğyan etdi. Sovet rəhbərliyi Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycan SSR-in tərkibindən çıxartmaq istiqamətində

daha bir addım atdı: 1989-cu ilin yanvarında "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul edildi. Məqsəd aydın idi: yaradılmış qurum muxtar vilayətin Azərbaycandan alınıb Ermənistana verilməsini təmin etməli idi. Məhz bu dövrdə Sovet ordusunun köməyi ilə silahlı erməni quldurları Xankəndidən bütün azərbaycanlıları (təxminən 15 min nəfər) qovub çıxardı.

Azərbaycan xalqının mübarizəsi nəticəsində 1989-cu ilin noyabr ayında Xüsusi İdarə Komitəsi ləğv edildi. Ermənistan SSR bu vəziyyətdən istifadə edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qanunazidd qərar qəbul etdi. Bu, Ermənistan tərəfindən Azərbaycan SSR-in ərazi bütövlüyünə qarşı qeyri-qanuni müdaxilə aktı idi. Sovet rəhbərliyi gözlənildiyi kimi, bu kobud müdaxilə faktına da göz yumdu. Bununla vəziyyət daha da kəskinləşdi.

Bu dəfə M.Qorbaçov başda olmaqla SSRİ rəhbərliyi Azərbaycana qarşı daha dəhşətli bir cinayətə əl atdı. Bakı əsas hədəf seçildi. Sovet dövləti öz vətəndaşları qarşısındakı konstitusiya öhdəliyini pozaraq 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda qanlı qırğın törətdi. Şəhərə ən müasir texnika və silahlarla silahlanmış iri qoşun hissələri yeridildi. Bakı qırğınında canlı qüvvə kimi erməni mənşəli əsgər və zabitlərdən də geniş istifadə olundu. Bu faciədə 131 nəfər şəhid oldu, 700-dən çox şəxs yaralandı. Lakin 20 Yanvar qırğını Azərbaycan xalqının iradəsini qıra bilmədi, əksinə, milli istiqlaliyyət və ərazi bütövlüyü uğrunda mübarizəni daha da gücləndirdi.


**Azərbaycan xalqının etiraz mitinqi**

Bakıdan sonra Sovet qoşunları Neftçala, Lənkəran və digər yerlərdə də mülki şəxsləri qətlə yetirdi. Qanlı Yanvar hadisələri zamanı ölkə üzrə 150 nəfər öldürüldü, 744 nəfər yaralandı.

**Şəhidlərin dəfn günü**


Faciənin səhəri günü Heydər Əliyev Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək sovet rəhbərliyinin cinayətkar əməllərini qətiyyətlə ifşa etdi. Bu ağır günlərdə xalqla olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi. O, əliyalın xalqın güllələbaran edilməsini hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Bu tarixi çıxışın əks-sədası respublikada və bütün dünyada geniş yayıldı. Təklənən, əli heç nəyə çatmayan xalqın qəlbində ümid çırağı yandı.

1990-cı ildə Ermənistandan Azərbaycan ərazisinə silahlı basqınlar edilirdi. Naxçıvan Ermənistan tərəfindən blokadaya alındı. Ermənilər Azərbaycan dəmiryolunun Ermənistanın Mehri rayonu ərazisindən keçən hissəsində qatarların hərəkətinə mane olur, onları atəşə tutur, dəmiryolçuları, sərnişinləri qətlə yetirirdilər.

1991-ci ilin sentyabrında erməni separatçıları "Dağlıq Qarabağ Respublikası" adlanan oyuncaq qurumun yaradıldığını elan etdilər. Həmin ilin noyabrında Azərbaycan Respublikasının dövlət katibi Tofiq İsmayılovun və digər rəhbər şəxslərin, həmçinin Rusiya və Qazaxıstandan olan nümayəndələrin Dağlıq Qarabağda sülh missiyası faciə ilə nəticələndi. Nümayəndə heyətini aparan vertolyotun Qarabağ səmasında – Qarakənd yaxınlığında erməni terrorçuları tərəfindən vurulması nəticəsində Azərbaycanın bir çox dövlət xadimləri və jurnalistlər, həmçinin Rusiya və Qazaxıstandan olan nümayəndələr həlak oldu.

1991-ci il avqustun 30-da Azərbaycan Respublikası "Dövlət müstəqilliyinin bərpa edilməsi haqqında Bəyannamə" qəbul etdi. Oktyabrın 18-də isə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu.

Buna cavab olaraq Azərbaycan Respublikası tərəfindən noyabrın 26-da Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv olundu. SSRİ-nin dağılması ilə keçmiş sovet məkanında yeni geosiyasi şərait yarandı. Ermənistan faktiki olaraq Azərbaycana qarşı açıq və ədalətsiz müharibəyə başladı. Azərbaycanın sərhədlərini pozub Qarabağa daxil olan Ermənistan hərbi birləşmələri Dağlıq Qarabağın erməni separatçı-terrorçuları ilə birləşərək Azərbaycan torpaqlarının işğalına başladı.

Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan helikopter 1991-ci il noyabrın 20-də erməni terrorçuları tərəfindən vuruldu.

Həlak olanlar arasında Azərbaycan Respublikasının Dövlət katibi Tofiq İsmayılov, Baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, sabiq Daxili İşlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, Baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri və jurnalist Osman Mirzəyev, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev, əməkdaşları Fəxrəddin Şahbazov, Arif Hüseynzadə var idi.


Qarakənddə erməni terroru




# BİRİNCİ QARABAĞ MÜHARİBƏSİ

Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdi. Bundan sonra Ermənistan xarici dövlətlərin himayəsi və yardımı ilə təcavüzü genişləndirdi. Münaqişə açıq müharibə mərhələsinə daxil oldu. Azərbaycanda çox az sayda təcrübəli və peşəkar zabitlərə malik olan, daha çox könüllülük əsasında özünümüdafiə qüvvələri yaradılmışdı. Silah-sursat baxımından zəif təchiz olunan bu qüvvələr Ermənistan və Qarabağda yerləşən, Sovet ordusu tərəfindən yaxşı silahlandırılmış və təlim keçmiş erməni hərbi hissələrinə qarşı uğurlu hərbi əməliyyatlar aparmaq gücündə deyildi. 1991-ci ilin dekabrından keçmiş SSRİ qoşun hissələrinin köməyi ilə erməni terrorçuları Qarabağda azərbaycanlılar yaşayan kəndlərə hücum əməliyyatlarını genişləndirdilər: Bağanis-Ayrım kəndi, İmarət Qərvənd, Tuğ, Salakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Qaybalı, Malıbəyli və Yuxarı və Aşağı Quşçular kəndləri, 1992-ci ilin əvvəllərində Kərkicahan kəndi işğal edildi. Dinc və silahsız əhaliyə divan tutuldu. Döyüşlərdə onlarla Azərbaycan əsgəri qəhrəmancasına həlak oldu.

## Soyqırımı

Xocalı və Şuşa şəhərləri mühasirəyə alındı. Azərbaycanın yeni yaradılmış ordu hissələrinin 1992-ci ilin yanvarında Şuşanın mühasirəsini yarmaq üçün keçirdiyi "Daşaltı" əməliyyatı isə uğursuz oldu.

Erməni hərbi birləşmələri 1992-ci il fevralın 14-də Xankəndidə yerləşən keçmiş SSRİ silahlı qüvvələrinin 366-cı motoatıcı alayının hərbi qüvvəsinin və texnikasının köməyi ilə **Xocavəndin Qaradağlı kəndinə** hücum etdi. Sakinlərin kəndi qəhrəmancasına müdafiə etməsinə baxmayaraq, fevralın 17-də qeyri-bərabər döyüşlərdə Qaradağlı kəndi ermənilər tərəfindən işğal olundu. 118 nəfər əsir götürülənlərdən 101 nəfəri vəhşicəsinə qətlə yetirildi. Öldürülənlərdən 21 nəfəri ahıl və qoca, 10 nəfəri qadın, 8 nəfəri məktəbli idi.

Həmin dövr Rusiya mətbuatında yazılan məlumatlarda göstərilirdi ki, ermənilər öldürdükləri azərbaycanlıları silos quyularına doldurmuş, girovlara isə dəhşətli işgəncələr vermişlər.

**1992-ci il yanvarın 15-də qaradağlıların Azərbaycan xalqına müraciəti:**

"Tarixin amansız vəhşilikləri Qarabağ torpağının keşiyində duran, zamanın ən çətin sınaqlarından mərdliklə çıxmağa çalışan mübariz oğullarını zərrə qədər də sarsıda bilmir. Dörd ildir ki, Qarabağın bir parça incisi olan Qaradağlı düşmən hədəfinə çevrilsə də, qorxmaz oğulları tərəfindən qorunur, müdafiə olunur.

...Bu kəndin sakinləri ömrünün ən çətin günlərini yaşayır. Yaşayış evləri, müxtəlif inzibati binalar od tutub yanır, günahsız insanlar qətlə yetirilir, mal-dövlət talan edilib aparılır. Bir sözlə, erməni quldurlarının aramsız hücumlarına məruz qalır. Düşmən bu gözəl, əhəmiyyətli mövqeyi ələ keçirmək istəyir. Axı Qaradağlı Xocavənd ilə Xankəndi arasındakı yolu kəsmiş, onların bu yolda hərəkətinə birdəfəlik mane olmuşdu! Xocavəndin quldur dəstələr tərəfindən işğal olunmasından sonra Qaradağlıda vəziyyət daha da gərginləşib.

Doğma xalqım! Qanınızda namus, qeyrət işartısı varsa, Qarabağın azadlığı uğrunda mübarizəni dayandırmayın! Yoxsa Qaradağlı öz əlinizlə quldur yuvasına çevrilə bilər".

*"Daglıq Qarabağda erməni terroru: Qaradağlı faciəsi"*
**Məhərrəm Zülfüqarlı**

"Fevralın ortalarında dəstəmiz Əsgəranın Mehtişen (Xocalının Mehdibəyli kəndi) kəndinə çağırıldı. Orada digər komandanlar da var idi. Xocalı əməliyyatına hazırlaşan Monte, demək olar ki, bütün qüvvəsini Xankəndi qərargahında fəaliyyət planı hazırlanmasına sərf etdi. Bir gün gecə o gəlib dedi ki, Qaradağlı tezliklə götürülməlidir. Həm də kəndin əhalisi məhv edilməlidir. Dərhal Qaradağlıya tərəf getdik... Biz azərbaycanlılarla döyüşə girdik. Onlar, demək olar ki, əliyalın idilər, amma mübarizə aparırdılar. Sonunda biz məqsədimizə nail olduq".

*Qaradağlıya son hücum haqqında "Daşnaksutyun" partiyasının üzvü*
**Hrayr Karapetyan**



**Azərbaycan döyüşçüləri Vətənin müdafiəsində**

Qaradağlıdan sonra erməni quldurlarının növbəti hədəfi Xocalı oldu. Xocalı Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı qəsəbələrdən biri idi. Bu qəsəbə Ağdam-Şuşa, Xankəndi-Əsgəran yolu üzərində strateji əhəmiyyətli mövqeyə malik idi. Bölgədəki yeganə hava limanı Xocalıda yerləşirdi.

Xocalı müdafiə üçün çətin bir ərazidə yerləşirdi. Bütün yüksəkliklərin ermənilərin əlində olması şəhərin müdafiəsini qat-qat çətinləşdirirdi.

Xocalının əhalisi 1991-ci ildə 7 min nəfər idi. Burada Ermənistandan,

Xankəndidən və Dağlıq Qarabağın digər yerlərindən qovulmuş azərbaycanlılar, həmçinin Özbəkistandan gəlmiş qaçqın məhsəti türkləri də məskunlaşmışdılar. Hücumdan əvvəl bir neçə saat ərzində qəsəbə toplar və zirehli texnikadan fasiləsiz atəşə tutuldu və xarabalığa çevrildi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə müasir tarixin ən faciəli hadisələrindən biri törədildi. Erməni hərbi birləşmələri 366-cı motoatıcı alayın əsgərləri ilə birlikdə bu dəfə də Xocalıda azərbaycanlılara qarşı dəhşətli soyqırımı törətdi. Bu, müasir dövrdə Ermənistan hərbi qüvvələrinin erməni separatçıları ilə birlikdə insanlığa qarşı törətdiyi ən kütləvi və ən dəhşətli soyqırımı idi.

Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq mühasirəyə alınan Xocalı şəhərinin üzərinə ağır hərbi texnika yeritdi. Dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutuldu, şəhər yerlə-yeksan edildi.

> "Siz ermənilər düşməni öldürərkən ürəyiyumşaqlıq göstərməməlisiniz. Dağlıq Qarabağda azərbaycanlı deyilənləri qırıb qurtarana və orada öz sivilizasiyamızı bərqərar edənə qədər sizin düşmənə yazığınız gəlməməlidir".
>
> *Ermənistanın ilk prezidenti*
> **Levon Ter-Petrosyan**

Ermənilər Xocalıya hərbi əməliyyat keçirmək üçün hücum etməmişdilər. Xocalıda ciddi hərbi qüvvə olmadığını bildikləri üçün onların məqsədi, əslində, dinc əhaliyə divan tutmaq idi. Şəhərin azsaylı müdafiəçiləri **Əlif Hacıyevin** və **Tofiq Hüseynovun** rəhbərliyi ilə sona qədər müqavimət göstərsələr də, lakin düşmənin xeyli üstün qüvvəsi və texnikasının qarşısını ala bilmədilər. Şəhərin müdafiəçilərinin, demək olar ki, hamısı qəhrəmanlıqla həlak oldu.


Tofiq Hüseynov


Əlif Hacıyev

Xocalı soyqırımı Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş dəhşətli cinayət idi. Bu cinayətin təşkilatçıları Ermənistan Respublikasının dövlət rəhbərliyi, birbaşa icraçıları isə Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayın şəxsi heyəti idi.



Xocalı soyqırımı Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü zamanı doğma torpağının müdafiəsinə qalxmış xalqımızı sarsıtmaq, onun mübarizə əzmini qırmaq, Qarabağın azərbaycanlı əhalisinin bir hissəsini məhv etmək niyyəti ilə törədilmiş silsilə kütləvi qırğın aktlarından biri idi.

Rəsmi statistikaya görə, Xocalı soyqırımı zamanı 613 dinc əhali, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi qəddarlıqla qətlə yetirildi.



"Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə, təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən məhkum olunmalıdır".

*Ümummilli lider*
**Heydər Əliyev**

Xocalı soyqırımında iştirak edən hərbi hissələrin birinin əks-kəşfiyyat şöbəsinin rəisi, polkovnik Vladimir Savelyev özünün "Məxfi arayış"ında erməni terror təşkilatları ilə 366-cı alayın Dağlıq Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyərək fakt və sənədlərdə bütün olub-keçənlərin şərhini verib etiraf edirdi: "Mən bütün bunları yazmaya bilmərəm. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçirilmiş bədənlərini unuda bilmərəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə yazdığım arayışı həm Kremlə, həm də SSRİ Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin generallarına göndərdim. "Oxuyun", – dedim. Biz rusların zabit şərəfi görün necə ləkələndi".

2008-ci ildən Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Xocalı soyqırımının dünya miqyasında tanıdılması sahəsində mühüm işlər görülmüşdür. Məhz bunun nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı, Əfqanıstan, İndoneziya, Bosniya və Herseqovina, Honduras, İordaniya, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Pakistan, Çex Respublikası, Kolumbiya, Meksika kimi dövlətlər Xocalıda törədilmiş kütləvi qətlləri soyqırımı kimi tanımışdır. Həmçinin Amerika Birləşmiş Ştatlarının 20-dən çox ştatının icra və qanunvericilik orqanı Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləmişdir.

Xocalı soyqırımından təqribən ay yarım sonra – 1992-ci ilin aprelində Kəlbəcər rayonunun Ağdaban kəndini işğal edən ermənilər tərəfindən bəşəriyyət əleyhinə daha bir cinayət törədildi. Murov dağının ətəyində yerləşən kənd tamamilə yandırıldı, çoxlu sayda dinc sakin xüsusi amansızlıqla qətlə yetirildi, o cümlədən qocalar, uşaqlar, qadınlar diri-diri yandırıldı. Ağdaban faciəsi ermənilər tərəfindən Kəlbəcərin işğalına zəmin yaratdı.

> "Azərbaycan torpaqlarında müharibə idi. Bu müharibə planlarında mən iştirak etmirdim. Qoy bunu tarixçilər, siyasətçilər araşdırsın. Mən ədəbiyyatçıyam. Mənşəcə də ermeniyəm. Azərbaycanlılar vuruşurdular. Onlar vuruşduqca cəsarət və hünərlərinə həsəd aparırdım".
>
> *Hadisələrin şahidi olmuş erməni*
> **Maqsud Mehriyan**

# Dağları duman alır: Şuşa və Laçının işğalı



Şuşa şəhəri

Xocalı soyqırımından və ermənilərin törətdikləri digər vəhşiliklərdən sonra beynəlxalq təşkilatlar Qarabağ məsələsinə diqqəti artırdı. Birləşmiş Millətlər Təşkilatı 1992-ci il martın 2-də Azərbaycanı öz üzvlüyünə qəbul etdi və bununla ölkəmizin müstəqilliyi, suverenliyi, Qarabağ da daxil olmaqla ərazi bütövlüyünü rəsmi qaydada tanıdı. Həmin ildə Azərbaycan və Ermənistan ATƏM-ə qoşulduqdan sonra təklif olundu ki, bu məsələ ilə bağlı sülh konfransı çağırılsın. Konfransın Belarusun paytaxtı Minskdə keçirilməsi nəzərdə tutulurdu. Lakin Ermənistanın işğalçı hərəkətləri konfransın çağırılmasına imkan vermədi. Münaqişəni həll etmək üçün ATƏM-in Minsk qrupu yaradıldı.

> ATƏM – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi – ən böyük regional təşkilatdır. 1994-cü ildən sonra ATƏT (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) adlandırılmışdır.



Bu dövrdə Bakıda hakimiyyət böhranı Azərbaycan Silahlı Qüvvələrinin durumuna mənfi təsir göstərir, döyüş qabiliyyətini aşağı salırdı. Azərbaycanın paytaxtında baş verən siyasi hadisələrdən ermənilər öz məqsədləri üçün istifadə etməyə çalışdılar. 1992-ci ilin yazında Ermənistan hərbi qüvvələri Şuşa istiqamətində cəmləşdirildi. Şuşa azsaylı könüllü dəstələri və yerli milis (polis) qüvvələri tərəfindən müdafiə edilirdi.



"Şuşadakı son jurnalist idim. Rusiyanın hərbi yardımı və ağır texnika ilə erməni qüvvələrinin mühasirəyə aldıqları şəhəri onun işğalından bir az öncə tərk etməli idim. Birinci Qarabağ müharibəsini işıqlandırdıqdan sonra başa düşdüm ki, Azərbaycanın həqiqi peşəkar ordusu yox idi: döyüşçülərin çoxu könüllü, ya da polis idi. Mülki şəxslər də Qarabağı qorumaq üçün birləşmişdilər. Durum çox gərgin və tələfatlar çox yüksək olsa da, öz daimi işlərini tərk edən və Azərbaycanın hər yerindən gəlmiş müdafiəçilərin yüksək ruhu məni heyrətləndirirdi. Bir gün skripkasını cəbhəyə gətirən bu virtuoz skripkaçı ilə tanış oldum. Skripka atəş nəticəsində məhv oldu, ancaq yayı qaldı və həmin skripkaçı öz "Kalaşnikov"undan istifadə edərək bəzi melodiyalar səsləndirdi. Azərbaycanlılar çox yaxşı musiqiçidirlər. Mən Parisə qayıtdım və Qarabağda çəkdiyim şəkilləri azərbaycanlıların davam etməkdə olan faciəsinə, bir milyon qaçqının olduğuna, minlərlə mülki şəxsin qətlə yetirilməsinə göz yummağa qərar verən media üçün gətirdim".

*Azərbaycan əsilli fransalı fotoqraf*
**Reza Deqati**



Şuşa işğaldan sonra

"...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir".

*Ümummilli lider*
**Heydər Əliyev**

Ermənistan böyük canlı qüvvə və texnika ilə mayın 7-də axşam Şuşa üzərinə hücuma başladı. Ermənilərin tərəfində xaricdən muzdla tutulmuş döyüşçülər də vuruşurdu. Sayca düşməndən dəfələrlə az olan Azərbaycan əsgərlərinin qəhrəmanlıqla vuruşmasına baxmayaraq, Şuşa şəhəri mayın 8-də ermənilər tərəfindən işğal edildi. Şuşanın süqutu ilə ermənilər Qarabağın dağlıq ərazisinin işğalını

başa çatdırdılar. Şuşanın işğalı respublikada siyasi böhranı daha da dərinləşdirdi.

Erməni işğalçıları mayın 18-də Laçını da işğal etdilər. Laçın üzərinə hücum həm Şuşa, həm də Ermənistanın Gorus rayonu tərəfdən təşkil edilmişdi.

Laçının işğalı Qarabağda Azərbaycanın strateji mövqeyinə çox ağır bir zərbə oldu. Çünki Laçının işğalı ilə Ermənistanla Dağlıq Qarabağ separatçıları arasında birbaşa əlaqəni təmin edən dəhliz yarandı.

Bəhs olunan dövrdə hakimiyyətdə olan qüvvələrin siyasi cəhətdən səriştəsizliyi, xarici siyasətdə yol verilən nöqsanlar, daxildə sabitliyin olmaması, ordu quruculuğu prosesində baş verən nöqsanlar, ölkə rəhbərliyinin xalqa arxalanmaması və hakimiyyət uğrunda gedən çəkişmələr Şuşa və Laçın rayonlarının işğalına şərait yaratdı.



Müharibə və məktəb. Laçın. 1992-ci il, fevral. Foto: İlqar Cəfərov





Azərbaycanlı əhalinin Kəlbəcəri tərk etməsi

## Kəlbəcərin işğalı

1993-cü ilin əvvəlində Ermənistan muzdlular hesabına öz silahlı qüvvələrini gücləndirdi. Əlavə ümumi səfərbərlik həyata keçirdi, yeni silah, sursat və texnika əldə etdi.

Azərbaycan isə yenidən hakimiyyət böhranı ilə üzləşdi. Hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün siyasi bacarıqsızlığı, yanlış daxili və xarici siyasəti nəticəsində ölkədə böhran dərinləşdi. İdarəolunmaz vəziyyətə düşən ölkədə xaos, anarxiya, özbaşınalıq, hərc-mərclik hökm sürürdü. Bu vəziyyət isə ərazilərimizin işğalının genişlənməsinə şərait yaradırdı.

Hakimiyyət daxilində, orduda, ölkənin ayrı-ayrı ərazilərində xarici ölkələrin xüsusi xidmət orqanları tərəfindən təxribatlar törədildi. Belə bir vəziyyətdə Ermənistan böyük qüvvələrlə geniş-miqyaslı işğalçı hücumlara başladı. Onlar xarici qüvvələrin köməyi ilə Kəlbəcər üzərinə hücuma keçdilər. İşğalçıların martın sonunda başladıqları hücum əməliyyatı 4 istiqamətdən həyata keçirilirdi. Əməliyyata Ermənistan tərəfindən çoxlu sayda canlı qüvvə və hərbi texnika cəlb olunmuşdu.

Kəlbəcərdə olan azsaylı hərbi qüvvələrimiz müdafiə döyüşləri aparır və əhalinin vertolyotlarla çıxarılmasını təmin etməyə çalışırdı. Say və hərbi texnika cəhətdən az olmasına baxmayaraq, Azərbaycan döyüşçüləri qəhrəmancasına müqavimət göstərirdi.

Aprelin əvvəlində işğalçılar Kəlbəcər şəhərini zəbt etdilər. Azərbaycan Ordusunun hissələri Kəlbəcəri tərk edərək Murovdağ aşırımı ilə geri çəkildi. Beynəlxalq təşkilatlar Kəlbəcərin işğalı zamanı Ermənistanın müharibə qaydalarını pozaraq mülki əhalini öldürməsini və girov götürməsini qeyd etmişdi.




Ermənistanın növbəti vəhşiliklərindən biri də 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı zamanı Başlıbel kəndində törədilmişdi. İşğal zamanı doğma torpaqlarını tərk etməyən 62 nəfər dağlara sığınmış, cəmi 2 ov tüfəngi və bir neçə avtomat silahla düşmənə müqavimət göstərmişdi. Lakin bir neçə gündən sonra erməni quldurları qadın, uşaq və yaşlıların gizləndiyi yeri aşkarlamış, 19 nəfər kənd sakini girov götürülmüşdür.

Düşmən gülləsindən canını qurtaran dinc sakinlər yenidən dağlara çəkilmiş və daha 113 gün mühasirə həyatı yaşamışlar. Sağ qalan həmin şəxslər günlərlə ac-susuz qalmış, dəfələrlə ölümlə üz-üzə gəlmişdi. Mühasirədən çıxaraq dörd sutka piyada yol qət edən 29 nəfər 1993-cü ilin iyul ayında Daşkəsən ərazisinə keçə bilmişdir.

Ermənistanın silahlı qüvvələrinin və onların havadarlarının Azərbaycan ərazisində hərbi əməliyyatlarda iştirakını sübut edən təkzibedilməz faktlar mövcuddur. Keçmiş Dağlıq Qarabağdan kənarda yerləşən Azərbaycan rayonunun işğalı Ermənistanın beynəlxalq səviyyədə tənqid edilməsi ilə nəticələndi.



Kəlbəcərin işğalından sonra Azərbaycanda hakimiyyət böhranı kəskin həddə çatdı. 1993-cü ilin iyunun əvvəlində Gəncədə mərkəzi hakimiyyətə qarşı qiyam qaldırıldı. Xarici xüsusi xidmət orqanlarının hazırladığı, onların əlaltılarının həyata keçirdiyi qiyam nəticəsində Gəncədə hökumət qüvvələri ilə qiyamçılar arasında silahlı qarşıdurma baş verdi.

Beynəlxalq təşkilatlar Kəlbəcərin işğalından sonra hərbi əməliyyatların geniş miqyas alacağından ehtiyat edərək ciddi şəkildə fəallaşdılar. Beynəlxalq vasitəçilər tərəfindən Ermənistan işğalçı qüvvələrinin iyun ayının ortalarına qədər Kəlbəcərdən çıxarılmasına dair konkret sənəd hazırlandı və vaxt qrafiki müəyyən edildi. Beynəlxalq təşkilatların təzyiqləri qarşısında Ermənistan rəhbərliyi də həmin sənədi imzaladı.

Lakin Azərbaycandakı hakimiyyət böhranı Ermənistana Kəlbəcərin boşaldılması ilə bağlı razılaşmanı pozmaq, həm də işğalçılıq planlarının həyata keçirilməsində genişmiqyaslı əməliyyatlara başlamaq üçün şərait yaratdı.

## İşğallar davam edir

İşğalçı Ermənistan ordusu Ağdam və Ağdərə istiqamətində hücuma başladı. Ermənilər məhz iyunun 12-də hücuma keçməklə bir il əvvəl Azərbaycan Ordusunun uğurlu döyüş əməliyyatlarının qisasını almaq və Azərbaycan ərazilərinin  işğalını davam etdirmək istəyirdilər. Düşmən bu məqsədlə  minlərlə canlı qüvvə, çoxlu hərbi texnika, döyüş vertolyotları cəlb etmişdi. Əsas qüvvələrini Ağdərə istiqamətinə yönəldən işğalçılar ağır döyüşlərdən sonra iyulun 7-də Ağdərəni zəbt etdilər.

Bu döyüşlərdə suriyalı ermənilərdən təşkil olunmuş terrorçu dəstələrin çoxu döyüşçülərimizin qəhrəmanlığı nəticəsində məhv edilmişdi. Ağdərənin işğalından sonra hədəf Ağdam idi. Böyük qüvvə ilə bir neçə dəfə şəhərə daxil olan düşmən hər dəfə küçə döyüşlərindən sonra geri çəkilməyə məcbur olurdu. Şəhərin müdafiəçiləri qəhrəmanlıqla vuruşurdular.

Lakin qüvvələrin bərabər olmaması və fasiləsiz ağır döyüşlər Ağdamın işğalı ilə nəticələndi. Şəhərdə qalmış bəzi kiçik qruplar daha bir neçə gün küçə döyüşlərini davam etdirdilər. Ermənistan silahlı qüvvələri Ağdamı tam nəzarətə götürmək üçün qorxu içərisində bir müddət də vuruşmalı oldular. Qəhrəman şəhər işğaldan sonra da erməniləri vahimə içərisində saxlayırdı.

Bundan sonra Ermənistan silahlı qüvvələri cənub istiqamətində hücuma keçdilər. Bu əməliyyatın məqsədi Füzuli və Cəbrayıl rayonlarını işğal edərək Horadiz yaşayış məntəqəsi yaxınlığında İran sərhədinə çıxmaq, Qubadlı və Zəngilan rayonlarını mühasirəyə salmaq idi. İşğalçı Ermənistan hücum zamanı çoxsaylı hərbi texnikadan istifadə edirdi.

Ağır döyüşlərdən sonra qoşunlarımızın döyüş xətti yarıldı. Döyüşçülərin geri çəkilməsi, əsasən, əlavə qüvvələrin və silah-sursatın çatışmazlığı ilə bağlı idi.






Azərbaycan döyüşçüləri vətənin keşiyində


Şıxlar
Söyüdlü
İsaqlı
1580 Dağtumas dağı
Dağ Tumas
Süleymanlı
Nüzgar
CƏBRAYIL
Harovlu
Cocuq Mərcanlı
Dağ Veysəlli
Hacılı
Böyük Mərcanlı
Şükürbəyli
Qoşabulaq
Əmirvarlı
Araz
Soltanlı
Niyazqulular
436 Havalı dağı
Həsənli
Dərzili
Xudafərin
Yuxarı Veysəlli
Aşağı Veysəlli
Çaparlı
Divanalılar
Dilağarda
Qacar
Qərvənd
Gövşatlı
Qaraxanbəyli
FÜZULİ
Kondələnçay
Yuxarı Seyidəhmədli
Yuxarı Aybasanlı
Aşağı Seyidəhmədli
Cuvarlı
Əhmədbəyli
Bəhmənli
Yuxarı Əbdürrəhmanlı
Qoçəhmədli
Aşağı Əbdürrəhmanlı
Xatınbulaq
Saracıq
Pirəhmədli
Araz
HORADİZ
Mil-Muğan
Hidroqovşağı

1993-cü il avqustun 23-də Cəbrayıl şəhəri işğal edildi. Həmin gün ağır döyüşlərdən sonra düşmən Füzuli şəhərini də işğal etdi. İşğalçılar avqust ayının sonunda həm Ermənistan ərazilərindən, həm də Qarabağın zəbt edilmiş ərazilərindən Qubadlı rayonu istiqamətində hücuma başladılar.

Avqustun 31-də Qubadlı şəhəri işğal edildi. Ağır döyüşlərdən sonra düşmən oktyabrın 29-da Zəngilan rayon mərkəzini və ətrafdakı yaşayış məntəqələrini işğal etdi. Hakimiyyət böhranları, bir sıra xarici dövlətlərin Ermənistana açıq şəkildə hərbi və siyasi dəstək verməsi, silah və texnika ilə təmin etməsi bu işğalın həyata keçirilməsində həlledici amillər oldu.

Beynəlxalq təşkilatlar işğal faktı qarşısında ciddi addımlar atmaq, işğalçı Ermənistanı cəzalandırmaq əvəzinə, Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunması tələbi qoyulan qərar, qətnamə və bəyanatlarla kifayətləndilər.





Ağdam şəhəri işğaldan əvvəl


Füzuli şəhəri işğaldan əvvəl


Ağdam şəhəri işğaldan sonra


Füzuli şəhəri işğaldan sonra




Ulu öndər Heydər Əliyevin andiçmə mərasimi



# Müharibədə dönüş – Horadiz əməliyyatı

Ulu öndər Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə qayıtdıqdan sonra bir sıra vacib tədbirlər həyata keçirdi. Mərkəzləşmiş komandanlıq və idarəetmə sistemi təkmilləşdirildi, döyüş hazırlığının səviyyəsi yüksəldildi, könüllülərin geniş şəkildə Milli Orduya cəlb olunmasına başlanıldı. Xaricdən silah və texnika alındı, bir sıra xarici dövlətlərlə hərbi əməkdaşlıq genişləndi. Bu tədbirlərin nəticəsində Milli Ordunun döyüş qabiliyyəti xeyli yüksəldi. 1993-cü ilin sonu üçün cəbhədə vəziyyət bir qədər dəyişdi.

İşğal etdiyi ərazilərdə möhkəmlənməyə, müdafiə sədləri yaratmağa daha çox diqqət yetirən Ermənistanın dəfələrlə həyata keçirilən çağırışlar nəticəsində daxili ehtiyatları xeyli tükənmişdi. Buna görə də ermənilər daha çox xaricdən muzdluları cəlb etməyə çalışırdılar. Muzdluların sayı xeyli artmışdı. Belə ki 1993-cü ilin noyabrında Qarabağda ermənilər tərəfdən xarici muzdlular da vuruşurdu.

**1993-cü ilin dekabrında** işğalçıların Beyləqan istiqamətində hücumuna ordumuz ciddi müqavimət göstərərək onlara əks-zərbə vurdular və düşməni geri çəkilməyə məcbur etdilər. Azərbaycan Ordusu Füzuli, Xocavənd, Ağdam, Ağdərə, Kəlbəcər istiqamətlərində əks-hücuma keçdi. Əsas zərbə cəbhənin cənub hissəsində – Füzuli-Horadiz istiqamətində endirildi. Ciddi maneələrə, ərazinin böyük hissəsinin minalanmasına baxmayaraq, qoşunları-

mız düşmənin müdafiə xəttini yardı və Araz çayı boyunca Füzuli rayonunun içərilərinə doğru irəlilədi.

1994-cü il yanvarın əvvəlində bir çox yaşayış məntəqəsi və Azərbaycan-İran sərhədinin 40 km-lik hissəsi azad edildi. Düşmənin müqaviməti qırılaraq mühüm strateji əhəmiyyət daşıyan Horadiz qəsəbəsi azad edildi.

1994-cü ilin aprelində cəbhədə vəziyyət yenidən kəskinləşdi. İşğalçı Ermənistan yeni, genişmiqyaslı hərbi əməliyyat planlaşdırmışdı. Düşmənin əsas məqsədi Tərtər rayonu ərazisində qoşunlarımızın müdafiə xəttini yarmaq, Tərtər, Bərdə və Yevlax şəhərlərini ələ keçirərək şimal-qərb regionunu Azərbaycanın digər ərazilərindən ayırmaq idi. Düşmən üç istiqamətdən

## Ermənistanın işğal etdiyi ərazilər





Vətənin müdafiəçiləri

Tərtər üzərinə hücuma başladı. Lakin Azərbaycan Ordusunun uğurlu döyüşləri və düşmənə əks-zərbələri onların ciddi itkilər verməsinə səbəb oldu. Ermənilərin 1000 nəfərdən artıq canlı qüvvəsi, 50 ədədə qədər zirehli texnikası, çoxlu sayda digər texnika, silah və sursatı məhv edildi. Ermənistan ordusunda mənəvi-psixoloji durum böhran həddinə çatdı, kütləvi fərarilik, döyüşlərdə iştirakdan imtina geniş hal aldı. Ermənilər qrup şəklində könüllü olaraq  Azərbaycan tərəfinə keçməyə başladılar.

İşğalçı Ermənistan hərbi komandanlığı hücum əməliyyatlarının dayandırılması və müdafiə mövqeyinə keçilməsi haqqında əmr vermək məcburiyyətində qaldı. Hərbi uğursuzluqlarla üzləşdiyini və daha irəliləyə bilmədiyini görən təcavüzkar Ermənistanın rəhbərliyi 1994-cü ilin mayında danışıqlar masası arxasında oturmağa, cəbhə bölgəsində atəşkəsi nəzərdə tutan Bişkek protokolunu imzalamağa məcbur oldu. Ermənistan işğalçı müharibə nəticəsində Azərbaycanın Füzuli rayonundakı Horadiz qəsəbəsindən Zəngilanadək Azərbaycan-İran sərhədini nəzarət altına almışdı.

Ermənistanın işğalçı siyasəti İkinci Dünya müharibəsindən sonra Avropada ən böyük qaçqın və məcburi köçkün axınına səbəb oldu.  Erməni işğalçıları Ermənistandan, Dağlıq Qarabağ və onun ətrafındakı rayonlardan 1 milyondan çox azərbaycanlıları didərgin salaraq qaçqın və məcburi köçkünə çevirmişlər.

Ermənistan tərəfindən müharibənin faşist metodları ilə aparılması nəticəsində Azərbaycan ərazisinin təqribən 20%-i işğal edilmişdi. 24 min azərbaycanlı qətlə yetirilmiş, 4 min dinc əhali əsir düşmüşdür. Əsir aparılanlardan əksəriyyəti uşaq, qadın və qocalardan ibarət idi. İtkin düşən, əsir və girov götürülənlərin ümumi sayı 5000 nəfərdən çox olmuşdur.

Ermənistan ordusu tərəfindən İşğal olunan torpaqlarda tarixi abidələr, mədəni-mənəvi, dini dəyəri olan abidələr dağıdılmışdır.

> ” Azərbaycan Ordusunun dekabr–fevral (1993–1994-cü illər – *red.*) hücumu Qarabağ müharibəsinin mühüm hadisələrindən hesab edilir. Azərbaycanın hərbi-siyasi rəhbərliyi bu hücum əməliyyatı ilə düşmənə qarşı qətiyyətini nümayiş etdirdi. Ordumuzun hücum əməliyyatı keçirmək qabiliyyəti və əzmi əyani şəkildə göstərildi, döyüş əhvali-ruhiyyəsi bərpa edildi. İşğal edilmiş ərazilərin bir hissəsi azad olundu. Ermənistan canlı qüvvə və texnika baxımdan ciddi itkilər verdi.
>
> "Qarabağ müharibəsi"
> **Akif Nağı**



3

# ATƏŞKƏS

Birinci Qarabağ müharibəsinin dayandırılması üçün Qırğızıstanın paytaxtı Bişkekdə bağlanmış saziş Ermənistanla Azərbaycan arasındakı toqquşmaları dayandırsa da, təmas xəttində insan ölümlərinin qarşısını ala bilmədi.

ATƏT*-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar, əslində, münaqişəni sona çatdırmalı və tərəflər arasında sülh danışıqlarından real sülhün əldə edilməsinə keçilməli idi. Ancaq tərəflərin bütün görüşləri hər zaman ermənilərin işğalçılıq niyyətlərinə görə baş tutmurdu.

* **ATƏT (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) –** Avropada sülhün qorunub saxlanılmasına və dövlətlərarası əməkdaşlığın genişləndirilməsinə xidmət edən bir təşkilat

Danışıqlar zamanı əvvəlcə Azərbaycan tərəfinə ağır şərtli sülh maddələri qəbul etdirmək istəyirdilər. Azərbaycanın yeni hakimiyyəti isə qətiyyət göstərərək üstüörtülü və ya qapalı təzyiqlərin öhdəsindən gələ bildi.

## Kəsilməyən atəş

Azərbaycandan fərqli olaraq Ermənistan tərəfi məqsədli sülhün əldə olunmasından daha çox münaqişənin davam etməsini istəyirdi. Mövcud vəziyyətin saxlanılması tərəfdarı olan ermənilər bu cəsarəti havadarlarından alırdı.

Keçmiş SSRİ ərazisindəki münaqişələrin bir çoxunu "dondurulmuş" adlandırırdılar. Amma atəşkəs rejimi, az qala, hər gün pozulduğu üçün münaqişələrin yox, onların həlli yollarının dondurulduğu açıq-aşkar görünürdü.

Bu faktdan çıxış edib demək olardı ki, işğal vəziyyətinin saxlanmasında Ermənistanın və regionda nüfuz sahibi olan dövlətlərin maraqları kifayət qədər güclü idi. Əslində, atəşkəs təkcə müharibəni dayandırmağa yox, problemin həllini danışıqlar müstəvisinə yönəltməyə imkan yarada bilərdi. Atəşkəsdən sonra yaranmış sabitlik regionda beynəlxalq əhəmiyyətli böyük enerji və infrastruktur layihələrini reallaşdırmağa imkan verdi. Bu, ilk növbədə, neft və qaz ehtiyatları olan Azərbaycana, ardınca da enerji resurslarının Qərbə nəqli prosesində iştirak edən Türkiyə və Gürcüstana aid idi.



Ulu öndər Heydər Əliyev döyüş bölgəsində




**ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı. 6 dekabr 1994-cü il**

Qərb ölkələri bu yolla öz enerji təhlükəsizliklərini təmin etməyə, əldə olunan yeni mənbələr sayəsində enerji ehtiyaclarını qarşılamağa çalışırdılar. Region üzərində nəzarəti itirməkdən qorxan böyük dövlətlər münaqişənin həllində maraqlı deyildi. Buna görə də münaqişə tərəfləri uzunmüddətli siyasi razılaşma əldə edə bilmədi. Həmsədr ölkələr üçünsə status-kvonun* saxlanmasından çox onun dəyişməsi böyük risk idi.

> **Status-kvo –** mövcud vəziyyət

Bu çətin siyasi prosesdə Azərbaycanın atacağı addımlar onun gələcəyinə çox böyük təsir edə bilərdi. Ümummilli lider Heydər Əliyevin apardığı məqsədyönlü siyasət yaradılmış sabitlik iqtisadi yüksəlişə şərait yaratdı. Aparılan uğurlu xarici siyasət nəticəsində özünə tərəfdaş qazanan Azərbaycan yüksəlişə getməklə yanaşı, işğalçı Ermənistanı da bütün beynəlxalq layihələrdən kənarda saxladı.

Belə ki ölkəmiz işğal olunmuş ərazilərin resurslarından istifadədən məhrum olmuşdu. Bir milyona qədər qaçqın və məcburi köçkünün sosial təminatı ilə məşğul olmaq kifayət qədər çətin idi.

ATƏT-in Minsk qrupunun həmsədr ölkələri Ermənistan-Azərbaycan münaqişəsinin həlli mexanizmini hazırlamaqda aciz qaldı. Beynəlxalq təşkilatların Helsinki Yekun Aktı* ilə müəyyənləşmiş prinsiplərə əsasən verdiyi qərarlar, o cümlədən Ermənistan hərbi birləşmələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılması barədə BMT-nin qətnamələrinin qərarları yerinə yetirilmədi.

> **Helsinki Yekun Aktı –** 1975-ci ildə Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövləti, ABŞ və Kanadanın iştirakı ilə müşavirə oldu. Onlar Avropada Təhlükəsizlik və əməkdaşlıq haqqında akt imzaladılar.

BMT-nin qərarları Ermənistan ordusunun ərazidən heç bir şərt irəli sürmədən çıxarılmasını tələb etdiyi halda, Minsk qrupu formatında danışıqların uzadılması və uğursuzluğu hərbi yolu qaçılmaz edirdi. Azərbaycan ərazi bütövlüyü və beynəlxalq miqyasda tanınmış sərhədlərin toxunulmazlığı prinsipindən çıxış edirdi. Ermənistan isə erməni diasporunun* ənənəvi siyasi dəstəyinə arxalanırdı.

> **Diaspor** (yunanca *səpələnmək*) **–** bir toplumun aid olduğu və tarixən yaşadığı torpaqlardan uzaq məsafədə yaşaması durumu



# ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİ **BEYNƏLXALQ MÜZAKİRƏLƏRDƏ**

BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının işğalı ilə bağlı 822, 853, 874, 884 saylı qətnamələri erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb etsə də, Ermənistan müxtəlif bəhanələrlə bu tələbləri yerinə yetirməkdən boyun qaçırırdı.

Təəssüf ki, beynəlxalq qurumlar da bu qətnamələrin icrası üçün heç bir təzyiq göstərmirdi. Beləliklə, uzun sürən danışıqlar prosesi başlandı.



**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-də çıxışı. 1994-cü il**

# Azərbaycan ədalət axtarışında

Prezident Heydər Əliyevin başçılığı ilə Azərbaycan Respublikasına qarşı informasiya blokadasının yarılması, Ermənistan-Azərbaycan münaqişəsinə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, ölkənin ərazi bütövlüyünün sülh, danışıqlar yolu ilə təmin edilməsi istiqamətində gərgin və səmərəli iş aparıldı. Azərbaycan Prezidenti bir çox ölkələrin rəhbərləri ilə görüşlər keçirdi, Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatların toplantılarında iştirak etdi.

Bütün maneələrə və ağlasığmaz çətinliklərə baxmayaraq, Heydər Əliyev sona qədər öz mövqeyinə sadiq qaldı, ölkənin maraqlarını kifayət qədər ciddi sübutlarla əsaslandırdı. Uzun və gərgin müzakirələrdən sonra ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi bəyanatı ilə razılıq əldə edildi. Bəyanatda Minsk qrupunun həmsədrləri Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsinin tərkib hissəsi olacaq 3 prinsipi tövsiyə edirdi:



Ümummilli lider Lissabon sammitində. 1996-cı il

- Ermənistan Respublikası və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
- Dağlıq Qarabağın Azərbaycanın tərkibində öz müqəddəratını təyin etməyə əsaslanan, ən yüksək özünüidarəsini təmin edən hüquqi statusu;
- məsələnin həllinin müddəalarına əməl olunmasını təmin etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikləri daxil olmaqla Dağlıq Qarabağın və onun bütün əhalisinin təhlükəsizliyi.

Bu, ölkəmizin diplomatik sahədə əldə etdiyi çox mühüm uğur idi. Bununla Azərbaycan bütün dünyanın diqqətini Ermənistan-Azərbaycan münaqişəsinə yönəltməyə nail olmuşdu. Çünki dünyanın münaqişəyə münasibəti obyektiv məlumatlar əsasında formalaşmamışdı. Azərbaycan Lissabon sammitində Ermənistanın və erməni lobbisinin uzun müddətdən bəri apardığı təbliğatının nəticələrini dəyişməyi bacarmışdı. Ermənistan bir daha işğalçı siyasət yürütdüyünü və beynəlxalq hüququn bütün dünya tərəfindən qəbul olunmuş prinsiplərinə qarşı çıxdığını ortaya qoydu.

Ermənistan istisna olmaqla, ATƏT üzvlərinin hamısı münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü, Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması şərtilə həllinin mümkünlüyünü təsdiqlədi. Nəticədə Lissabon sammiti

zamanı münaqişənin həlli ilə bağlı danışıqlar prosesinin sonrakı mərhələsi üçün Azərbaycanın milli maraqlarını təmin edən, beynəlxalq birliyin qəbul etdiyi hüquqi baza müəyyənləşdirildi.

1999-cu ildə ATƏT-in İstanbul zirvə toplantısında Azərbaycan tərəfi öz mövqeyini üzv ölkələrə bəyan etmək üçün mühüm addımlar atdı. İstanbul sammiti çərçivəsində Prezident Heydər Əliyevin apardığı məqsədyönlü danışıqlar Ermənistanın qeyri-səmimi mövqeyini bir daha nümayiş etdirdi. Ermənistan hökuməti faktiki olaraq sülh sazişinin imzalanması prosesini ləngitməyə çalışırdı. Halbuki sammitdən əvvəl bütün müşahidəçilər və zirvə görüşünün iştirakçıları sülh razılaşmasının imzalanacağına ümid bəsləyirdilər. Çünki İstanbul sammitində qəbul olunmuş qərarların iki maddəsi yalnız Ermənistan-Azərbaycan münaqişəsinə həsr olunmuşdu.

2002-ci ilin martında bölgəyə səfərləri zamanı Minsk qrupunun həmsədrləri danışıqlar prosesinin ölkə prezidentlərinin xüsusi nümayəndələri səviyyəsində davam etdirilməsini  təklif etdilər.

Bu təklif çərçivəsində Praqa yaxınlığında hər iki dövlət başçısının xüsusi nümayəndələrinin iki görüşü keçirildi. 2004-cü ildən etibarən Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında birbaşa danışıqlar başlandı.

2005-ci ilin yanvarında Avropa Şurasının Parlament Assambleyası "ATƏT-in Minsk konfransının məşğul olduğu Dağlıq Qarabağ münaqişəsi" adlı qətnamə qəbul etdi. Qətnamədə Azərbaycanın bir hissəsinin işğal olunduğu təsdiq edilmiş, hərbi əməliyyatlar nəticəsində çoxlu sayda insanın doğma yurdlarından didərgin düşməsinə dair narahatlıq ifadə edilirdi. Assambleya münaqişə zonasından didərgin düşmüş şəxslərin təhlükəsiz geri qayıtması hüququnu bir daha təsdiq etdi. Həmçinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri xatırladılaraq işğal olunmuş ərazilərin boşaldılması çağırışı vurğulandı.




- 2006-cı ilin may ayında ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin nümayəndələri bölgəyə səfər etdi. Səfərin nəticəsi olaraq münaqişənin bütün aspektlərinin bir mərhələdə deyil, bəzi çətin məsələləri sonraya saxlamaqla danışıqların irəliləməsi tövsiyə olundu. Əlbəttə, bu, qəbulolunmaz bir şərt idi. Ona görə də Azərbaycan ərazilərimizin davam edən işğalı və etnik təmizləmə şəraitində Dağlıq Qarabağ regionunun hüquqi statusunun müəyyən edilməsinin mümkün olmadığını bildirdi:

- Azərbaycanın işğal edilmiş əraziləri azad edilməli,

- qaçqın düşmüş azərbaycanlı əhali öz evlərinə qayıtmalıdır.

  Ancaq bundan sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Dağlıq Qarabağa yüksək səviyyəli özünüidarəetmə statusunun verilməsi mümkün ola bilərdi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

2007-ci ilin iyulunda İlham Əliyev və Robert Koçaryanın Sankt-Peterburqda görüşü keçirildi. Ancaq münaqişənin sülh yolu ilə həllində razılığa gəlmək yenə də mümkün olmadı. Yalnız Azərbaycan və Ermənistanın bir qrup ziyalısının Dağlıq Qarabağ regionuna, eləcə də Bakı və Yerevana birgə səfər təşəbbüsü təklifi qərarlaşdırıldı.

Sonrakı illərdə Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həlli üzrə danışıqlar davam etdirildi. Danışıqlar Minsk qrupu həmsədrləri tərəfindən yenilənmiş **Madrid prinsipləri** əsasında aparılmalı idi.

## Nəticəsiz danışıqlar

Madrid prinsipləri 2009-cu ilin noyabrında İspaniyanın paytaxtı Madriddə ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə təqdim etdikləri saziş planıdır. Plan Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün sülh təşəbbüsünün davamı hesab edilir. Bu, 1994-cü il atəşkəs sazişindən sonra sülh danışıqları nəticəsində ortaya çıxan yeganə sənəddir.

2010-cu ildə Azərbaycan tərəfi işğal edilmiş ərazilərdə təbii sərvətlərin və mədəni irsin talan edilməsi, qeyri-qanuni məskunlaşma və mülkiyyət hüquqlarının pozulması ilə bağlı vəziyyətin araşdırılması və qiymətləndirilməsi məsələsini qaldırdı. Eyni zamanda, işğal olunmuş ərazilərdəki status-kvo vəziyyətinin qəbulolunmaz hesab olunduğu və oradakı qanunsuz fəaliyyətə son qoyulmalı olduğu vurğulandı.

### MADRİD PRİNSİPLƏRİ

Prinsiplərə "mərhələli paket" sülh təklifi daxil idi:

- İlk mərhələdə Dağlıq Qarabağa daxil olmayan 5 rayon: Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın rayonunun 13 kəndinin geri qaytarılması;
- Bundan sonra regionda bütün kommunikasiyaların açılması, sülhməramlı müşahidəçilərin yerləşdirilməsi, evlərinə qayıdan köçkünlərin təhlükəsizliyinin təmin edilməsi;
- Növbəti mərhələdə Laçın və Kəlbəcər rayonlarının tamamilə azad edilməsi, azərbaycanlı icmanın Dağlıq Qarabağa qayıtması;
- Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağın hüquqi statusunun müəyyən edilməsi.

İşğal olunmuş ərazilərə ATƏT-in Minsk qrupu həmsədrlərinin rəhbərliyi altında beynəlxalq dəyərləndirmə missiyasının səfəri təşkil edildi.

Danışıqlar prosesində intensivliyin artdığını görən Ermənistan davamlı hərbi təxribatlara əl atdı. Ermənistan hərbi hava qüvvələrinin təmas xəttində Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri üzərində hücum xarakterli uçuşlar etməsi düşmənin helikopterlərindən birinin vurulması ilə nəticələndi.

2020-ci ilin iyununda tərəflərin ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə görüşü baş tutdu. Konfransda Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi prosesinin cari vəziyyəti müzakirə edildi. Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində həyata keçirilən qeyri-qanuni fəaliyyət, o cümlədən infrastruktur dəyişiklikləri məsələsi qaldırıldı. Azərbaycan tərəfi Ermənistanın təxribat xarakterli hərəkətlərini bir daha gündəmə gətirdi.

ATƏT uzun illərdən bəri Ermənistan-Azərbaycan münaqişəsinin həllində vasitəçilik missiyasını yerinə yetirsə də, heç bir konkret addım ata bilmədi. Təşkilatın münaqişənin həlli üçün konkret mexanizmi olmasa da, işğalçı dövlətə qarşı müəyyən təzyiqlər göstərmək, dünya birliyini bu prosesə cəlb etmək imkanları var idi.

Ona görə də Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasəti yürüdərək beynəlxalq sammitlərdə qəbul olunmuş prinsiplərin heç birini nəzərə almadı. Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə qəsd edərək öz təcavüzkar əməllərini davam etdirməkdən çəkinmədi. Bir milyona qədər qaçqın və məcburi köçkünün hüquqlarını tapdalayaraq onları öz yurdlarından məhrum etdi, ağlasığmaz vəhşiliklərə yol verməklə beynəlxalq hüquqa dair heç bir öhdəliyi yerinə yetirmədi.

Bütün bunlar azmış kimi, düşmənin 2020-ci ilin iyulunda münaqişə zonasından kənarda yerləşən Tovuzda törətdiyi təxribat və Tovuz ətrafında yerləşən strateji yüksəklikləri ələ keçirmək cəhdi, beynəlxalq əhəmiyyətli neft və qaz kəmərlərini təhlükə altına salması "sülh körpüləri"ni yandırmış oldu.





5

# BÖYÜK ZƏFƏRƏ DOĞRU

Birinci Qarabağ müharibəsini başa çatdıran atəşkəs müqaviləsi imzalandıqdan sonra da ermənilər cinayətkar əməllərini davam etdirir, cəbhə xəttində tez-tez gərginlik yaradır, təxribatlar törədirdilər. Danışıqlar prosesini xarakterizə edən qeyri-müəyyənlik, işğala son qoyulmaması atəşkəsin ciddi səviyyədə pozulması hallarına səbəb olurdu. Artıq əhalinin və əsgərlərimizin səbir kasası dolurdu.

Rusiya prezidentinin vasitəçiliyi ilə tərəflərin müxtəlif şəhərlərdə yeni görüşləri təşkil olundu. Hərbi əsir və girovların, həmçinin atəşkəs rejiminin pozulması nəticəsində həlak olmuş

## Mübarizlik rəmzi

Bu hadisələrdən biri məhz 2010-cu ilin yayında baş verdi. Qoşunlarımızın təmas xəttindəki bölmələrinə qarşı tez-tez baş verən təxribatlara dözməyən Azərbaycan Ordusunun gizirі Mübariz İbrahimov iyun ayında gecə saatlarında təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçir. Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilməz həmlədə məhv edir. Düşmənlərin silahlarını əldə edir və onların özünə qarşı istifadə edərək 5 saat döyüşür. Düşmən ağır itkilərə məruz qalır, onların çox öyündükləri müdafiə sədlərinin zəif tərəfləri üzə çıxır. Mübariz düşmənə köməyə gələn qüvvələrlə qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olur.



Mübariz İbrahimov



Atama və anama məktub.
Canım Atam və anam məndən sarı darıx-
mayın inşallah cənnətdə görüşərəyiq.
mənim üçün bol-bol dua edin. vətənin dar
günündə ürəyim dözmür, Allaha xatir
bunu etməliyəm. ən azından ürəyim sərin-
lik tapır. İnşallah şəhid olana kimi
bu şərəfsizlərin üstünə gedəcəm. Şəhid ol-
sam ağlamayın əksinə sevinin ki o mərtə-
bəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq
yerinə yetirin. Gözəl sədəqə verin.
Seyid nəvəsi olaraq bunu etməliyəm.
Allah böyükdü, Vətən sağ olsun.
oğlunuz Mübariz.
Haqqınızı halal edin. İbrahimov Mübariz

şəxslərin cəsədlərinin qaytarılmasına dair birgə bəyanat qəbul edildi. Ölümlərindən sonra **Azərbaycanın Milli Qəhrəmanı** adına layiq görülmüş şəhid Mübariz İbrahimov və "İgidliyə görə" medalı ilə təltif olunan Fərid Əhmədovun nəşləri qaytarıldı.

Bir müddət təmas xəttində monitorinqlər keçirildi. Nisbi sakitlik baş verdi. Amma müəyyən müddət keçdikdən sonra hər zaman olduğu kimi, atəşkəs yenə mütəmadi olaraq pozulmağa başladı.

## Aprel zəfəri

Erməni işğalçılarının atəşkəs rejimini pozmaq üçün növbəti cəhdi 2016-cı il aprelin 1-dən 2-ə keçən gecə baş verdi. Gün ərzində Azərbaycanın cəbhəboyu mövqeləri, yaşayış məntəqələri, dövlət əhəmiyyətli binalar ermənilər tərəfindən güclü artilleriya və müxtəlif çaplı silahlardan atəşə məruz qaldı. Aprelin 5-nə qədər davam edən döyüşlər tarixə "Aprel hadisələri" və ya "Dördgünlük müharibə" kimi düşdü. **Bu döyüşlər 1994-cü ildə imzalanmış atəşkəsdən sonra baş vermiş döyüşlərin ən şiddətlisi idi.**

Azərbaycan Silahlı Qüvvələri erməni təxribatlarının qarşısını almaq, mülki əhalinin və yaşayış məntəqələrinin təhlükəsizliyini təmin etmək üçün Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində tədbirlər görməyə məcbur oldu. Başlanmış hərbi əməliyyatlar rəşadətli Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi.

Hərbi əməliyyatlar nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi azad edildi. Həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan və Tərtər



Aprel döyüşləri nəticəsində azad edilən ərazilər

rayonunun Madagiz (Suqovuşan – *red.*) kəndləri istiqamətində də bəzi strateji mövqelər daxil olmaqla iki min hektardan çox ərazi azad edildi. Bununla da cinayətkar erməni rəhbərlərinin keçilməz "müdafiə səddi" haqqında mifi alt-üst edildi.

Aprelin 3-dən etibarən Azərbaycan Silahlı Qüvvələri təmas xəttində birtərəfli qaydada düşmənə qarşı cavab tədbirlərini dayandırdığını elan etdi. Bundan istifadə edən Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə aprelin 4-də cəbhənin, əsasən, Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində yenidən hücum etdi, təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu.

Amma düşmən ordumuzun şücaəti qarşısında məqsədinə nail ola bilmədi. Onların əlavə qüvvələr göndərməklə hücumu davam etdirmək planı da baş


Azərbaycan Ordusunun hərbi əməliyyata hazırlığı


Cəbrayıl rayonu Cocuq Mərcanlı kəndi

tutmadı. Hazırlıqlı bölmələrimiz tərəfindən düşmənin strateji baxımdan əhəmiyyətli Suqovuşan məntəqəsindəki hərbi bazasının qərargahına və erməni könüllülərini daşıyan avtobusa zərbə endirildi. Əməliyyat zamanı Ermənistan silahlı qüvvələrinin Ağdərə, Suqovuşan və digər yaşayış məntəqələrindən hərəkətə gətirmək istədiyi ehtiyat qüvvələri bölmələrimiz tərəfindən qabaqlayıcı zərbələrlə məhv edildi.

Ermənistan silahlı qüvvələri aprel döyüşlərində böyük itkilərə məruz qaldı. 320-dən artıq düşmən əsgəri məhv edildi və 500-dən çoxu yaralandı. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Suqovuşan yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri məhv edildi. Nəticədə bölmələrimiz tərəfindən Ağdərə-Suqovuşan, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı əldə edildi.

Rusiyanın vasitəçiliyi ilə aprelin 5-də Moskvada Azərbaycan-Ermənistan silahlı qüvvələrinin Baş qərargah rəislərinin görüşləri təşkil edildi. İmzalanan razılaşmaya əsasən təmas xəttində əməliyyatlar dayandırıldı. Qəhrəman ordumuz tərəfindən azad edilən ərazilərdə yeni mövqelər quruldu və mühəndis-istehkam tədbirləri həyata keçirildi.

Şanlı ordumuzun uğurları Aprel hadisələri ilə yekunlaşmır, yeni qələbələr qazanılırdı. Bunlardan biri 2018-ci ilin mayında Naxçıvan ərazisində baş vermiş Günnüt əməliyyatı idi. Əməliyyat nəticəsində silahlı qüvvələrimiz on min hektardan çox əraziyə, o cümlədən Gorus–Laçın–Xankəndi yoluna nəzarət etməyə başladı.


"Günnüt əməliyyatı"ndan kadr


Lələtəpə yüksəkliyi

Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücumlar nəticəsində cəbhəboyu yaşayış məntəqələrində insanların təhlükəsiz yaşaması mümkün oldu. Azad edilmiş ərazilərdə təmir-bərpa işlərinə başlandı. Belə ki Prezident İlham Əliyevin 2017-ci ilin yanvarında imzaladığı fərmanla Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində əsaslı şəkildə təmir-bərpa işlərinə başlanıldı.

Aprel döyüşlərindən sonra may ayında münaqişənin tənzimlənməsi məqsədilə ATƏT-in Minsk qrupu həmsədr ölkələrinin təşkilatçılığı ilə Azərbaycan və Ermənistan prezidentlərinin Vyanada görüşləri keçirildi. Rusiya prezidentinin vasitəçiliyi ilə iyun ayında Sankt-Peterburqda üçtərəfli danışıqlar formatında növbəti görüş təşkil olundu. Görüşlərdə münaqişə bölgəsində etimad tədbirlərinin möhkəmləndirilməsi, qarşıdurmaların araşdırılması mexanizmlərinin yaradılması haqqında razılıq əldə edildi.



Bir yaşlı Zəhra və nənəsi

Atəşkəs elan olunmasına baxmayaraq, Ermənistan tərəfi birtərəfli qaydada tez-tez sabitliyin pozulmasına çalışırdı. Onlar silahlı qüvvələrimizin mövqelərini atəşə tutmaqla yanaşı, dinc əhaliyə qarşı da cinayətlər törədirdilər. Belə hadisələrdən biri də 2017-ci ilin iyulunda baş verdi. Füzulinin Alxanlı qəsəbəsi Ermənistan silahlı qüvvələri tərəfindən minaatanlar və qumbaraatanlardan atəşə tutuldu. Bu təxribat nəticəsində bir yaşlı Zəhra və nənəsi qətlə yetirildi. Həmişə olduğu kimi, dünya ictimaiyyəti bu hadisəyə də biganə qaldı.

Əslində, Ermənistanın hər dəfə cəbhədə təxribata əl atmasının səbəbi heç kimə sirr deyildi: cinayətkar rejim münaqişənin nizamlanması ilə bağlı danışıqlar ərəfəsində daim cəbhədə vəziyyəti gərginləşdirir və bununla da öz xalqının diqqətini ölkədəki ictimai-siyasi, sosial-iqtisadi böhrandan yayındırmağa cəhd edirdi. Düşmənlə müqayisədə Azərbaycan tərəfi isə hər zaman olduğu kimi, münaqişənin dinc yolla həllinə tərəfdar çıxır və bu istiqamətdə səylərini əsirgəmirdi. Əslində, ordumuz düşmənə qarşı öz ərazilərimizdə əməliyyat aparırdı.

Bu baxımdan da beynəlxalq təşkilatlar və böyük dövlətlər aprel döyüşləri ilə bağlı Azərbaycan əleyhinə birbaşa əks-mövqe sərgiləyə bilmədilər. Azərbaycan qarşılıqlı qaydada hərbi əməliyyatları dayandırmağa razı oldu və münaqişənin sülh yolu ilə həllinə üstünlük verdiyini bir daha nümayiş etdirdi.

Bununla da Azərbaycan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dondurulmuş münaqişə olmadığını və həmçinin bütün region üçün ciddi təhlükə mənbəyi olduğunu diqqətə çatdırdı.

Rəsmi Azərbaycan bəyan edirdi ki, işğal faktı, mövcud status-kvo ilə barışmaq və Ermənistanın təxribatlarına dözmək niyyətində deyil. Əksinə, düşmənə layiqli cavab vermək, torpaqlarını azad etmək iqtidarındadır. Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərdi. Bu hadisələr Qarabağ probleminin həllində dönüş nöqtəsi kimi tarixi əhəmiyyətə malik idi.

Aprel döyüşləri gənclərin hərbi vətənpərvərlik ruhunu daha da yüksəltdi. Siyasi mövqeyindən asılı olmayaraq, hər kəs əsil vətəndaşlıq mövqeyi nümayiş etdirdi. Azərbaycan döyüşçülərinin gücü və əzmi xalqımızın qələbəyə olan inamını daha da artırdı.

Aprel hadisələri zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılması, o cümlədən işğal altında olan torpaqlarımızın azad edilməsində qəhrəman oğullarımız böyük şücaət və igidliklər göstərmişlər.

Erməni təxribatı nəticəsində hərbçilərimiz şəhid olmuş, yaralanmış, mülki şəxslər həlak olmuşdur. Qəhrəman Azərbaycan oğulları Şükür Həmidov, Murad Mirzəyev, Samid İmanov, Pəncəli Teymurov, Raquf Orucov, Mais Bərxudarov, Polad Həşimov, Mühüd Orucov, Vüqar Yusifov və başqaları düşmənin arxa cəbhəsinə keçərək böyük zərbələr endirmiş, strateji əhəmiyyətli ərazilərimizi azad etmişlər.

Göstərdiyi igidliklərə görə Şükür Həmidov, Murad Mirzəyev və Samid İmanov **Azərbaycanın Milli Qəhrəmanı** adına, digərləri müxtəlif orden və medallara layiq görülmüşlər.

"Azərbaycanın Milli Qəhrəmanı"
adının verilməsi haqqında

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə aşağıdakı şəxslərə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilsin:

polkovnik-leytenant Həmidov Şükür Nəriman oğlu

polkovnik-leytenant Mirzəyev Murad Telman oğlu (ölümündən sonra)

mayor İmanov Samid Gülağa oğlu (ölümündən sonra).

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 aprel 2016-cı il



**polkovnik-leytenant Həmidov Şükür**



**polkovnik-leytenant Mirzəyev Murad**



**mayor İmanov Samid**

# İlham Əliyevin uğurlu diplomatiyası

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin apardığı məqsədyönlü xarici siyasət qələbəmizi şərtləndirmişdir. Dövlətimizin başçısının prinsipial, qətiyyətli mövqeyi sayəsində Azərbaycanın ardıcıl şəkildə qazandığı diplomatik uğurlar Ermənistan rəhbərliyini çətin vəziyyətdə qoyur, həmçinin işğalçı ölkə kimi onu beynəlxalq iqtisadi layihələrdən kənarda saxlayırdı.

Dövlət başçımızın Azərbaycan Ordusunun aprel qələbəsinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə görüşündə də qeyd etdiyi kimi, Ermənistan öz müstəqil həyatını Azərbaycan torpaqlarının işğalına qurban verib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev həmişə bəyan edir ki, Ermənistanın müstəqil bir ölkə kimi fəaliyyəti qonşularla münasibətlərini tənzimləməkdən və öz qüvvələrini Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarmağından asılıdır.

# Ermənistanın siyasi məğlubiyyəti

Dörd günlük müharibə həm də Ermənistan əhalisinin Robert Koçaryan və Serj Sarkisyanın liderlik etdiyi "Qarabağ klanı"*na qarşı narazılığını artırdı.

* **Qarabağ klanı** – Birinci Qarabağ müharibəsi zamanı azərbaycanlı əhaliyə qarşı qırğınlar törətmiş, daha sonra Ermənistanda hakimiyyətə gəlmiş siyasi-hərbi rəhbərlik

Narazılıqlar 2018-ci ilin aprelində Ermənistanda hakimiyyət böhranına gətirib çıxardı və Nikol Paşinyanın hakimiyyətə gəlməsinə şərait yaratdı.

Maraqlıdır ki, hakimiyyət böhranı zamanı Qarabağda atəşkəs rejimi pozulmadı. Ermənistan və Azərbaycan arasında əhalini sülhə hazırlamaq barədə razılıq əldə edildiyi açıqlandığına görə, Paşinyanın hakimiyyətə gəlişi həm vasitəçilərdə, həm də bu iki ölkədə sülhə ümid yaratdı. Amma sonrakı görüşlər bütün "ümidləri" puça çıxartdı. Çünki ermənilər problemdən çıxış yolu axtarmaq üçün birgə əməkdaşlıq əvəzinə, yenidən təxribatlara başladılar. Paşinyanın danışıqlara Dağlıq Qarabağ separatçılarının da tərəf kimi cəlb edilməsi tələbi yenidən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin kəskin etirazlarına səbəb oldu. Ermənistanın baş naziri danışıqlar prosesinə zərbə vuran addımlar atmağa başladı. Dağlıq Qarabağdakı qondarma rejim rəhbərinin Şuşada "andiçmə" mərasimi keçirməsi, burada parlament binasının tikiləcəyi ilə bağlı bəyanatlar verməsi, Ermənistan rəhbərlərinin Cıdır düzündə nümayişkaranə rəqs etməsi Azərbaycanın səbir kasasını doldurdu.

Ermənistan həm də beynəlxalq qanunlara zidd olaraq işğal edilmiş ərazilərimizdə xaricdən gətirilən ermənilərin yerləşdirilməsini həyata keçirdi. Rayonların tarixi adları belə dəyişdirildi, onlara erməncə qondarma adlar verildi. Bununla da düşmən nəinki

Dağlıq Qarabağı, hətta ətrafındakı 7 rayonu qaytarmayacağını açıq şəkildə gündəmə gətirirdi. Ermənistanın müdafiə nazirinin ABŞ-da erməni lobbisi qarşısında çıxışı zamanı "yeni müharibə, yeni ərazilər" ifadəsini işlətməsi sülh danışıqlarının vaxt itkisi olduğunu açıq-aşkar göstərdi. Beləliklə, münaqişənin tək həllinin hərbi yol olduğu artıq aydınlaşmışdı.




"Biz, sadəcə olaraq, çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq son illər ərzində aldığımız ən müasir, – mən onu bir daha qeyd etmək istəyirəm, – dünyanın ən müasir silahları bizə çox böyük imkan yaradır. Aprel döyüşləri zamanı biz, sadəcə olaraq, imkanlarımızın cüzi bir faizini nümayiş etdirdik. Bu bir daha onu göstərir ki, aprel döyüşləri Ermənistanın təxribatı idi. İndi bəziləri müxtəlif versiyalar, fərziyyələr irəli sürürlər ki, Azərbaycan əməliyyat keçirməyi planlaşdırırdı, o da sonra dayandırıldı və sair. Birincisi, biz nəyi etmək istəmişiksə, onu da etmişik. Əks-hücum əməliyyatında qarşımızda hansı hədəflər durmuşdusa, biz o hədəflərə də çatdıq. Bu gün hərbçilər və beynəlxalq mütəxəssislər bilirlər ki, əldə etdiyimiz strateji mövqelər tamamilə vəziyyəti dəyişdirib. Əgər aprel döyüşləri zamanı genişmiqyaslı əməliyyat keçirmək fikrində idiksə, biz öz hərbi potensialımızdan istifadə edərdik. Bunlar sirr deyil. Burada hər şey beynəlxalq monitorinq altındadır. Bilirlər ki, bizim uzaqmənzilli raketlərimizin, pilotsuz döyüş aparatlarımızın gücü nədən ibarətdir. Biz onlardan, demək olar ki, istifadə etmədik. Amma əgər istifadə etsək, işğal olunmuş torpaqlarda düşmənin daşı daş üstdə qalmayacaq. Bunu onlar bilsinlər və özünü növbəti dəfə biabır edən Ermənistanın siyasi rəhbərliyi danışığına fikir versin və bizim səbrimizlə oynamasın".

*Müzəffər Ali Baş Komandan* **İlham Əliyev**

# Tovuz döyüşləri

2020-ci il 12 iyulda Azərbaycanın sərhəd qoşunları Tovuz rayonu istiqamətindəki cəbhəboyu ərazilərdə Ermənistan silahlı qüvvələrinə aid zirehli texnika və canlı qüvvələrin yerdəyişmələr etdiyini müşahidə etdi. Bu, Ermənistan tərəfinin Azərbaycana qarşı hücumunun planlaşdırıldığından xəbər verirdi.

Döyüşlər Ermənistanın artilleriya qurğularından istifadə etməklə Tovuz rayonu istiqamətində mövqelərimizin atəşə tutulması ilə başlandı. İki əsgərimiz şəhid oldu. Qəhrəman Azərbaycan Ordusunun əks-həmlə tədbirləri nəticəsində düşmənin hücum cəhdinin qarşısı alındı.

Gərginlik iyulun 13-nə keçən gecə ərzində də davam etdi. Artilleriya, minaatan və tankların tətbiqi ilə gedən gecə döyüşlərində Azərbaycan Ordusunun dəqiq atəşi ilə qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, hərbi hissəsi ərazisindəki avtomobil texnikası və canlı qüvvəsi məhv edildi.



General Polad Həşimov ön xətdə

Ermənistan hərbi bölmələri ictimaiyyəti çaşdırmaq üçün Tovuz rayonunun Ağdam kəndi istiqamətində yerləşən Qaraqaya yüksəkliyini ələ keçirdikləri barədə məlumat yaydı. Ancaq ordumuzun rəhbərliyi heç bir ərazi itkisinin olmadığını, mövqelərin əvvəlki qaydada qaldığını bəyan etdi.

Tərəflər arasında atəşkəs elan edilməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələrinin bölmələri iyulun 14-ü səhər saatlarından başlayaraq Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərini müxtəlif çaplı silahlardan atəşə tutaraq hücum etməyə cəhd göstərdi. Hücumun qarşısını qəhrəmanlıqla dəf edən zaman Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev və bir neçə döyüşçümüz şəhid oldu.

Əsgərlərinin və döyüş yoldaşlarının böyük rəğbətini və sevgisini qazanan səngər generalının şəhadəti bütün Azərbaycanı ayağa qaldırdı. Onun və silahdaşlarının qəhrəmancasına həlak olması artıq ordumuzun səbir kasasını daşırdı. Azərbaycan Ordusu ermənilərin komanda məntəqəsinə hücum etdi. Düşmənə məxsus müxtəlif təyinatlı hərbi texnika, döyüş vasitələri, komanda məntəqəsi, düşmən müdafiəsinin dərinliyindəki ehtiyatlar və canlı qüvvə məhv edildi.

Bir neçə gün davam edən Tovuz döyüşləri göstərdi ki, Azərbaycan Ordusu gözlənilməz hücumun qarşısını almağa həmişə hazırdır. Döyüşlərdə düşmənə göz dağı olan igid oğulları-

mız Vətən torpağının azadlığı yolunda canlarını fəda edərək düşmən ayağının torpağımıza dəyməsinin qarşısını mərdliklə aldı.

Qarabağ cəbhəsində qəhrəman Azərbaycan Ordusu qarşısında tab gətirə bilməyəcəyini anlayan düşmən üzv olduğu **Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı***nı münaqişəyə cəlb etməyə çalışırdı.

* **Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı –** 15 may 1992-ci il tarixində əsası qoyulmuş hökumətlərarası hərbi ittifaqdır. İttifaqa Müstəqil Dövlətlər Birliyinə üzv olan Rusiya Federasiyası, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Belarus daxildir.

Ermənistan Tovuz döyüşlərində üstünlük qazanacağı təqdirdə Tovuz və Qazax rayonları istiqamətindəki ərazilərimizdən keçən Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri, Bakı–Tbilisi–Ərzurum qaz boru kəməri, Böyük İpək yolu, Bakı–Tbilisi–Qars dəmiryolu təhlükə altına düşəcəkdi. Rəşadətli Azərbaycan Ordusu düşmənin və onun havadarlarının bu məkrli planını alt-üst etdi.

Aprel döyüşləri kimi, Tovuz döyüşləri də Ermənistanın məğlubedilməzlik mifini bir daha puç etdi. İşğal olunmuş ərazilərimizi azad etmək üçün bütün vətənpərvər insanlar özlərini Vətənin əsgəri hesab edərək hərbi komissarlıqlara üz tutdular. Erməni təxribatları isə dayanmırdı. 2020-ci ilin avqust ayında təmas xəttini keçməyə çalışan kəşfiyyat təxribat qrupu hərbçilərimiz tərəfindən zərərsizləşdirildi. Qrupun rəhbəri əsir götürüldü. Bütün bunlar Ermənistanın yeni müharibəyə hazırlaşdığından xəbər verirdi.



Şəhidlərin dəfn mərasimi



Döyüşlər zamanı Bakıda, həmçinin ölkənin digər şəhər və rayonlarında Azərbaycan Silahlı Qüvvələrinə dəstək aksiyaları keçirildi. Əllərində Azərbaycan bayraqlarını tutmuş minlərlə insan küçələrə axışaraq "Qarabağ!", "Qarabağa azadlıq!", "Qarabağ Azərbaycandır!" şüarlarını səsləndirirdilər.



6

# VƏTƏN MÜHARİBƏSİ

2020-ci il sentyabrın 27-də erməni silahlı birləşmələri bütün təmas xətti boyunca Azərbaycan Ordusunun mövqelərini və cəbhə xətti yaxınlığındakı mülki yaşayış obyektlərini artilleriya və digər ağır silahlardan atəşə tutdu. Nəticədə bir neçə mülki şəxs, o cümlədən iki uşaq həlak oldu. Hərbçilərimiz arasında da itkilər var idi.

"...Münaqişənin yalnız iki tərəfi var: Ermənistan və Azərbaycan. Lakin son illər ərzində Ermənistandakı indiki hakimiyyətin törətdiyi Soros çevrilişindən sonra nələr baş verdi? Ermənistanın baş naziri açıq-aşkar bəyan edir ki, "Qarabağ Ermənistandır və nöqtə". Belə olan halda hansı danışıqlar prosesindən söhbət gedə bilər? Axı ATƏT-in Minsk qrupu tərəfindən işlənib hazırlanmış prinsiplərin mahiyyəti bundan ibarətdir ki, keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti" və ətrafındakı ərazilər Azərbaycana verilməlidir.



...Deməli, Ermənistan bilərəkdən danışıqlar prosesini pozur və qəbuledilməz tələblər irəli sürür. Əgər Minsk qrupu nizamlamaya kimin əngəl olması barədə daha fəal danışmağa başlayırsa, sentyabrın 27-də, bundan əvvəl isə iyulun 12-də olduğu kimi təxribatlar törədirlər. Bizim dövlət sərhədindəki mövqelərə hücum edilib. Sonra avqustun 23-də Ermənistanın təxribat qrupu tutulub, bu qrupun başçısı təmas xəttində saxlanılıb. Bütün bunlar Azərbaycanı təqsirləndirmək, sonra üçüncü tərəfləri cəlb etmək və beləliklə, danışıqlar prosesini pozmaq üçün edilir".

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramına müsahibəsindən. 29 sentyabr, 2020-ci il**

# Vətən müharibəsi. Dünyanı heyrətə salan 44 gün

Artıq xalqımızın səbir kasası dolmuşdu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin əmri ilə Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatları başlandı. Azərbaycan Ordusu  II Qarabağ müharibəsində "Dəmir yumruq" adını alan planı həyata keçirməyə başladı. Müharibənin ilk günündə Ağdərə, Kəlbəcər və Füzuli-Cəbrayıl istiqamətində əks-hücuma  keçən silahlı qüvvələrimiz düşmənə ağır zərbələr endirdi. Füzuli rayonunun Qaraxanbəyli,  Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad edildi. Şimal istiqamətində isə  ordumuz düşmənin müdafiə xətlərini darmadağın edərək  Ağdərə rayonunda  bir sıra yüksəklikləri və Kəlbəcərin strateji əhəmiyyətli Murovdağ silsiləsindəki yüksəklikləri ələ keçirdi.

Müharibənin ilk günlərindən etibarən Pilotsuz Uçuş Aparatlarının (PUA) köməyi ilə Ermənistan ordusunun Hava Hücumundan Müdafiə Sistemləri sıradan çıxarıldı. Bu sistemlərin aşkara çıxarılıb məhv edilməsi üçün əvvəlcə köhnə və ucuz  pilotsuz uçuş təyyarələrinə çevrilmiş yüngül, çoxtəyinatlı təyyarə növü AN (Antonov-2) təyyarələri havaya buraxılırdı. Onlardan yalançı hədəf kimi istifadə edilirdi. Bunu həqiqi döyüş təyyarələri hesab edən düşmən isə "hədəf"i atəşə tuturdu.  Müəyyən edilən atəş nöqtələri isə Türkiyə istehsalı olan "Bayraktar", İsrail istehsalı olan "Harop"  və Azərbaycanın yerli istehsalı olan "Zərbə" adlı PUA-larla məhv edilirdi.

Bu, dünya hərb tarixində bir ilk idi. Müharibənin ilk günlərində  Ermənistan Müdafiə Nazirliyi  hər gün Azərbaycanın bir neçə qırıcı təyyarəsinin vurulduğunu fəxrlə bəyan edirdi.



**Düşmənin Hava Hücumundan Müdafiə Sisteminin məhv edilməsi taktikası**







Məhv edilmiş düşmən texnikaları

Düşmən əsil həqiqəti anlayanda isə artıq gec idi. Düşmənin  Qarabağdakı Hava Hücumundan Müdafiə Sistemləri darmadağın edilmişdi. Azərbaycan Ordusu XXI əsrin müharibəsini aparır, düşmənə, sözün həqiqi mənasında, hərbi "dərs" keçirdi. Düşmənin öyündüyü və arxalandığı "OSA", "S-300", "TOR" qurğularının böyük hissəsi müharibənin ilk günlərindəcə məhv edildi. Nəticədə Qarabağ səmasında Azərbaycan şahinləri böyük üstünlük əldə etdilər.




**Bulletin of the Atomic Scientists**

ABŞ-ın Çikaqo ştatında yerləşən  "Bulletin of the Atomic Scentists" analitik mərkəzinin "The Bulletin" adlı elektron nəşri Azərbaycan Ordusunun bu taktikası haqqında yazır:

"Bununla da Azərbaycan dünyaya nümayiş etdirdi ki,  hətta AN-2 kimi köhnəlmiş  texnikanı da yeni profilə gətirmək və dron (PUA) kimi effektiv şəkildə müharibədə istifadə etmək olar. ...Digər ölkələr, xüsusilə də öz arsenalında bolluca köhnəlmiş sovet texnikaları olan ölkələr, yəqin ki, Azərbaycanın bu nümunəsindən istifadə edəcəklər".

"The Bulletin"in hərbi təhlilçiləri qeyd edirlər ki, 2018-ci ildə ilk dəfə Çin bu təyyarələri pilotsuz yük təyyarələrinə çevirmişdi. Azərbaycan isə başqa yola gedib və texnikanın profilini döyüş aparmaq üçün dəyişdirmişdir.

# Qarabağ Azərbaycandır!

Müharibə başlayan gün, sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyev  televiziya vasitəsilə xalqa müraciət etdi. Müraciət bu sözlərlə başa çatırdı:

Ali Baş Komandanın "Qarabağ Azərbaycandır!" cümləsi 44 günlük müharibə dövründə müharibənin simvoluna çevrildi. Qəhrəman əsgərlərimiz də bir-birinin ardınca azad etdikləri yaşayış məntəqələrimizdən Müzəffər Ali Baş Komandana məruzələrini məhz bu cümlə ilə tamamlayırdılar.



"Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"-nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. **Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"**



# Füzuli uğrunda döyüşlər

Düşmən tərəfi ilk günlərdən geri çəkilmələrini "taktiki gediş" adlandırır, guya Azərbaycan Ordusuna dağlıq ərazilərdə zərbə endirəcəklərindən dəm vururdular. 2020-ci il oktyabrın 3-dən 17-dək davam edən bu əməliyyata Azərbaycan Ordusunun generalları: Mais Bərxudarov və Hikmət Mirzəyev rəhbərlik edirdi.

Cənub-qərb istiqamətində düşmənə ağır zərbələr endirən ordumuz oktyabrın 4-də Cəbrayıl şəhərini və bir neçə kəndi işğaldan azad etdi. Xocavənd istiqamətində də bir neçə kəndi erməni quldur dəstələrindən təmizləyən ordumuz əks-hücuma cəhd edən düşmənin mövqelərimizin içərilərinə doğru irəliləməsinə bilərəkdən mane olmadı. Hadrutdan Araz çayı istiqamətində hərəkət edən Ermənistan silahlı birləşmələrinin əsas məqsədi qüvvələrimizi parçalamaq və ayrı-ayrılıqda məğlub etmək idi. Düşmənin niyyəti haqqında kəşfiyyat məlumatlarına malik olan ordumuz onların özünü tələyə saldı.

Cəbrayıldan şimala yönələn hərbi birləşmələrimiz tarixi "Turan taktikasını" tətbiq edərək düşmənin 12 minlik hərbi qruplaşmasını mühasirəyə aldı.



Qənimət götürülmüş düşmən texnikaları


Məhv edilmiş düşmən texnikaları



PUA zərbələri

**AZƏRBAYCAN ORDUSUNUN ƏKS-HÜCUM İSTİQAMƏTLƏRİ**




Müharibənin ilk günlərindən Azərbaycan Ordusu düşməni əsasən iki istiqamətdən sıxışdırırdı:

1. Şimaldan Kəlbəcər və Ağdərə;
2. Cənubdan Füzuli-Cəbrayıl.

Ermənistan ordusu bölmələrinə sarsıdıcı zərbə endirildi. Canlı qüvvə baxımından böyük itkilər verən düşmən hərbi texnikalarını da döyüş meydanında atıb qaçdı. Təkcə bu əməliyyatda 27 düşmən tankı qənimət kimi ələ keçirildi, onlarla hərbi texnika isə məhv edildi. Vətən müharibəsində Ermənistan işğalından azad edilmiş ilk rayon mərkəzi olan Cəbrayıla qələbə bayrağı sancıldı.


İlham Əliyev
@azpresident
Bu gün #Azərbaycan ordusu #Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. #Qarabağ Azərbaycandır!

Oktyabrın əvvəllərində Ağdərə istiqamətində düşmənə zərbə endirən qoşunlarımız buradakı böyük strateji əhəmiyyətə malik Madagiz (Suqovuşan) yaşayış məntəqəsini azad etdi. Elə həmin gün Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə məntəqənin adı Suqovuşan adlandırıldı.


İlham Əliyev
@azpresident
2020-ci il oktyabrın 3-dən #Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra #Suqovuşan adlandırılır. #Qarabağ #Azərbaycandır!



Sentyabrın 27-də "Spayk" uzunmənzilli raketlərlə silahlanmış "Mi-17" helikopteri ilə uçuşlar həyata keçirən Ramiz Vaqif oğlu Qasımov Tərtər istiqamətində düşmənin strateji əhəmiyyətli hədəflərini, bir neçə "OSA" zenit-raket kompleksini və P-19 radiotexniki vasitəsini məhv etmişdi. Növbəti uçuşlarının birində düşmən atəşi nəticəsində onun helikopteri vuruldu. Qəhrəman polkovnik-leytenant heyətə hava maşınını tərk etməyi əmr edir. Özü isə yanmaqda olan helikopteri yaşayış məntəqəsindən uzaqlaşdırır və boş sahəyə yönəldir. Helikopteri ən axırda tərk edən Ramiz Qasımov başından aldığı ağır zədədən komaya düşür. Həkimlərin səyinə baxmayaraq, igid polkovnik-leytenantın həyatını xilas etmək mümkün olmur.

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə polkovnik-leytenant Ramiz Qasımov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüş, "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

"Onu da deməliyəm ki, artıq Hadrut bizim əlimizdə olan zaman Ermənistan rəhbərliyi, rəsmi şəxslər, eyni zamanda Ermənistanın dəyirmanına su tökən bəzi xarici jurnalistlər bəyan edirdilər ki, Hadrut ermənilərin əlindədir. Mən bu günə qədər başa düşə bilmirəm ki, Ermənistan rəhbərliyi nə üçün öz xalqını aldadırdı? Biz dəqiq bilirdik ki, Hadrut bizdədir. Biz bilirdik ki, artıq Ermənistan ordusu burada tamamilə məhv edilib və sağ qalan erməni hərbçilər buradan qorxaqcasına qaçıb dağlarda gizlənmişdilər. Hadrut tam bizdə idi. Ancaq bəzi xarici jurnalistlər bildirirdilər ki, guya Hadrut ermənilərin əlindədir. Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq".

*Müzəffər Ali Baş Komandan*
**İlham Əliyev**

Ermənistan tərəfi isə bütün bu məğlubiyyətləri "taktiki geriçəkilmə" adlandırır, həlledici zərbə endirəcəkləri barədə məlumat yayırdı. Oktyabrın 9-da Hadrut qəsəbəsi düşməndən təmizləndi. Hadrutun işğaldan azad edilməsi ilə Şuşaya gedən yol açılırdı. Hərbi-strateji əhəmiyyəti baxımından Hadrutun azad edilməsi 44 günlük savaşın taleyini müəyyən etdi.

Nəhayət, oktyabrın 17-də müzəffər Azərbaycan Ordusunun Cəbrayıl, Hadrut və Xocavənd istiqamətlərindən mühasirəyə aldığı Füzuli şəhəri də düşməndən tam azad edildi. Artıq Zəngilana və Qubadlıya da yol açılmışdı. Uğurla başa çatan Füzuli əməliyyatı ilə ordumuz düşmən üzərində həm də mənəvi-psixoloji qələbə qazandı. Nə Ermənistan hərbi rəhbərliyinin "keçilməz" deyə öyündüyü bir neçə xətdən ibarət müdafiə eşalonları, nə də 30 il ərzində qurduqları yeraltı-yerüstü istehkam və bunkerlər onların köməyinə çatdı. Azərbaycan Ordusunun sarsıdıcı zərbələri düşmən əsgərlərinin müqavimətini, gücünü tamamilə qırdı. Səmada isə PUA-larımız düşmənə səngərlərindən baş çıxarmağa belə imkan vermədi.

Düşmənin uydurduğu və uzun illər təbliğ etdiyi "məğlubedilməz erməni ordusu" haqqındakı mif bir neçə gün içərisində elə dünyanın gözü qarşısında

rəşadətli Azərbaycan Ordusu tərəfindən yox edildi. Artıq Azərbaycan əsgərinin ayaq səslərini eşidən kimi işğalçı düşmən ordusu döyüş  mövqelərini qoyub qaçırdı.  Ermənistan ordusunda idarəçilik itmiş, fərarilik kütləvi hal almışdı. "Məğlubedilməz ordu"nun zabitləri  isə baş alıb gedən fərariliyin qarşısını almağın çıxış yolunu əsgərlərini postlara zəncirləməkdə görürdülər. Ermənistan rəhbərliyi isə hərbi əməliyyatların gedişi haqqında doğru-düzgün məlumat vermədən öz xalqını aldatmaqla məşğul idi. Füzuli əməliyyatından az sonra Zəngilan-Qubadlı istiqamətində düşmənin daha bir hərbi birləşməsi müzəffər ordumuz tərəfindən darmadağın edildi. Oktyabrın 20-də Zəngilan, oktyabrın 25-də isə Qubadlı rayonu işğalçılardan təmizləndi. Azərbaycan Ordusu bu addımları ilə BMT-nin qəbul etdiyi, lakin 30 ilə yaxın keçən dövr ərzində icra olunmayan qətnamələrini də bir-birinin ardınca yerinə yetirməkdə idi.



Xüsusi Təyinatlı Qüvvələrin baş giziri Camal Vidadi oğlu İsmayılov peşəkar kəşfiyyatçı idi. Bir neçə dil, o cümlədən erməni dilini də mükəmməl bilirdi. O, 2016-cı ildə aprel döyüşlərinin də iştirakçısı olmuşdu. Füzulidən Laçına qədər döyüş yolu keçən qəhrəman gizir Hadrut qəsəbəsinin azad edilməsində müstəsna rol oynamışdır.

Baş gizir Camal İsmayılov Laçın dəhlizi uğrunda baş verən qeyri-bərabər döyüşdə sayca üstün olan düşmən qüvvəsinə qarşı sona qədər döyüşərək qəhrəmanlıqla şəhid olmuşdur.  Ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş, "Vətən uğrunda",  "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.



Azərbaycan Ordusunun baş leytenantı Adil Asəf oğlu İbrahimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ döyüşlərində, həmçinin Cəbrayıl, Füzuli, Xocavənd və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olmuş, II Fəxri xiyabanda dəfn edilmişdir.

Azərbaycanın  işğal edilmiş ərazilərinin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman qəhrəmanlıq, mərdlik və şəxsi igidlik nümayiş etdirmişdir. Ölümündən sonra  Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Adil İbrahimliyə "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş, o, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Öz həyat yoldaşının – Adilin nəşini çiynində daşıyan Nargül xanım deyir ki, qardaşım Elton Qənbərli şəhid olanda ağlayırdım. Həyat yoldaşım Adil mənə dedi ki, "Elton şəhid olduğu üçün ağlama, o ən uca məqamdadır. Sən ona görə ağla ki, mən sağam".

Nargül xanım ona söz verir. Son məqamda Adili çiyinlərində daşıyanda belə göz yaşı axıtmayıb, məğrur şəkildə dik dayanır...

## Suda batan saman çöpündən yapışar

Döyüş meydanında məğlub olan və vəziyyətin getdikcə ağırlaşdığını görən Ermənistan rəhbərliyi dünya dövlətlərindən, havadarlarından imdad diləməyə başlamışdı. Qarabağın üzük qaşı hesab edilən Şuşada, Cıdır düzündə qol açıb oynayan, orada qondarma rejimin rəhbərliyi üçün "andiçmə" mərasimi keçirən Ermənistanın baş naziri cəbhədəki ağır məğlubiyyətlərini diplomatik yolla sığortalamağa çalışırdı. Onun əsas məqsədi nəyin bahasına olursa-olsun, ordumuzun zəfər yürüşünü dayandırmaq idi. Ermənistan rəhbərliyi, demək olar ki, hər gün bir ölkəyə kömək üçün müraciət edir, onları Azərbaycanı durdurmağa çağırırdı.

Azərbaycan Prezidenti İlham Əliyev isə hərbi əməliyyatlar başlayandan dərhal sonra onu dayandırmağın yollarını açıq şəkildə bəyan etmişdi: Ermənistan öz silahlı qüvvələrini Azərbaycandan çıxarmalı, Azərbaycanın ərazi bütövlüyünü tanımalı, işğal edilmiş rayonların geri qaytarılmasının qrafikini təqdim etməlidir.



Vətən uğrunda döyüşlərdə iştirak edən 22 yaşlı Xudayar Müslüm oğlu Yusifzadənin adı dillər əzbəridir. Sərhəd qoşunlarında xidmət edən igid döyüşçümüz Füzuli, Hadrut, Zəngilan və Qubadlı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Təkcə igidliyi ilə deyil, gülər üzü və məlahətli səsi ilə də əsgər yoldaşlarını daim qələbəyə ruhlandırırdı. Yaralı döyüş yoldaşlarını atəş altından çıxaran Xudayar Yusifzadə Zəngilan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilən Xudayarın cəbhə xəttində oxuduğu (sözləri məşhur qəzəlxan Əliağa Vahidə, musiqisi isə qocaman xanəndəmiz Əlibaba Məmmədova məxsusdur) "Vətən yaxşıdır" təsnifi şəhidimizin simfoniyasına çevrildi. Xalq artisti Əlibaba Məmmədov isə bəstələdiyi bu mahnını şəhidimizin şərəfinə "Xudayar təsnifi" adlandırdığını elan etdi.

## Mülki əhaliyə qarşı törədilən cinayətlər

Cəbhədə, döyüş meydanında sarsıdıcı məğlubiyyətlərdən və verdiyi böyük itkilərdən azğınlaşan düşmən Azərbaycanın mülki yaşayış məntəqələrini, dinc əhalini hədəfə almağa başladı.

Təmas xəttindən uzaqda yerləşən yaşayış məntəqələrimizi, dinc əhalini raket atəşinə tutan erməni hərbçiləri bununla ölkəmizdə vahimə və qarışıqlıq yaradacağına ümid edirdi. Oktyabrın əvvəllərindən başlayaraq Tərtər, Bərdə, Beyləqan və Gəncə şəhərləri



"...İndiki vəziyyətdə birinci günahkar Ermənistan rəhbərliyidir. Eyni zamanda, bu məsələyə biganə yanaşan və daim Ermənistanın tərəfini saxlayan, bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin dairələridir. Azərbaycan özü bu məsələni həll edir.

...Paşinyan hər gün bir dünya liderinə zəng edir. Mən heç kimə zəng etməmişəm. Mənə zəng ediblər, təmaslarım olub. Amma o adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, onların ayağına yıxılmasın. Bax budur bunun sonu! Əgər bizimlə normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi murdarlamasaydı, əlbəttə, biz ümidlərlə yaşayıb çalışardıq, bu məsələ sülh yolu ilə həll olunsun. Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik, kim kimdir!

...İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların tanklarını biz sürürük! Onların digər texnikaları, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!"

*Müzəffər Ali Baş Komandan*
**İlham Əliyev**

aramsız raket atəşinə məruz qaldı. Bu raketlər təkcə ermənilərin Qarabağdakı mövqelərindən deyil, Ermənistan ərazisindən də atılırdı. Bununla Ermənistan rəhbərliyi həm Azərbaycanı cavab atəşi açmağa, həm də üçüncü ölkəni münaqişəyə cəlb etmək niyyəti güdürdü. Yaşayış məntəqələrimizə atılan hərbi sursatlar arasında qadağan edilmiş kaset bombaları da var idi. Nəticədə xeyli sayda mülki şəxs həlak oldu. Həyatını itirənlərin arasında körpə uşaqlar da var idi. Lakin verilən çoxsaylı insan itkilərinə, evlərinin dağılmasına baxmayaraq, heç kim öz doğma yurd-yuvasını tərk etmədi. Əksinə, bu cinayətlər xalqımızı daha da birləşdirdi, mübarizə əzmini daha da artırdı. Azərbaycanın hər yerindən evləri dağılmış, qohum-əqrabalarını itirmiş ailələrə yardımlar gəlirdi. Müharibə getməsinə baxmayaraq, dövlət də bu ailələrin sosial vəziyyətini diqqətdə saxlayırdı.



2020-ci il oktyabrın 9-da Rusiya Federasiyası Prezidenti V.Putinin vasitəçiliyi ilə Moskvada Azərbaycan və Ermənistan XİN-nin görüşü baş tutdu. Görüşdə humanitar atəşkəs*in elan edilməsi ilə bağlı razılıq əldə edildi. Lakin əldə edilən atəşkəsi elə özləri də pozdular. Oktyabrın 11-də gecə saat 2 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ikinci böyük şəhəri olan və müharibə zonasından uzaqda yerləşən Gəncə şəhəri qadağan edilmiş raketlərlə atəşə tutuldu. Nəticədə 10 nəfər dinc sakin həyatını itirdi, 35 nəfər yaralandı. Ümumiyyətlə, hərbi cinayətlər nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla, 93 mülki şəxs həlak oldu, 454 mülki vətəndaş yaralandı və evsiz-eşiksiz qaldı.

* **Humanitar atəşkəs** – hərbi əsirlər, saxlanılan şəxslər və ölənlərin cəsədlərinin dəyişdirilməsi məqsədilə hərbi əməliyyatların dayandırılması









**Azərbaycan şəhərləri Ermənistan ordusunun raket zərbələrindən sonra**

Bu çətin anlarda Azərbaycan hökuməti xarici media nümayəndələrini atəşə tutulmuş yaşayış məntəqələrimizə aparır, hadisələrin yerindəcə işıqlandırılmasını və bu hərbi cinayətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasını  təmin edirdi. 44 günlük müharibə dövründə qardaş Türkiyənin xəbər agentlikləri, televiziya kanalları xalqımıza qarşı törədilən cinayətlərin, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mühüm rol oynadı.



**CNN-Türk müxbiri Fulya Öztürkün Gəncədən reportajı**

"Ermənilərdən fərqli olaraq, biz müharibə dövründə ancaq hərbi birləşmələrə qarşı müharibə aparmışıq, onları məğlub etmişik, onları torpaqlarımızdan qovmuşuq. O ki qaldı mülki əhaliyə, Ermənistanın statistikasına görə, müharibə dövründə təqribən 40-a yaxın mülki şəxs həlak olmuşdur. Onların da böyük əksəriyyəti məhz hərbi əməliyyatlarda iştirak edən mülki şəxslər idi".

*Azərbaycan Respublikasının Prezidenti*
**İlham Əliyev**

Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi. Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi. Hər gün döyüş əməliyyatı planları mənim tərəfimdən təsdiq edilirdi və hər gün görülmüş işlərə yekun vurularaq məsələ təhlil edilirdi – gün ərzində görülmüş işlər bizim planlarımıza hansı dərəcədə uyğundur və biz hansı nailiyyətlərə çata bilmişik. Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna gedən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə bəlkə də 10-20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir. Beləliklə, Laçın rayonunun cənub hissəsində yerləşən Güləbird kəndi, Səfiyan kəndi, Türklər kəndi azad edilib və eyni zamanda, strateji yüksəkliklər ələ keçiriləndən sonra bu, bizə imkan verdi ki, Laçın dəhlizi artıq atəş altına düşsün.

Düşmən bizi bu tərəfdən gözləyirdi. Çünki təbii ki, düşmən bilirdi Şuşa azad edilməmiş müharibə dayana bilməz. Düşmən hesab edirdi ki, biz Laçın rayonunun cənub hissəsini götürəndən sonra bu tərəfdən Şuşaya gedəcəyik. Biz də bilirdik ki, düşmən bizi orada gözləyir. Biz Şuşaya başqa yolla getdik, onların gözləmədiyi yoldan keçdik. Bu günə qədər də onlar inana bilmirlər ki, bizim qəhrəman əsgər və zabitlərimiz o dağlardan, dərələrdən, meşələrdən necə keçərək Şuşaya yaxınlaşıb və Şuşanı işğaldan azad ediblər. Onlar bizi buradan gözləyirdilər, eyni zamanda, Xocavənd rayonunun Qırmızıbazar qəsəbəsi istiqamətində gözləyirdilər. Biz isə Şuşaya başqa yolla getdik. Şuşaya yaxınlaşaraq bir neçə kəndi azad etdik, o cümlədən Sığnaq, Çanaxçı və Daşaltı kəndini azad etdik. Qubadlı əməliyyatının çox böyük əhəmiyyəti var idi. Çünki Qubadlıdan sonra biz Şuşa şəhərini işğaldan azad etdik. Oktyabrın 25-də Qubadlı azad olundu və noyabrın 8-də Şuşa şəhəri azad edildi. Beləliklə, düşmən təslim olmağa məcbur oldu.

*Müzəffər Ali Baş Komandan*
**İlham Əliyev**




## Şuşa əməliyyatı

Vətən müharibəsində Azərbaycan Ordusunun şah əsəri Şuşa əməliyyatı oldu. Düşmən Qarabağımızın gözü sayılan bu şəhəri təxminən 1500-2000 nəfərlik qüvvə və çoxsaylı hərbi texnika ilə müdafiə edirdi. Onlar Pənahəli xanın tikdirdiyi qala-şəhərin alınmazlığına əmin idilər.

Lakin general Hikmət Mirzəyevin rəhbərlik etdiyi Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri doğma Şuşanı azad etməkdə qərarlı idi. Onlar cəmi 400 nəfərlik dəstə ilə əsas yoldan deyil, düşmənin ağlına belə gəlməyəcək bir istiqamətdən – sıldırım qayalıqlardan dırmaşaraq şəhərə daxil oldular. Yalnız yüngül silahlarla silahlanmış qəhrəman əsgərlərimiz 4 tərəfdən düşmənin içərisinə ustalıqla sızaraq əlbəyaxa döyüşdə Ermənistan ordusunun qüvvələrini məhv etdilər. Düşmən yüzlərlə döyüşçüsünün cəsədini döyüş meydanında qoyaraq qaçmağa məcbur oldu. 2020-ci il noyabrın 8-də Şuşa düşmən tapdağından azad edildi.

Şuşa uğrunda döyüşlərə qədər ordumuzun qələbələrini üstün hərbi texnikaya, PUA-a bağlayan hərbi ekspertlər, həmçinin dünya mediası ordumuzun şəxsi heyətinin döyüş ruhu və bacarığı qarşısında heyrətlərini gizlədə bilmədilər. Bu qələbə Azərbaycanın düşmən üzərində həlledici üstünlüyünü təmin etdi.

Şuşa işğaldan azad olunandan sonra artıq düşmən dərk etdi ki, bundan sonra müqavimət göstərmək heç bir əhəmiyyət kəsb etməyəcək. Şuşa işğaldan azad olunandan bir gün sonra qəhrəman Azərbaycan Ordusu daha 70-dən



Xüsusi Təyinatlı Qüvvələrin giziri, "Dəmir bilək" və ya sadəcə, "Dəmir" ləqəbli Siyahim Əlizamin oğlu Dəmirov 2016-cı ilin aprelində Lələtəpə uğrunda gedən döyüşlərdə və 2020-ci ilin iyulunda Tovuz rayonu ərazisində baş verən düşmən təxribatının qarşısının alınmasında iştirak etmişdi. Sentyabrın 27-də Vətən müharibəsi başlayarkən S.Dəmirov döyüşlərə qatılmış, Füzulidən Şuşaya qədər döyüş yolu keçmişdir. "Mən canımı da Vətən yolunda qurban deyirəm, torpağımda son erməni əsgəri qalanadək döyüşəcəyəm. "Mənə heç kim "Dur!" əmri verməsin", – deyən igid kəşfiyyatçımız Daşaltı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak oldu. Ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı, "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Şücaətə görə" medalları ilə təltif edilmişdir.

çox yaşayış məntəqəsini işğalçılardan azad edib və əslində, bu, düşmənə vurulan son zərbə idi. Təsadüfi deyil ki, noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzaladı. Şuşanın azad edilməsi müharibənin taleyini həll etdi. Noyabrın 9-dan 10-na keçən gecə Rusiya, Azərbaycan, Ermənistan rəhbərləri üçtərəfli bəyanat imzaladı. Hərbi əməliyyatlar dayandırıldı. Bu bəyanat Azərbaycanın qələbəsini, Ermənistanın isə məğlubiyyətini rəsmiləşdirən sənəd idi. Bəyanatda işğalçı ölkə qoşunlarını Azərbaycanın digər işğal altındakı ərazilərindən – Ağdam, Kəlbəcər və Laçından çıxaracağını, Zəngəzurdan Naxçıvana dəhliz açacağını öz öhdəsinə götürürdü. Münaqişə zonasına isə Rusiya sülhməramlıları yerləşdirilirdi.



**Azərbaycan Respublikasının Prezidenti,**
**Ermənistan Respublikasının baş naziri**
**və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı**

10 noyabr 2020, 04:45

Biz, Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin aşağıdakıları bəyan edirik:

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası tutduqları mövqelərdə qalacaqlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyətini Tərəflərdən hər hansı biri bəyan etməzsə, avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılır.

5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km. enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.

Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.

| | | |
|---|---|---|
| Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev | Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan | Rusiya Federasiyasının Prezidenti V.V.Putin |

**Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı**




Beləliklə, sentyabrın 27-dən başlayan Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdı. Ermənistan öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirmək məcburiyyətində qalaraq 2020-ci il noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonlarını Azərbaycana təhvil verdi.

> "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir".
>
> *Müzəffər Ali Baş Komandan*
> **İlham Əliyev**

> "Bu gün bir çox ölkələrdə, inkişaf etmiş ölkələrdə bizim təcrübəmiz öyrənilir. Bu gün bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib".
>
> *Müzəffər Ali Baş Komandan*
> **İlham Əliyev**

Hərbçilərimizin torpaqlarımızın azad edilməsi barədə Ali Baş Komandana məruzələri

Cəbrayıl. 4 oktyabr 2020-ci il



Şuşa. 8 noyabr 2020-ci il



Füzuli. 17 oktyabr 2020-ci il



Ağdam. 20 noyabr 2020-ci il



Zəngilan. 20 oktyabr 2020-ci il



Kəlbəcər. 25 noyabr 2020-ci il



Qubadlı. 25 oktyabr 2020-ci il



Laçın. 1 dekabr 2020-ci il



# Diplomatiyada uğurlarımız

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsi dövründə dünyanın bir sıra kütləvi informasiya vasitələrinə çoxsaylı müsahibələr vermiş, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır. Azərbaycan Respublikasının Prezidenti hər bir çıxışı ilə yalanlarla dolu erməni təbliğatını darmadağın edirdi. Ölkə başçısının dəqiq faktlara əsaslanan çıxışları, diplomatik məharəti, dünya ölkələrinin tarixi və siyasəti haqqında hərtərəfli bilikləri xarici ölkələrdə Azərbaycan xalqına, dövlətinə qarşı rəğbət hissi yaradırdı. Əks tərəfdə isə Ermənistan baş nazirinin hər bir çıxışı onu və işğalçı Ermənistanı gülünc vəziyyətə salırdı.

2020-ci il oktyabrın 19-da BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar keçirilmiş müzakirələrdən sonra Təhlükəsizlik Şurasının adından Rusiya və Fransa tərəfindən bəyanat layihəsi hazırlandı. Lakin layihədə BMT Təhlükəsizlik Şurasının işğal edilmiş Azərbaycan əraziləri barəsində olan qətnamələrə istinad yox idi. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi, o cümlədən Qoşulmama Hərəkatının üzvü olan ölkələr həmin qətnamələrin  bəyanata daxil edilməsində israr etdi. Nəticədə münaqişə haqqında əsil həqiqətləri özündə əks etdirməyən layihə geri götürüldü. Bu, Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycanın mühüm qələbəsi idi.

Beləliklə, müzəffər ordumuz Qarabağ uğrunda döyüşlərdə, Azərbaycan diplomatiyası isə beynəlxalq arenada ardıcıl qələbələr qazandı. Müharibənin ilk



Prezident İlham Əliyevin xarici jurnalistə müsahibəsi





Prezident İlham Əliyevin televiziya vasitəsilə "10 noyabr" üçtərəfli Bəyanatını xalqa elan etməsi

günlərindən bir sıra ölkələr: Türkiyə, Pakistan, Ukrayna, Gürcüstan və digərləri Azərbaycanın haqq işini müdafiə edərək siyasi dəstəklərini əsirgəmədi.



Türkiyə Respublikası Azərbaycana ən böyük mənəvi-siyasi dəstək verən ölkə idi. Türkiyənin  Prezidenti Rəcəb Tayyib Ərdoğan müharibənin ilk günlərindən  çəkinmədən dünyaya "Azərbaycanın yanındayıq" mesajını  verdi. Türkiyə rəsmiləri  44 günlük Vətən müharibəsi dövründə bir neçə dəfə Azərbaycana səfər etmiş, ölkəmizin haqlı mövqeyini  diplomatik tribunalardan da müdafiə etmişlər.  Bütün bunlar "Bir millət, iki dövlət" ideyasının təntənəsi idi.

Rusiya prezidenti Vladimir Putin də Azərbaycanın öz ərazisində müharibə apardığını əsas gətirərək Ermənistan baş nazirinin kömək üçün xahişlərini rədd etdi. Qonşu İran İslam Respublikasının rəhbərliyi də Azərbaycan Respublikasını müdafiə edən bəyanat verdi. Beləliklə, Vətən müharibəsi dövründə Azərbaycanın diplomatik səyləri nəticəsində işğalçı ölkə olan Ermənistan region ölkələri arasında təklənmiş vəziyyətə düşdü, siyasi, diplomatik və informasiya sahələrində də tamamilə məğlub edildi.

## Qələbə necə qazanıldı

44 günlük müharibədə Müzəffər Ali Baş Komandan–Müzəffər Xalq–Müzəffər Ordu birliyi dəmir yumruğa çevrilərək düşmənin məhv edilməsində əsas rol oynadı. Dilindən, dinindən, irqindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları yağı düşmənə qarşı bir yumruq kimi birləşdilər.





Müharibənin ilk günlərindən Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri doğma vətənlərinin müdafiəsinə qalxdılar. XX əsrin 90-cı illərin əvvəllərindən fərqli olaraq ölkədə vahid komandanlıq, güclü siyasi hakimiyyət var idi. Ən müasir silahlarla silahlandırılmış peşəkar ordu formalaşdırılmışdı. 1994-cü ildə imzalanmış atəşkəs sazişindən keçən 26 il ərzində Azərbaycan Respublikasının rəhbərliyi dəfələrlə problemin sülh yolu ilə həll edilməsinin tərəfdarı olduğunu bəyan etmişdi.



” Müharibə zamanı gördüyümüz işlər bu gün aparıcı ölkələrin ali hərbi məktəblərində öyrənilir. Bu haqda məndə dəqiq məlumat var. Bizim xarici tərəfdaşlarımız bu məlumatı bizə çatdırıblar ki, ən inkişaf etmiş ölkələrin ali hərbi məktəblərində Azərbaycanın döyüş taktikası, bizim əməliyyatlar öyrənilir və bu, müasir döyüş taktikasıdır. Bizə qədər dünyada heç kim bu taktikadan istifadə etməyib. Burada bütün vacib amillər bir məqsədi güdürdü ki, az itkilərlə düşmənə sarsıdıcı zərbələr vuraraq, düşmənin ordusunu faktiki olaraq məhv edərək hədəfə çataq və belə də oldu. Biz sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, sonra hücum əməliyyatına keçdik. Çünki biz torpaqlarımızı azad etməli idik. Ermənistanın təxribatlarına son qoyulmalı idi. Günahsız insanların həlak olmasına son qoyulmalı idi və əks-hücumdan sonra hücum edən tərəf, adətən, daha çox itki verir. Ancaq bizim itkilərimiz müharibənin miqyasına görə həddindən çox aşağıdır. Hər bir şəhidimiz əvəzolunmazdır, hər bir insanın həlak olması böyük faciədir, onun özü üçün, yaxınları üçün, qohumları üçün, xalq üçün. Ancaq onu da bildirməliyik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Məhz buna görə ola bilər bəziləri hesab edir ki, bu məsələ daha da tez həll oluna bilərdi. Halbuki 44 gün ərzində bu ərazini işğaldan azad etmək və düşməni məhv etmək, düşmən ordusunu məhv etmək, düşməni təslim olmağa məcbur etmək böyük qəhrəmanlıqdır.

Biz çalışırdıq, öz taktikamızı elə quraq ki, itkilər az olsun. Eyni zamanda, bizim taktikamızda gözlənilməz addımlar da kifayət qədər çox idi. İstifadə etdiyimiz taktiki üsullar dünya hərb elmi üçün yenilikdir. Vaxt keçdikcə bu məsələ ilə bağlı daha geniş məlumat veriləcək. Ancaq bu gün də artıq xarici mətbuata sızılan məlumatlar da onu göstərir ki, bu müharibə hərbi ekspertlər tərəfindən çox ciddi təhlil edilirdi və edilir. Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat – bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi.

*Müzəffər Ali Baş Komandan*
**İlham Əliyev**




Lakin bununla yanaşı, əgər danışıqlar prosesi nəticə verməzsə, işğal edilmiş ərazilərin hərb yolu ilə azad ediləcəyi Ermənistan rəhbərliyinin və Minsk qrupunun həmsədr ölkələrinin diqqətinə çatdırılmışdı. İlham Əliyevin 2003-cü ildə prezident seçilməsindən sonra ordu quruculuğuna diqqət daha da artırıldı. Yeni hərbi doktrina hazırlandı, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da artırılması üçün mühüm addımlar atıldı. 2003-cü ildən keçən dövr ərzində hərbi xərclərə dövlət büdcəsindən ayrılan vəsait bütün Ermənistan büdcəsinə bərabər və ya ondan da çox olmuşdur. Bütün bu amillər 44 günlük Vətən müharibəsindəki böyük qələbəmizdə həlledici rol oynadı. Rəşadətli ordumuz havada və quruda düşmənə aman vermədi.

Düşmənin itkiləri o qədər böyük oldu ki,  müharibənin sonuna yaxın, demək olar ki, ordusuz qaldı. Çətin döyüş şərtlərinə, bütün strateji yüksəkliklərin düşmənin əlində olmasına baxmayaraq, Azərbaycan Ordusu inanılmaz manevrlər edərək düşmənin "alınmaz" hesab etdiyi müdafiə xətlərini bir-birinin ardınca ələ keçirdi. Kiçik qruplarla düşmən içərisinə sızan qəhrəman əsgərlərimiz az qüvvə ilə düşmənin sayca üstün qüvvələrini darmadağın edib müqəddəs torpaqlarımızdan qovdu. Yalnız Rusiyanın vasitəçiliyi və məsələyə müdaxiləsi Ermənistanı tam hərbi və siyasi fəlakətdən xilas etdi. Düzgün düşünülmüş taktika və strategiya, düşmənin hərbi-müşahidə məntəqələrinin, möhkəmləndirilmiş mövqelərinin və gizlədilmiş döyüş texnikalarının PUA və dəqiq artilleriya zərbələri ilə məhv edilməsi, hərbçilərimizin döyüş bacarığı, yüksək rütbəli zabitlərimizin də öz əsgərləri ilə səngərlərdə çiyin- çiyinə döyüşməsi hərb tariximizin qızıl hərflərlə yazılmış şanlı səhifəsidir.  Təəssüf ki, müharibə qansız-qadasız olmur.  Vətən müharibəsi dövründə Azərbaycan Ordusu 2908 nəfər şəhid verdi, 6 nəfər isə itkin düşdü.  Dövlətimiz və xalqımız öz şəhidlərini ehtiramla dəfn etdi. Hər dəfn mərasimi isə təntənəli yürüşə çevrilirdi. Heç kim əyilmir, heç kim sarsılmırdı. Əksinə, bu mərasimlər torpaqlarımızı işğal etmiş düşmənə nifrət hissini daha da artırırdı. Azərbaycan əsgərləri saysız-hesabsız qəhrəmanlıq nümunələri ilə dastan yazdılar. Bütün bunlar Azərbaycana qarşı münasibətin dəyişməsinə, dünyanın hər yerində xalqımıza qarşı açıq-aşkar rəğbət və hörmət hissinin formalaşmasına böyük təsir göstərdi.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə hər il **27 sentyabr Anım Günü, 8 noyabr** isə **Zəfər Günü** kimi qeyd ediləcək.




## Qələbənin təntənəsi: Zəfər paradı

2020-ci il dekabrın 10-da Bakıda Zəfər paradı keçirildi. Paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak edirdilər. Azərbaycan Ordusu hərbi birləşmələrinin və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlılarının hər iki dövlət başçısının olduğu tribuna önündən keçidi xalqlarımızın birliyinin təntənəsi idi.

Hərbi paradda düşmənin sıradan çıxarılmış bahalı hərbi texnikaları ilə yanaşı, işlək vəziyyətdə olan və qənimət kimi ələ keçirilmiş silah-sursatları, ağır texnikaları nümayiş etdirildi. Bu addım vaxtilə düşmən hərbçilərinin və ayrı-ayrı erməni əsilli şəxslərin "Müharibə başlayarsa, tanklarımız Bakıya qədər gələcək" kimi sərsəm bəyanatlarının cavabı idi. Tanklar Bakıya



Azərbaycan və Türkiyə prezidentləri Zəfər paradında

gəlmişdi, amma hərbi qənimət kimi! Paradda düşmənin döyüş maşınlarının dövlət nişanlarından ibarət stend də nümayiş etdirildi. Bu, Birinci Qarabağ savaşından sonra ermənilərin atdığı addımın daha sərt qarşılığı oldu. Zəfər paradında Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edərək Vətən müharibəsində qazanılmış qələbənin əhəmiyyətini, həmçinin ölkələrimizin sarsılmaz birliyini dünyaya bir daha çatdırdılar.





Zəfər paradı





Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhur Başqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. ...Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk.

*Müzəffər Ali Baş Komandan*
**İlham Əliyev**



Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd bəy Cavadın ruhunun şad olduğu gündür. Bu gün Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür.

*Türkiyə Respublikasının Prezidenti*
**Rəcəb Tayyib Ərdoğan**

## Hərbi Qənimətlər Parkı

2021-ci ilin aprelin 12-də Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə yaradılan Hərbi Qənimətlər Parkının açılışı oldu. Parka giriş üçün ilk bilet Müzəffər Ali Baş Komandan İlham Əliyevə təqdim edildi. Ölkə başçısı Hərbi Qənimətlər Parkının açılış mərasimində çıxış edərək bu parkın yaradılmasının məqsədlərinə aydınlıq gətirdi və əhəmiyyətini vurğuladı:

Hərbi Qənimətlər Parkı





"Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər. Bir lövhə düzəltmişdilər. Göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıb.

Əslində, bu hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü idi. Çünki mülki vətəndaşlar öz əmlakını qoyub, bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər bu lövhəni xarici turistlərə nümayiş etdirərək öz ordusunun gücünü göstərməyə, mif yaratmağa çalışırdılar ki, guya Ermənistanın məğlubedilməz ordusu var. Azərbaycanlılar isə şəxsi maşınlarını qoyub, öz torpaqlarından çıxmışlar. Biz bunu unutmamışıq və bu lövhə erməni fərariliyinin təzahürüdür. Çünki bu nömrələr hərbi yük maşınlarının nömrələridir. 522 hərbi yük maşını Azərbaycan Ordusu tərəfindən məhv edilib və ya qənimət kimi götürülmüşdür. Hələ müharibənin getdiyi dövrdə mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın, gün gələcək biz bu nömrələri nümayiş etdirəcəyik.

Dekabrın 10-da keçirilmiş hərbi paradda bu lövhə nümayiş etdirildi. Azadlıq meydanında, bütün xalqımızın gözü qarşısında Ermənistanın məğlubiyyəti, erməni fərariliyi bir daha göstərildi. Bu gün Hərbi Qənimətlər Parkında bu lövhə nümayiş etdirilir. Yük maşınlarının burada sərgilənən nömrələri götürülmüş texnikanın, sadəcə, kiçik hissəsini təşkil edir.

Buraya gələn hər bir insan – Azərbaycan vətəndaşı, ölkəmizə gələcək qonaqlar bunu görəcəklər. Ermənilər də bunu görsünlər. Görsünlər ki, onların bəd əməlləri cavabsız qalmadı. Budur onlara verilən cavab! Qarabağ Azərbaycandır!"

*Müzəffər Ali Baş Komandan*

**İlham Əliyev**






Hərbi Qənimətlər Parkı düşmənin qıcıq mənbəyinə, xalqımızın və ölkəmizə gələn qonaqların isə ən çox ziyarət etdiyi məkanlardan birinə çevrilmişdir.

# Böyük qayıdış

Dünya ictimaiyyəti təkcə qələbəmizin şahidi olmadı. Onlar həm də işğaldan azad edilmiş ərazilərimizdə ermənilərin törətdiyi dəhşətli dağıntıları, tarixi abidələrimizin, qəbristanlıqların məhv edilməsini də gördülər. Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş bölgələrimizə səfərlərində ölkəmizdə olan xarici dövlətlərin və informasiya agentliklərinin nümayəndələri də iştirak edirlər.

"Qafqazın Hirosiması" adlandırılan Ağdamın tamamilə dağıdılması, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarının talanı erməni vandalizminin əyani nümunələri kimi dünya ictimaiyyətini də heyrətə gətirdi.

İndi dövlətimizin qarşısında duran ən böyük məsələ işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması, məcburi köçkünlərin tezliklə öz yurd-yuvalarına qayıtmasıdır.

Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə qısa müddət ərzində Füzuli



**Müzəffər Ali Baş Komandan işğaldan azad edilmiş Ağdamda Azərbaycan bayrağını ucaldır**

**Biz qayıdırıq!**




Ağdam məscidi azad olunduqdan sonra

2021-ci il iyulun 7-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin fərmanı ilə yeni iqtisadi rayonlar, o cümlədən Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları yaradıldı. Maraqlıdır ki, bu fərman keçmiş DQMV-nin yaradıldığı tarixdə verildi. **Bu fərmanla qondarma "Dağlıq Qarabağ" ifadəsi tarixin arxivinə göndərildi.** ***Qarabağ iqtisadi rayonuna daxil olan ərazilər: Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocavənd, Xocalı, Şuşa və Tərtər rayonları.***


Zəfər yolunun inşası

şəhərində böyük hava limanı, Şuşaya çəkilən və "Zəfər yolu" adlandırılan yol artıq istifadəyə verilmişdir. Zəngilan və Laçında da hava limanlarının inşası nəzərdə tutulur. Lakin ərazilərin minalanmış olması və Ermənistan rəhbərliyinin bu ərazilərin mina xəritələrinin Azərbaycana təhvil verməməsi quruculuq işlərinin həyata keçirilməsinə böyük maneə törədir. Müharibədən keçən bir neçə ay ərzində bir neçə Azərbaycan vətəndaşı minaya düşərək həyatını itirmiş, bəziləri isə yaralanmışdır.

2021-ci ilin iyunun 12-də birbaşa hərbi əməliyyatda iştirak etmədiyi və cinayət törətmədiyi məhkəmə yolu ilə sübuta yetirilmiş 15 hərbi əsir Ermənistana qaytarıldı. Əvəzində düşmən tərəfi Ağdamın mina xəritəsini Azərbaycana təqdim etdi. Məlum oldu ki, ermənilər Ağdamı dağıtmaqla kifayətlənməmiş, rayon ərazisinə 97 min ədəd mina basdırmışlar.

Füzuli Beynəlxalq Hava Limanı


Lakin bütün çətinliklərə baxmayaraq, işğaldan azad edilmiş ərazilərdə tikinti-quruculuq işləri davam etdirilir. Ağdam şəhərinin yeni bərpa layihəsi hazırlanıb. Füzuli şəhərində kiçik elektrik stansiyası fəaliyyətə başlayıb. Quruculuq işlərinə xarici şirkətlər də cəlb edilib. Şübhəsiz ki, Azərbaycan dövlətinin səyləri nəticəsində yaxın illərdə tamamilə dağılmış vəziyyətdə olan ərazilərimiz yenidən çiçəklənəcək, məcburi köçkünlər öz ata-baba yurdlarına qayıda biləcəklər.

# Şuşa Bəyannaməsi – qardaşlığın təzahürü

Təkcə 44 günlük Vətən müharibəsi dövründə deyil, müharibədən sonrakı aylarda da Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri yüksələn xətlə inkişaf etməkdədir.  Ölkə başçısı İlham Əliyevin vurğuladığı kimi, "İki dövlət arasında bu cür səmimi münasibətlər dünyada nadir rast gəlinən münasibətlərdəndir".

2021-ci ilin iyunun 15-də Azərbaycan Prezidentinin dəvəti ilə Türkiyə Prezidenti R.T.Ərdoğanın Azərbaycanın mədəniyyət mərkəzi elan edilmiş Şuşa şəhərinə səfəri baş tutdu. Şuşaya edilən bu səfərin, iki dost və qardaş ölkə başçılarının məhz burada – Qarabağın "üzük qaşı"nda görüşməsinin böyük rəmzi mənası var.

Şuşada imzalanan birgə Bəyannamə Ermənistanda hələ də revanş almaq barədə düşünən sərsəm düşüncə sahiblərinə və onların havadarlarına böyük bir mesaj oldu. Şuşa Bəyannaməsi  hər iki ölkənin vahid hərbi-siyasi mövqedən çıxış etməsini, ölkələrimizin ərazi bütövlüyünə təhdid və təhlükə yaranarsa, qarşılıqlı hərbi yardımları özündə əks etdirən vacib sənəd oldu.

Şuşa Bəyannaməsi iki dost və qardaş ölkə arasında münasibətlərin ən yüksək səviyyəyə çatdırılımasını təmin edir. Bəyannamə həmçinin regionda sülhün və sabitliyin bərpa edilməsini, Qafqaz dövlətləri arasında əməkdaşlığın vacibliyini vurğulayır.



Şuşa Bəyannaməsinin imzalanması

# Şuşa Bəyannaməsi

(ixtisarla)

Azərbaycan Respublikası və Türkiyə Respublikası,

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq,

İki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək,

….Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edərək,

...Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” və “Bir millət, iki dövlət” ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyini xüsusi vurğulayaraq bəyan edirlər:

Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir. Tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınacaqdır.

Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır.

Tərəflərin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclasları keçiriləcəkdir və bu iclaslarda milli mənafe, Tərəflərin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi həyata keçiriləcəkdir.

**Şuşa şəhəri, 15 iyun 2021-ci il**



Qəhrəmanlıq nə yalnız bir yüksəliş deməkdir,
Nə də ulduzlar kimi parlayıb sönməməkdir.
Ölməzliyi düşünmək boşuna bir əməkdir,
Qəhrəmanlıq vuruşub, bir daha dönməməkdir!

**Türk şairi Hüseyin Nihal Atsız**

7

# QƏHRƏMANLAR UNUDULMUR

Vətən bizim varlığımız, fəxrimiz, qürurumuzdur. Vətən uğrunda, onun azadlıq və istiqlaliyyəti yolunda canını qurban verən, xalqın rifahı və xoşbəxtliyi naminə şəhid olan qəhrəmanlar heç vaxt unudulmur, öz ölümləri ilə ölümsüzlüyə qovuşurlar.

Təbiəti və xarakteri baxımından humanist, sülhsevər Azərbaycan xalqı heç kəsin torpağına göz dikməmiş, öz doğma yurdunu, torpağını qorumuş, lazım gəldikdə canını bu yolda qurban verməkdən çəkinməmişdir. Qarabağın azadlığı uğrunda gedən savaşlar göstərdi ki, Azərbaycan, doğrudan da, qəhrəmanlar diyarı, igidlər və cəsurlar məskənidir.

## Şuşalı komandir

Azərbaycan xalqının vətənpərvər və qəhrəman övladlarından biri Ramiz Bulud oğlu Qəmbərov olmuşdur. O, Vətənimizə qarşı erməni təcavüzünün başlandığı ilk gündən mübarizə meydanına atılmışdır. 1988-ci ildə Xalq hərəkatına qoşulan Ramiz doğma Şu-



Ramiz Qəmbərov

şanın müdafiəsində iştirak etmək məqsədilə 1992-ci ildə könüllülərdən ibarət dəstə yaratmışdır.

Cəsur komandir öz dəstəsi ilə Şuşa şəhərinin və ətraf kəndlərin müdafiəsində mərdliklə vuruşmuşdur. 1992-ci ilin aprelində ermənilər mövqelərimizə böyük qüvvə ilə hücuma keçirlər. R.Qəmbərovun başçılıq etdiyi dəstə düşmənə qarşı qəhrəmancasına vuruşurdu. Bu qeyri-bərabər döyüşdə igid komandir ağır yaralandı və bir gün sonra aprelin 30-da şəhid oldu. Ölümündən sonra ona **Azərbaycanın Milli Qəhrəmanı** adı verilmişdir.

Az sonra doğma Şuşa işğal edildi.

> "Vətən yolunda şəhid olanlar ölmürlər, xalqın qəlbində, ürəyində əbədi yaşayırlar... Biz onların qəhrəmanlığı, şəhidliyi ilə fəxr edirik. Bu bizim millətimizin iftixarıdır".
>
> *Ümummilli lider*
> **Heydər Əliyev**

> "Biz böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsinə çox böyük əhəmiyyət veririk".
>
> *Azərbaycan Respublikasının Prezidenti*
> **İlham Əliyev**

# "Pəhləvanlar taboru"nun komandiri

Əliyar Yusif oğlu Əliyev respublikanın adlı-sanlı idmançılarından biri olmaqla yanaşı, idman müəllimi kimi də çalışırdı. Dəfələrlə güləş üzrə respublika, ümumittifaq və beynəlxalq yarışlarda qalib gəlmiş gənc pəhləvan bir sıra mühüm yarışların hakimi də olmuşdu.

Əliyar Ermənistanın ölkəmizə qarşı təcavüzü başlayanda cəbhəyə gedən ilk könüllülərdən olmuşdur. Qubadlıda könüllülərdən ibarət təşkil etdiyi bu dəstə xalq arasında "Pəhləvanlar taboru" adlanırdı. 1992-ci ilin aprelində düşmənin böyük qüvvə ilə mühüm strateji əhəmiyyətə malik ətraf yüksəkliklərə hücum edəcəyi gözlənilirdi. Tabor komandiri Əliyar Əliyev düşmənin taktikasına yaxşı bələd idi. O, hücumun ya gecəyarıdan keçmiş, ya da səhər açılmamış başlayacağını təxmin etmişdi və zənnində yanılmamışdı. Dan yeri sökülməmiş Topağac yüksəkliyi toplardan şiddətli atəşə tutuldu. Əliyarın başçılıq etdiyi dəstə hücumu qətiyyətlə dəf edərək düşmənə güclü əks-zərbə endirdi. Cəsur komandirin uzaqgörənliyi nəticəsində döyüş tam qələbə ilə başa çatdı, düşmən xeyli canlı qüvvə və hərbi texnikasını itirərək geri çəkilməyə məcbur oldu.

Əliyar Əliyev



Ə.Əliyevin komandiri olduğu hərbi birləşmə Laçın rayonunun ərazilərini erməni işğalçılarından azad etmək üçün güclü əks-hücum əməliyyatına başladı. Qısa müddət ərzində düşmənin 30-dan artıq mövqeyi darmadağın edildi.

Laçın rayonunun mərkəzində gedən döyüşlərdə Əliyarın adı bir əfsanəyə döndü. Hər yerdə onun igidliyindən danışırdılar. Onun hərbi birləşməsi "Tikanlı zəmi" deyilən dağa qədər irəliləmişdi. Düşmənin xeyli canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdi. Lakin o, yüksəkliyə çata bilmədi, düşmən gülləsinə tuş gələrək şəhid oldu. Qubadlı rayonunun Qəzyan kəndində dəfn edildi, rayonda abidəsi qoyuldu. Azərbaycan Respublikasının suveren-

liyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə Əliyar Əliyevə ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə **Azərbaycanın Milli Qəhrəmanı** adı verilmişdir.

## Cəsur azərbaycanlı

Rusiyada yaşayan Vəzir Surxay oğlu Orucov doğma torpağında gedən döyüşlərdə iştirak etmək üçün Vətənə dönmüşdü. Tərtər özünümüdafiə batalyonunda sıravi döyüşçü kimi mübarizəyə başlayan Vəzir tabor komandirinin müavini vəzifəsinədək yüksəlmiş, tabor kəşfiyyat bölməsinin rəhbərliyini öz üzərinə götürmüşdü. Bütün döyüş əməliyyatlarından, ən azı, bir gün əvvəl bir qrup döyüşçü ilə düşmən arxasına keçir, onların canlı qüvvəsi, texnikası barədə dəqiq məlumatlar gətirirdi. Onun həmişə uğurla keçən əməliyyatları döyüş yoldaşlarını ruhlandırır, onları qələbəyə səsləyirdi. Yoldaşları onu əfsanəvi qəhrəman kimi tanıyırdılar.



Vəzir Orucov



Azərbaycan Respublikasının ən yüksək fərqlənmə dərəcəsi "Vətən Müharibəsi Qəhrəmanı" və "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adlarıdır. "Azərbaycanın Milli Qəhrəmanı" adı Azərbaycan Respublikasının ""Azərbaycanın Milli Qəhrəmanı" adının müəyyən olunması haqqında" qanunu ilə müəyyən olunmuşdur. Bu  fəxri ad Azərbaycan Respublikasının müstəqilliyi və inkişafı naminə xalq qarşısında müstəsna xidmət və rəşadəti olan şəxslərə verilir.

"Vətən Müharibəsi Qəhrəmanı" adı Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına verilir.

"Vətən Müharibəsi Qəhrəmanı" medalı 2020-ci il noyabrında "Vətən müharibəsində qələbə münasibətilə Azərbaycanın orden və medallarının təsis edilməsi" ilə əlaqədar müvafiq qanuna əlavələrin edilməsi və dəyişdirilməsi nəticəsində təsis edilmişdir. "Vətən Müharibəsi Qəhrəmanı" medalının əsasnaməsi  və medalın təsviri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə təsdiq edilmişdir.

"Əsil yüksək əxlaqlı, xeyirxah adam yalnız o adam hesab edilə bilər ki, o özünün bütün hərəkət və davranışlarını əsil vətənpərvərliklə uyğunlaşdırsın".

*Azərbaycan dramaturgiyasının banisi*
**Mirzə Fətəli Axundzadə**

Ağır döyüşlərdən birində yaralanan Vəzir müalicə aldıqdan sonra yenidən cəbhəyə qayıtdı. Ağdərənin Qlobus yüksəkliyi uğrunda gedən ağır döyüşdə qəhrəmancasına həlak oldu. Ölümündən sonra Vəzir Orucova Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə **Azərbaycanın Milli Qəhrəmanı** adı verilmişdir.

"Əsas qüvvələrin insanları ön xətdən çıxarmağa çalışdığı bir zamanda Orucov maşınını atışma gedən istiqamətə sürməyə hazırlaşırdı. Ora əsil cəhənnəm idi... Orucov mənimlə birgə yaralılara yardım etmək üçün ön xəttə getmişdi. Ermənilərin muzdla tutduğu rus əsgərləri bizi tutmuşdular, güllələmək istəyirdilər. Lakin rus əsgərlərindən biri məni tanıdığından razılaşdılar və özününkülərə xəbər verdilər ki, indi bir azərbaycanlı qaçıb gedəcək və ona güllə atmaq olmaz.

Vəzir isə qaçmadı. O, partladılmış maşınında qurdalanıb öz silahını tapdı. Sonra da mənimlə əl verib görüşəndən sonra çıxıb getdi. O elə addımlayırdı ki, Şekspirin heç bir qəhrəmanı elə gedə bilməzdi. O, kürəyini arxaya çevirib sakitcə getməklə sübut edirdi ki, heç vaxt düşmən qarşısından qaçmayacaq. Heç güllə səsi eşidəndə də addımlarını sürətləndirmədi. ...

Heç kim inciməsin, ancaq mənim indiyədək tanıdığım ən cəsur insan azərbaycanlı olub".

*Rus jurnalisti*
**Aleksandr Nevzorov**

## Öndə gedən komandir

Allahverdi Teymur oğlu Bağırov uşaqlıqdan idmana böyük maraq göstərirdi. Qarabağ hadisələri başlayana qədər o, Ağdamda futbolçu kimi tanınmış və "Qarabağ" futbol komandasında fəaliyyət göstərmişdi. Haqsızlıqla barışmayan, sözübütöv, mərd insan olan Allahverdi ermənilərin Azərbaycan torpaqlarına hücumu başlayan kimi könüllülər batalyonu yaratmış, Ağdamın bir sıra kəndlərinin müdafiəsində mərdliklə vuruşmuşdur.

Xocalı faciəsi baş verən zaman Allahverdi Bağırov əsgərləri ilə bərabər Əsgəran yaxınlığında yüzlərlə soydaşımızı xilas etmiş, hətta bəzi kəndləri düşməndən azad etmişdir. Məhz Allahverdinin ermənilərlə danışıqları nəticəsində hərbi operatorlar Seyidağa Mövsümlü və Çingiz Mustafayev Xocalıda baş verən faciənin görüntülərini lentə ala bilmişlər.


Allahverdi Bağırov

Allahverdi Bağırovun ən böyük uğuru Aranzəmin kəndi uğrunda döyüşdə olmuşdur. Burada onlarla erməni əsgərini məhv etmiş, 10 nəfəri isə əsir götürmüşdü. O inanırdı ki, tezliklə müharibə bitəcək və qoşunlarımız Xankəndiyə qədər irəliləyəcəkdir. Lakin cəsur komandir arzusuna çata bilmədi. Gözətçi məntəqələrini yoxlayıb qərargaha dönərkən sürücü ilə birlikdə minaya düşdü. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Allahverdi Bağırova ölümündən sonra **Azərbaycanın Milli Qəhrəmanı** adı verilmişdir.

# Bayraqdar Natiq



Natiq Qasımov

Natiq Səlim oğlu Qasımov 1992-ci ilin martın əvvəllərində  yeddi döyüş yoldaşı ilə Ağdamın Xramort kəndində yerləşən alban kilsəsində əlverişli mövqe tutmuşdu. Burada mühasirəyə düşən igid əsgərlərimiz  erməni silahlı qüvvələri  ilə qeyri-bərabər döyüşə girirlər. Döyüş yoldaşları həlak olan Natiq Azərbaycan bayrağını kilsənin üzərinə sancaraq ermənilərlə təkbaşına döyüşmüş, düşmənə beş gün inadlı müqavimət göstərmişdir. Onlara qarşı bütöv bir  batalyonun döyüşdüyünü düşünən ermənilər əsir götürülən Xocalı sakini Cəfər Cəfərovu danışıq üçün kilsəyə göndərirlər. Şərt belə idi: əgər kilsədəki döyüşçülər təslim olmasalar, ermənilər 22 dinc sakini öldürəcək. Günahsız sakinlərin öldürülməsini istəməyən Natiq təslim olur. Onun kilsədən tək çıxdığını görən erməni quldurları heyrətə gəlir. Qəhrəman əsgərimiz kilsənin üzərindəki Azərbaycan bayrağını çıxararaq sinəsinə basır və təslim olur. Həmin vaxt Qarabağda ezamiyyətdə olan Rusiyanın "Oqonyok" nəşrinin jurnalisti və fotoqraf kimi apardığı Enriko Sarsini bu mənzərənin şahidi olmuş,  şəkillər çəkmişlər. Üçrəngli Azərbaycan bayrağını düşmənə verməyən Natiq Qasımov hələ də itkin düşmüş Azərbaycan vətəndaşlarının siyahısındadır. Haqqında 2016-cı ildə sənədli film çəkilmişdir.



Albert Aqarunov

# Qəhrəman tankçı

Milliyyətcə yəhudi olan Albert Aqarunoviç Aqarunov müharibənin qızğın vaxtında könüllü olaraq cəbhəyə yollanır. O zaman yenicə yaranmaqda olan Milli Ordumuzun yüksək ixtisaslı tankçılara böyük ehtiyacı vardı. Albert tank komandiri təyin edilir və Şuşa cəbhəsinə göndərilir. Onun tank heyəti tezliklə bütün cəbhə xəttində şöhrət qazanır. Cəsur tankçı Xankəndi, Daşaltı və başqa istiqamətlərdə düşməni dəfələrlə pərən-pərən salır, onlarla düşməni və xeyli hərbi texnikanı məhv edir.

Ermənilər Laçına gedən yolu kəsməklə Şuşanı tam mühasirəyə almaq istəyirdi. Albert döyüş əmri alır və dərhal tankını həmin istiqamətə yönəldir. Erməni tankları ilə aradakı məsafə getdikcə daralırdı. Fürsəti əldən verməmək üçün o, tankın sürətini daha da artırır və sərrast atəşlə düşmənin öndə gələn tankını məhv edir. Döyüşdə neçə-neçə düşmən texnikasını sıradan çıxarır. Albert yenidən həmləyə keçməyə can atırdı. Şəhid olan piyada əsgərlərimizin üzərindən keçməmək üçün tankı saxlayıb onları yoldan kənara çəkərkən düşmən snayperinə tuş gəlir. Ölümündən sonra Albert Aqarunova Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə **Azərbaycanın Milli Qəhrəmanı** adı verildi.

## Xüsusi təyinatlı qəhrəman

Azərbaycan torpaqlarının işğala məruz qalması və soydaşlarımızın öz dədə-baba torpaqlarından zorla qovulması Yuri Petroviç Kovalyovu da narahat edirdi. Elə bu səbəbdən də o, Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinə qəbul edilir və döyüş bölgələrində mərdliklə vuruşur.


Yuri Kovalyov

Y.Kovalyov Şuşanın Qaladərəsi kəndində Azərbaycan jurnalistlərini müşayiət edərkən gözlənilmədən ora Ermənistan vertolyotu enmiş və vertolyotdakı xarici jurnalistlər onunla görüşmək istəmişlər. Xarici jurnalistlərin Kovalyova: "Siz russunuzmu?" sualına o: "Bəli, mən rusam, Azərbaycan isə vətənimdir" – cavabını vermişdir. Yuri Kovalyov Goranboy rayonunun kəndlərinin azad edilməsində böyük şücaət göstərmişdir. Düşmən snayperləri onu dağlar, daşlar arasında da axtarırdı. Başına böyük məbləğdə pul qoyulmuşdu. O, Xocavənd rayonu ərazisində aparılan növbəti əməliyyatdan qayıdarkən maşını qəflətən atəşə tutulur və ağır yaralanır. Atəş səngimək bilmirdi. Bütün varlığı ilə Azərbaycanı sevən, onu özünə Vətən bilən Yuri Xocavənd rayonu ərazisində qəhrəmancasına həlak olur, döyüş yoldaşı isə yaralanır, ermənilər maşına yaxınlaşanda partlayış baş verir. Onlar ölüm ayağında belə bir neçə düşməni məhv edirlər. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Yuri Kovalyov ölümündən sonra **Azərbaycanın Milli Qəhrəmanı** adına layiq görülmüşdür.

## Şairin igid oğlu

Təbriz Xəlilbəyli xalq şairi Xəlil Rza Ulutürkün ailəsində dünyaya göz açmışdı. Ermənilərin Azərbaycana təcavüzü və torpaq iddiaları Təbrizi gecə-gündüz rahat buraxmırdı. O, cəbhəyə getməyə can atır, Qarabağın işğalçılardan təmizlənməsində fəal iştirak etmək istəyirdi. Nəhayət, könüllü olaraq cəbhəyə yola düşdü.


Təbriz Xəlilbəyli

Təbriz qısa döyüş yolu keçsə də, yoldaşları arasında böyük nüfuz və hörmət qazanmışdı. Onu cəsur bir döyüşçü kimi tanıyırdılar. Təbriz Xəlilbəyli neçə-neçə yaralı əsgəri atəş altından çıxarmış, düşmənin xeyli canlı qüvvə-

sini məhv etmişdi. Döyüş şücaətlərinə görə o, Daxili İşlər Nazirliyinin "Boz qurd" mükafatına layiq görülmüşdü. Döyüşlərin birində qəhrəmancasına həlak olan Təbrizə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə **Azərbaycanın Milli Qəhrəmanı** adı verilmişdir.

## Dağların Ülfəti

Ölkə xaricində hərbi xidmətini başa vuran və 1991-ci ildə vətənin ağır günlərində Azərbaycana dönən Ülfət Ələkbər oğlu Kərimov müqəddəs torpaqlarımızı erməni qəsbkarlarından qorumaq üçün könüllü olaraq döyüşlərə yollanır. Azğın düşmənlə döyüşə atılan, Ağdərə, Laçın, Kəlbəcər döyüşlərində igidlik göstərən, qısa müddətdə dəfələrlə mükafatlar alan Ülfət tezliklə leytenant hərbi rütbəsi alaraq bölük komandiri vəzifəsinə qədər yüksəlir. O, yüksək əsgəri keyfiyyətləri, bənzərsiz təşkilatçılıq qabiliyyəti, hərbi hünəri ilə hamını heyran qoymuşdu. Erməni işğalçıları Ağdərə rayonunun kəndlərinə hücum edən zaman Ülfət xeyli sayda düşmən əsgərini və texnikasını məhv edir. Onun sonuncu döyüşü Kəlbəcər rayonunun Ağdaban kəndində oldu. Tamamilə mühasirədə olan Ağdabandan əhali hələ çıxarılmamışdı. Nəyin bahasına olursa-olsun əliyalın, dinc sakinləri xilas etmək lazım idi. Gənc leytenant ölüm-dirim savaşına qalxdı. Düşmən qüvvələrinin həddən çox olması onu qorxutmadı. Qumbaraatanla bir düşmən tankını, əl qumbarası ilə digərini məhv etdi. Sonuncu qumbarası ilə zirehli maşının üstünə sıçrayan və onu da partladan Ülfət özü də qəhrəmancasına həlak oldu. Ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

## Qəhrəman jurnalist

Çingiz Fuad oğlu Mustafayev ixtisasca həkim olsa da, jurnalistikaya böyük həvəs göstərirdi. Ancaq bilmirdi ki,  bu sənətə olan marağı onu 1990-cı ilin 20 Yanvar qırğını ilə qarşılaşdıracaqdı. Çingiz Sovet ordusunun Bakıda törətdiyi qırğını bütün təfərrüatı ilə lentə köçürmüşdü. Doğma şəhərində törədilən qanlı hadisə onun jurnalist olmaq qərarını qətiləşdirdi.


Ülfət Kərimov


Çingiz Mustafayev

Ç.Mustafayev Azərbaycan Dövlət Televiziyasında işə düzəldi, döyüş bölgələrinə yollandı. Az müddətdə döyüş bölgələrindən operativ reportajlar hazırladı. Cəsur jurnalist hər gün ölümlə üz-üzə gəlirdi. Ancaq bu onu qorxutmurdu. Çingizin Xocalı faciəsi zamanı lentə aldığı çəkilişlər – erməni quldurlarının vəhşiliklərini əks etdirən kadrlar bütün dünyanı sarsıtdı. Bununla da o, informasiya blokadasını yararaq, Azərbaycan həqiqətlərini dünyanın hər tərəfinə çatdırdı.

Çingiz 1992-ci ilin iyununda növbəti çəkiliş üçün ağır döyüşlərin getdiyi Əsgəranın Naxçıvanik kəndinə yola düşdü. Bu döyüşü lentə alarkən qəhrəmancasına həlak oldu.

Şəhidlər xiyabanında uyuyan Çingiz Mustafayevə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə **Azərbaycanın Milli Qəhrəmanı** adı verilmişdir.

## Murov qartalı

Aprel döyüşlərində böyük hünər, rəşadət göstərərək şəhidlik zirvəsinə yüksəlmiş Vətən oğullarının hamısı qəhrəmandır. Onların apreldə cəmi bir neçə gün davam edən döyüşlərdə göstərdiyi qəhrəmanlıqlar hər bir Azərbaycan gənci üçün, sözün həqiqi mənasında, bir nümunədir. Çünki onlar şəhid olsalar da, Azərbaycan Ordusunu qalib orduya çevirə bildilər. Elə öz adlarını da Azərbaycan xalqının qəhrəman oğulları kimi tarixə yazdılar.

Aprel şəhidləri arasında bir kəşfiyyatçı var: polkovnik-leytenant Raquf İbrahim oğlu Orucov! Onun düşmən arxasında uğurla həyata keçirdiyi bir neçə xüsusi əhəmiyyətli əməliyyat Azərbaycan Silahlı Qüvvələrinin tarixində nadir əməliyyatlardan sayılır. Raquf Orucov şəhid olduğu günədək bir çox təltiflərə, o cümlədən Müzəffər Ali Baş Komandanın müvafiq fərmanları ilə "Hərbi xidmətlərə görə" və "İgidliyə görə" medallarına layiq görülmüşdür.

Raquf Orucov 1990-cı ildə Ağdam rayonundan Sovet ordusunda həqiqi hərbi xidmətə çağırılmış, cəmi bir il Rusiyada xidmət etmişdir. Burada olarkən Ermənistanın Azərbaycana qarşı təcavüz xəbərini eşitmiş, dərhal Azərbaycana qayıtmış, könüllü olaraq Ağdam rayonundakı özünümüdafiə batalyonuna yazılaraq torpaqlarımızın ərazi bütövlüyü uğrunda döyüşlərə qatılmışdır.

Raquf Orucov komandanlıq etdiyi əməliyyatların öhdəsindən uğurla gəlmiş, Azərbaycan Silahlı Qüvvələrinə düşmənin gücü və mövqeləri barədə daha dəqiq, zəngin və xüsusi hərbi əhəmiyyətli məlumatlar vermişdir.

Raquf Orucov



Aprel döyüşlərində şəhid olmuş bu qəhrəman kəşfiyyatçı-zabitin məzarını təkcə qərənfillər deyil, həm də müxtəlif illərdə komandiri olmuş əsgərlərinin məktubları bəzəyir.

**Raquf Orucovun komandiri:**

"1998-ci il idi. Kəlbəcərin Yanşaq kəndi istiqamətində kəşfiyyat məlumatlarının toplanması və videoçəkiliş üçün kəşfiyyat qrupuna həmin əraziyə getmək barədə əmr verilmişdi.

...Vəziyyətlə əlaqədar Raqufla məsləhətləşdik və qərara aldıq ki, əməliyyatı onun komandiri olduğu qrup həyata keçirsin. Onun 6 nəfərdən ibarət kəşfiyyat dəstəsi videokamera ilə yola düşdü. Qrup üzvləri Ömər aşırımından Yanşağa qədər uzaq bir məsafə getməli idilər. Raquf lazımi məntəqəyə çatanda əlaqə saxlayıb apardıqları müşahidələr barədə məlumat verirdi.

...Bildirdi ki, erməni əsgərləri səhər düzülüşünə dayanıblar, onları çəkirəm. Bir qədər sonra, təxminən səhər saat 8 radələrində yenidən əlaqə saxladıq. Dedi ki, düşmən məni görür. Yerimi dəyişsəm, təhlükə bir qədər də artacaq. Dedim, geri qayıdın. Allah eləməmiş, bir hadisə baş versə, mənə xəbər et ki, buradan sizə dəstək verə bilək. Axşam radələrində məlum oldu ki, Raqufgil gəlib düşmənin arxasında aşağıda mövqe tutublar.

Biz də dərəyə endik ki, Raqufgilə kömək edək, çünki yükləri olduğu üçün yuxarı qalxmaq çətin idi. Bu ərazi elə bir yer idi ki, yalnız kəndirlər vasitəsilə dərənin dibindən yuxarı qalxmaq olardı. Bu cür çətinliklərə baxmayaraq, biz o əməliyyatı da uğurla başa vurduq".

## Özünə şəhidlik arzulayan gizir

Gizir Pəncəli Nurməhəmməd oğlu Teymurov uşaq yaşlarından müəllim olmaq istəsə də, Xocalı soyqırımı ilə bağlı kadrlara baxdıqdan sonra hərbçi olacağını qətiləşdirdi.

Hərbi tapşırıqları uğurla başa çatdırdığına görə müxtəlif döyüş mükafatları, medallarla təltif olunan Pəncəli ən böyük mükafatını 2015-ci ildə almışdı. Həmin vaxt işğal altında olan Kəlbəcər rayonunda xüsusi əməliyyat zamanı Ermənistan ordusuna məxsus bir neçə texnika, ağır artilleriya və

Pəncəli Teymurov



**Pəncəli Teymurovun öz toyunda çıxışından**

"Dostlar, həqiqətən, bəzi şeylər var ki, bizim əlimizdə deyil. Amma mən sidq ürəklə deyirəm. Hər zaman, hər an xalqım üçün, torpağım üçün, Vətənim üçün canımdan, qanımdan keçməyə hazıram. Həmişə arzu etmişəm ki, Vətənim üçün şəhid olum, tabutum Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu bayrağına bükülüb dəfn olunmağa aparılsın".

iyirmidən çox hərbçi məhv etmişdi. Buna görə düşmənin ən yüksək dairələri onun başına külli miqdarda pul qoymuş, ölüsünü və ya dirisini gətirənə ən yüksək mükafat vəd etmişdilər. Kəlbəcərdəki əməliyyatda göstərdiyi yüksək bacarıq və peşəkarlığı, nümunəvi xidməti nəzərə alınaraq Prezidentin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunmuşdur. 2016-cı ilin aprel ayında Pəncəli Azərbaycan-Ermənistan təmas xəttində baş verən atışma zamanı Tərtər istiqamətində düşmənlə döyüşə girmiş, döyüş yoldaşları ilə birlikdə Talış yüksəkliyinin alınmasında və Talış kəndində çoxlu sayda düşmənin məhv edilməsində şəxsi igidliyi ilə fərqlənmişdi. Sona qədər vuruşan Pəncəli arzusuna çataraq şəhid olmuşdur. O, xidmətlərinə görə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

## Peşəkar artilleriyaçı

İlqar Anzor oğlu Mirzəyev hərbi fəaliyyətə başladıqdan sonra hərbi məktəblərdə artilleriya sənətini tədris etmişdir. Silahlı Qüvvələrin Hərbi Akademiyasında təhsilini artıran İlqar Müdafiə Nazirliyinə müraciət edərək artıq bölgələrdə xidmət etmək istədiyini bildirir. Gəncə, Naxçıvan, Beyləqan, Goranboy və Şəmkirdə xidmətdə olur. Qüsursuz xidmətinə görə ona növbədənkənar mayor rütbəsi verilir. Müxtəlif vaxtlarda haubitsalı* artilleriya divizyon komandirinin müavini və komandiri vəzifələrini yerinə yetirmişdir.

* **Haubitsa –** müdafiə qurğularını məhv etmək üçün artilleriya silahı növü

Artilleriya sənətinin dərindən öyrənilməsi və öyrədilməsində İlqar Mirzəyevin mühüm xidmətləri olmuşdur. Bu xidmətlərinə görə onu "Müasir dövrün Əliağa Şıxlinskisi", "Artilleriya atası" adlandırmaq olar.

Aprel döyüşlərində xidmətlərinə görə "Vətənə xidmətə görə" II və III dərəcəli medalla təltif olunur. 2018-ci ildə o, polkovnik rütbəsinə yüksəlir və bir il sonra korpuslardan birinin artilleriya rəisi təyin olunur. 2020-ci ilin iyulunda Ermənistan silahlı qüvvələri Tovuz istiqamətində mövqelərimizi ələ keçirmək üçün hücuma cəhd edirlər. Aprel döyüşlərində olduğu kimi, bu ərazidə də şiddətli döyüşlər zamanı yaxın dostu general-mayor Polad Həşimov və digər döyüş yoldaşları ilə birlikdə vuruşurlar. Lakin qəhrəmancasına şəhid olurlar. Polad Həşimovla birlikdə II Şəhidlər xiyabanda dəfn olunur. Prezident İlham Əliyev şəhid polkovnikin dəfni zamanı ailə üzvləri ilə əlaqə saxlayaraq başsağlığı verir. İlin sonunda İlqar Mirzəyevə Prezidentin sərəncamına əsasən **Azərbaycanın Milli Qəhrəmanı** adı verilir.

İlqar Mirzəyev



# Polad generalımız

Polad İsrayıl oğlu Həşimovun məktəbdə oxuduğu illər Qarabağda şiddətli döyüşlərin getdiyi vaxta təsadüf edirdi. O, məktəbi başa vurub hər bir Azərbaycan övladı kimi Vətəninin bu ağır vaxtında ona xidmət etmək istəyirdi. Düşmənlərimizi torpaqlarımızdan qovmaq uğrunda təkcə canından keçməyə yox, Vətən üçün yaşamağa can atırdı.

Onun həyat yolu Heydər Əliyev adına Ali Hərbi Məktəbdən başlanmışdı. Gənc zabit 1992-ci ilin sonlarında bir sıra ərazilərimizin azad edilməsi ilə nəticələnən uğurlu əməliyyatlarda iştirak etmiş və ilk sərkərdəlik qabiliyyətini göstərmişdi. Hərbi əməliyyatlar zamanı əsgərlərlə birlikdə döyüşmüş və onların gücünə güc qatmışdı.

2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə məruz qalanda ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı. Döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklərin azad olunmasında Ordu korpuslarından birinin qərargah rəisi olan Polad Həşimovun da böyük xidməti olmuşdur. Hazırda oradakı postlardan biri "Polad postu" adlanır.

2019-cu ildə Polad Həşimova general-mayor ali hərbi rütbəsi verilmiş, daha sonra o, Azərbaycan Silahlı Qüvvələrinin digər korpuslarından birinin qərargah rəisi təyin edilmişdir. Xidməti dövründə Azərbaycan Respublikasının müxtəlif orden və medalları ilə təltif olunmuş Polad Həşimov Aprel döyüşlərində göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti tərəfindən II dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə mükafatlandırılmışdır.



Polad Həşimov

Ermənistan silahlı qüvvələrinin bölmələri 2020-ci il iyulun 14-ü səhər saatlarından başlayaraq Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərini müxtəlif çaplı silahlardan atəşə tutaraq hücum etməyə cəhd göstərdi. Hücumun qarşısını qəhrəmanlıqla dəf edən zaman Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov şəhid oldu. Əsgərlərinin və döyüş yoldaşlarının böyük rəğbətini və sevgisini qazanan səngər generalının şəhadəti bütün Azərbaycanı ayağa qaldırdı.

Ölümündən sonra Polad Həşimova Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə **Azərbaycanın Milli Qəhrəmanı** adı verilmişdir.

# Sağlığında Milli Qəhrəman adı alan igid

Şükür Nəriman oğlu Həmidovun gənclik illərindən hərbi sahəyə marağı var idi. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, müharibənin yeni-yeni alovlandığı dövrdə Şükür Həmidov sənədlərini Hərbi liseyə vermişdi. Burada təhsil aldığı zaman könüllü olaraq döyüşlərə qatılmaq arzusunda olduğunu bildirmişdi. Hərbi liseyi bitirdikdən sonra Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə qəbul olmuş və  burada motoatıcı ixtisasına yiyələnərək leytenant rütbəsində hərbi hissələrin birində fəaliyyətə başlamışdır.



Şükür Həmidov

Silahdaşları bildirirlər ki, Şükür Həmidovun ən böyük arzusu işğal altındakı torpaqlarımızı, eləcə də doğma Qubadlı rayonunu işğaldan azad etmək olmuşdur.

Aprel döyüşlərindəki hərbi əməliyyatlar zamanı Şükür Həmidov hərbi hissə komandiri idi. Cəbhənin Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərin idarə edilməsi məhz ona həvalə olunmuşdu. Gecə döyüşləri zamanı Cəbrayıl rayonunun Lələtəpə istiqamətində olan əlverişli mövqelər, o cümlədən Lələtəpə zirvəsi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdi. Həmin döyüşlərdə Ermənistan ordusunun "yenilməz Ohanyan xətti" olaraq tanınan müdafiə xətti 40 dəqiqə ərzində darmadağın edilmişdi.

Polkovnik-leytenant Şükür Həmidova Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığının yerinə yetirən zaman göstərdiyi şəxsi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən **Azərbaycanın Milli Qəhrəmanı** adı; müdafiə naziri Zakir Həsənov tərəfindən isə Şükür Həmidova vaxtından əvvəl polkovnik hərbi rütbəsi verilmişdir. Hərbi rütbə ona Lələtəpə istiqamətində səngərdə təqdim edilmişdir. Şükür Həmidov Vətən müharibəsinin də iştirakçısı olmuşdur.

Korpusların birində komandir müavini olan Şükür Həmidov cənub istiqamətində aparılan döyüşləri idarə edənlərdən biri idi. Əvvəlcə o, Füzuli rayonu istiqamətində döyüşlərə qatılmış, son olaraq Qubadlı şəhərinin yaxınlığında yerləşən Mahmudlu istiqamətində döyüşmüş və burada şəhid olmuşdur. Dəfn mərasimi zamanı Azərbaycan Prezidenti İlham Əliyev telefon vasitəsilə Şükür Həmidovun atası Nəriman Həmidova dərin hüznlə başsağlığı vermişdir. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsində qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidliyin və mərdliyin nümayiş

etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən Şükür Həmidov ölümündən sonra "Zəfər" ordeni ilə təltif edilmişdir.

## Aslanın erkəyi, dişisi olmaz

Qarabağ savaşları dövründə qəhrəman qadınlarımızın da böyük xidmətləri olmuşdur. Onların bəziləri müharibə dövrünə aid materialları çəkib dünya ictimaiyyətinə çatdırmış, bəziləri əlində silah müdafiəyə qalxmış, bəziləri isə yaralı hərbçilərimizə tibbi yardımlar göstərmişlər. **Onlardan Salatın Əsgərova və Gültəkin Əsgərovanı göstərmək olar.**

**Salatın Əziz qızı Əsgərova** ixtisasca mühəndis olsa da, ədəbiyyata olan həvəsi onu jurnalistika aləminə yönəltmişdir. Qarabağ dərdi, torpaqlarımızın



Salatın Əsgərova

bütövlüyü onun yazılarının başlıca mövzularına çevrilmişdi. O, tez-tez cəbhə xəttinə gedər, qaynar nöqtələrdən operativ materiallar hazırlayardı. Salatın Laçından Şuşaya gələrkən Qaladərəsi kəndi yaxınlığında erməni quldurları tərəfindən yaxın məsafədən atəşə tutulur. O, 1991-ci ildə vəhşicəsinə qətlə yetirilir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Salatın Əsgərovaya ölümündən sonra **Azərbaycanın Milli Qəhrəmanı** adı verilmişdir. Yaxınlığında həlak olduğu kənd "Salatınkənd" adlanır.

**Gültəkin Məlik qızı Əsgərova** uroloji xəstəxanada həkim işləyirdi. Qarabağ hadisələri başlayanda könüllü olaraq cəbhəyə yollanır. Əvvəlcə Turşsuda, sonra isə Şuşada gedən döyüşlərdə iştirak edir. Güllə yağışları altında yaralı döyüşçüləri təhlükəsiz yerlərə aparır, onlara ilk tibbi yardım göstərirdi. Şuşa işğal ediləndən sonra Laçının, Qubadlının müdafiəsində yaxından iştirak edir. Uzun döyüş yolu keçmiş Gültəkin Əsgərova 1992-ci ildə Aranzəmin-Naxçıvanik istiqamətində gedən ağır döyüşdə öz xidməti borcunu yerinə yetirərkən həlak olmuşdur. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ona ölümündən sonra **Azərbaycanın Milli Qəhrəmanı** adı verilmişdir.



Gültəkin Əsgərova



8

# MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN

Ulu öndər Heydər Əliyevin siyasi kursunun davamçısı İlham Əliyev 2003-cü ildən etibarən Azərbaycan Respublikasına rəhbərlik edir. O, Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda inkişaf etməsinə öz töhfələrini vermişdir. Onun rəhbərliyi ilə ölkədə sosial-iqtisadi islahatlar daha da sürətlənmişdir. Yeni iş yerləri açılmış, vətəndaşların sosial rifahı xeyli yaxşılaşmışdır.

İlham Əliyev Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyasını uğurla davam etdirərək ölkəmizin iqtisadi qüdrətini və beynəlxalq nüfuzunu xeyli artırmışdır. Bu, beynəlxalq iqtisadi əlaqələrin genişlənməsinə təkan vermişdir.

Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrində neft-qaz amili əsas rol oynamışdır. Bütün çətinliklərə, ağlasığmaz maneələrə baxmayaraq, neft strategiyamız prezident tərəfindən uğurla davam etdirilir. 2013-cü ildə Avropa dövlətləri ilə "XXI əsrin müqaviləsi" adlandırılan və Azərbaycanın qaz istehsalının artırılmasına şərait yaradan müqavilə imzalandı. Bu müqavilə Azərbaycanın neft-qaz strategiyasında yeni dövrün başlanğıcını qoydu, "Cənub Qaz Dəhlizi"nin genişlənməsinə, reallığa çevrilməsinə əlverişli şərait yaratdı.

Bu layihələrin həyata keçirilməsi Azərbaycanın geostrateji mövqeyinin möhkəmlənməsinə səbəb oldu. ABŞ dövlət xadimi Zbiqnev Bjezinskinin sözləri ilə desək, "Azərbaycan enerji ehtiyatlarına görə dünyada geosiyasi əhəmiyyətə malikdir". Üstəlik Azərbaycanın gələcəyi qonşu dövlətlərin gələcəyinə əhəmiyyətli dərəcədə təsir edir.

Hərbi sahə İlham Əliyevin xüsusi diqqət yetirdiyi və nəzarətində saxladığı sahələrdən biridir. Belə ki iqtisadi layihələrdən gələn gəlirlərin bir hissəsi hərbi sahəyə ayrılır. Məhz Müdafiə Sənayesi Nazirliyinin yaradılması da Azərbaycanın hərbi sənayesinin möhkəmlənməsinə xidmət edən əsas amillərdəndir.

# Hücum diplomatiyası

Prezident İlham Əliyevin apardığı xarici siyasət Azərbaycanın milli maraqlarına uyğun olaraq beynəlxalq aləmdə ölkənin mövqeyinin möhkəmləndirilməsinə və ərazi bütövlüyünün təmin olunmasına yönəlmişdir. Azərbaycan torpaqlarının ayrılmaz hissəsi olan Qarabağın dağlıq hissəsi və Qarabağətrafı ərazilərin Ermənistan işğalı altında olması xarici siyasətdə daha çevik olmağımızı zəruri edirdi. Prezidentin göstərişi ilə 2004-cü ildən informasiya müharibəsində müdafiədən "hücum diplomatiyası"na keçilməsi vəzifəsi irəli sürüldü.

İlham Əliyev müxtəlif beynəlxalq təşkilatların bütün sammitlərində Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında, ermənilərin işğalçılıq siyasətinin ifşa olunmasında böyük xidmətlər göstərmişdir. O, Davos İqtisadi Forumu, Münhen Təhlükəsizlik Konfransı, Valday Diskussiya Klubu və digər beynəlxalq əhəmiyyətli konfranslarda, iclaslarda Azərbaycanın ərazi bütövlüyünün ermənilər tərəfindən pozulduğunu və bununla barışmayacağımızı iştirakçıların diqqətinə çatdırmışdır. Azərbaycanın həmişə sülh tərəfdarı olduğunu, ancaq torpaqlarımızın sülh yolu ilə qaytarılmayacağı təqdirdə müharibə yolunu da istisna etmədiyini bir daha vurğulamışdır.

2015-ci ildə Münhen Təhlükəsizlik Konfransında iştirakı zamanı erməni nümayəndəsi Azərbaycan tərəfini haqsız vəziyyətə salmaq istəyəndə cənab prezident ağıllı və uzaqgörən diplomatik bacarığı ilə baş verən proseslərin kökündə onların dayandığını, işğalçı olmalarını konfrans iştirakçılarının diqqətinə çatdırmışdır.



"Biz bundan sonra da ordumuzu gücləndirəcəyik. Ordumuzun müasirləşdirilməsi, döyüş potensialı, peşəkarlığı daim diqqət mərkəzində olacaq. Azərbaycan dövləti həmişə güclü olmalıdır. Azərbaycan dövlətinin həmişə güclü ordusu olmalıdır".

*Azərbaycan Respublikasının Prezidenti,*
*Müzəffər Ali Baş Komandan*
**İlham Əliyev**




**Prezident İlham Əliyev 2019-cu ildə isə Valday Diskussiya Klubunun iclasında Dağlıq Qarabağın qədim Azərbaycan torpağı olduğunu tutarlı faktlarla bir daha sübut etmişdir:**

"...Qeyd etməliyəm ki, bu münaqişə ilə əlaqədar çox vaxt reallığı əks etdirməyən geniş fikir müxtəlifliyi olur. Bu məsələyə aydınlıq gətirmək üçün deməliyəm ki, 1921-ci ildə Qafqaz bürosunun qərarında Dağlıq Qarabağın çox vaxt erməni tərəfinin şərh etdiyi kimi, Azərbaycana verilməsi deyil, onun Azərbaycanın tərkibində qalması göstərilmişdir. Münaqişə başlayana qədər Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan azərbaycanlı və erməni əhalinin say nisbəti 25:75 faiz kimi olub. Münaqişə nəticəsində Dağlıq Qarabağdan, həmçinin digər 7 rayondan bütün azərbaycanlı əhali qovulub, başqa sözlə desək, orada etnik təmizləmə aparılıb..."

**Prezident İlham Əliyev erməni təxribatlarının bitmədiyini və bu təxribatlar zamanı dinc sakinlərin də qətlə yetirildiyini iclas iştirakçılarının diqqətinə çatdırmışdır:**

"Deməliyəm ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü bu gün də davam edir. Dünən erməni snayperi tərəfindən dinc sakin, münaqişə zonasından uzaqda, Ermənistanın Azərbaycanla sərhədində yerləşən Qazax rayonunun sakini qətlə yetirilib. Həmçinin deməliyəm ki, 2016-cı ilin aprelində hərbi təxribat zamanı altı dinc sakin, o cümlədən balaca qız qətlə yetirilib.

Həmçinin Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə".

Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır.

**Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi!"**

Əslində, ermənilərin Qarabağ iddiaları onların havadarlarının köməyi ilə ortaya çıxmışdı. Çar Rusiyası müstəmləkəçilik ənənələrinə uyğun olaraq Azərbaycan torpaqlarına erməniləri köçürmüş, torpaqlarımızın bir hissəsini onlara və digər qonşulara güzəştə getmişdir. Təəssüflər olsun ki, bu siyasət Azərbaycanın sovetləşdirilməsindən sonra daha da genişlənmişdir. Məhz bunların nəticəsidir ki, 1990-cı illərin əvvəllərində işğal olunan müqəddəs torpaqlarımız otuz ilə yaxın bir müddət ərzində Ermənistan işğalı altında qalmışdır.

Nəhayət, gözlədiyimiz fürsət yetişdi. 2020-ci il sentyabrın 27-də ermənilər yenidən təxribat törətmək istədi. Ancaq şanlı Azərbaycan Ordusu təxribatların qarşısını alaraq uğurlu əks-hücum əməliyyatlarına başladı. Həmin gün xalqa müraciət edən prezident artıq təxribatlara dözməyəcəyimizi və işğal altında olan torpaqlarımızı azad edəcəyimizi elan etdi. Hərbi əməliyyatların getdiyi hər gün Müzəffər Ali Baş Komandan rəsmi Twitter səhifəsi və televiziya vasitəsilə xalqa ərazilərin azad olunması müjdələrini vermişdir. 2020-ci il noyabrın 10-a qədər davam edən hərbi əməliyyatlar Azərbaycan Ordusunun rəşadəti, prezidentin uzaqgörən, diplomatik bacarığı sayəsində qələbə ilə nəticələndi və doğma Qarabağımız işğaldan azad edildi.

İlham Əliyev həm də son 200 ildə ən böyük qələbələrimizdən birinin Komandanı kimi tarixə adını yazdı.

Prezident hərbi əməliyyatların davam etdiyi müddətdə ermənipərəst mövqe tutan ölkələrin, təşkilatların təzyiqlərinə cəsarətlə cavab verdi. 30 ilə yaxın müddət ərzində onların bacarmadıqlarını etdiyimizi, BMT Təhlükəsizlik Şurasının qətnamələrini həyata keçirdiyimizi və ərazi bütövlüyümüzü bərpa etdiyimizi diqqətə çatdırdı.

Hərbi əməliyyatlar dövründə diqqəti çəkən məqamlardan biri də Müzəffər Ali Baş Komandanın nüfuzlu beynəlxalq nəşrlərə, televiziya kanallarına verdiyi müsahibələrdir. Bu nəşrlərin, televiziya kanallarının əksəriyyəti açıq-aşkar işğalçı ermənilərin tərəfini tutsa da, Müzəffər Ali Baş Komandanın tutarlı və dəqiq cavabları qarşısında aciz qalmışdı.

Beləliklə, İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü daxili islahatlar, müdrik və uzaqgörən xarici siyasəti nəticəsində dünyada geosiyasi mövqeyi möhkəmlənən Azərbaycan bu yolda uğurla addımlayır.



**Jurnalist:** Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu bir rəmzi məna daşıyır?

**Prezident:** Elzas və Lotaringiya sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik.



9

# MƏDƏNİYYƏTİMİZİN İNCİSİ – ŞUŞA

Qarabağ Azərbaycan mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. Qurulduğu dövrdən bəri Şuşa şəhəri təhsil, elm və mədəniyyət mərkəzi olmuşdur.

Qarabağda milli mədəniyyətimizin dahiləri olan böyük şəxsiyyətlər yetişmişdir. Azərbaycanın musiqi beşiyi olan Qarabağda müxtəlif dövrlərdə böyük musiqiçilər yetişmişdir.

## Tarix

XIX əsrin birinci yarısında Azərbaycanda tarix, filologiya və coğrafiya elmi sahəsində böyük işlər görülmüşdür. Vətən tarixini bilmək həvəsi öz əsərləri ilə Azərbaycanda gerçək tarixi bilikləri yayan və inkişaf etdirən vətənpərvər ruhlu salnaməçilərin meydana çıxmasına səbəb olmuşdu.

Qarabağ xanlığının tarixinə marağın artması nəticəsində Mirzə Adıgözəl bəy "Qarabağnamə" və Mirzə Camal "Qarabağ tarixi" əsərlərini yazmışdılar. Mirzə Adıgözəl bəyin "Qarabağnamə" əsərində şifahi məlumatlarla bərabər, sənəd və materiallardan da istifadə edilmişdir. Əsərdə Qarabağın 1736-cı ildən 1828-ci ilə qədərki siyasi tarixindən bəhs edilir. Mirzə Adıgözəl bəyin "Qarabağnaməsi"ndən fərqli olaraq Mirzə Camalın "Qarabağ tarixi" əsərində siyasi hadisələrlə yanaşı, xanlığın sosial-iqtisadi həyatına dair bəzi faktlar da verilmişdir.

XIX əsrdə Qarabağda yaşamış görkəmli şəxsiyyətlərdən biri **Mir Möhsün Nəvvabdır** (1833–1918). Qarabağın göz bəbəyi olan Şuşada dünyaya göz açan M.M.Nəvvab Azərbaycan tarixində alim, pedaqoq, şair, musiqişünas, rəssam və xəttat kimi tanınmışdır.



Mir Möhsün Nəvvab




Onun milli ənənələrə bağlı olan yaradıcılığı təsviri sənət tarixinin parlaq səhifələrindən biridir. Monumental və dekorativ sənət qrafikası sahəsində yaratdığı işləri Şuşadakı Gövhərağa məscidinin minarələrini bəzəyir.

Bir sıra əsərlərin əlyazmalarına verdiyi tərtibatlar, çəkdiyi illüstrasiyalar onun rəssam kimi istedadını qabarıq şəkildə nümayiş etdirir. Mir Möhsünün əsərləri içərisində Qarabağın bir çox orta əsr şairinin həyatı və yaradıcılığından bəhs edən "Təzkireyi-Nəvvab" toplusu, həm də astronomiya, riyaziyyat, kimya və digər elmlərə aid görüşləri də daha çox maraq doğurur.

O, özünəməxsus teleskopla planetləri, ulduzları müşahidə etmiş, hətta modelini də düzəltdirmişdi. M.M.Nəvvabın 1905-ci ildə yazdığı "Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iğtişaş tarixləri" adlı əsəri, "1905–1906-cı illərdə erməni-müsəlman davası" kitabı onun alovlu publisist bir vətənpərvər olduğunu, yaşadığı dövrün mürəkkəb və qayğılı hadisələrə fəal vətəndaş mövqeyini sübut edir.

Real faktlar əsasında qələmə alınmış "1905–1906-cı illərdə erməni-müsəlman davası" kitabı ermənilərin 1905–1906-cı illərdə xalqımıza qarşı törətdiyi vəhşilik və cinayət əməllərini, mənfur niyyətlərini tam gerçəkliyi ilə əks etdirir.

Mir Möhsün Nəvvab görkəmli musiqişünas olmuşdur. Onun "Vüzuhül-


Əhməd bəy Ağaoğlu

ərqam" əsəri Azərbaycan muğam sənəti haqqında qiymətli mənbədir.

Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, Qarabağ xanlığının banisi Pənahəli xanın nəslindən olan **Əhməd bəy Ağaoğlu** (1869–1939) ilk təhsilini doğma Şuşada və Tiflisdə almış, Parisdə Sorbonna Universitetində oxumuşdur.

Burada Şərq xalqlarının tarixini və Şərq dillərini mükəmməl öyrənən böyük mütəfəkkir Şərq fəlsəfəsinə və ədəbiyyatına dair ilk elmi məqaləsini nəşr etdirmişdir. Əhməd bəy Ağaoğlunun Londonda keçirilən Beynəlxalq şərqşünaslıq konqresindəki məruzəsi bir neçə Qərb dilinə dərc olunmuşdur.

Vətənə qayıdan Əhməd bəy Ağaoğlu əvvəl Şuşada məktəbdə dərs demiş, daha sonra isə Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə Bakıya gələrək müəllim işləmiş, eyni zamanda, "Kaspi", "Həyat" və dövrünün bir sıra qəzetləri ilə əməkdaşlıq etmişdir. O, "İrşad", "Proqress" və "Tərəqqi" qəzetində nəşr olunan məqalələrində müsəlman xalqlarının düşdüyü acınacaqlı vəziyyəti təhlil edirdi.

Əhməd bəy Ağaoğlu məqalələrində 1905-ci ildə Azərbaycan xalqına qarşı soyqırımı törədən erməni-daşnak quldurlarının iç üzünü açıb göstərmişdir.

Təqiblər üzündən Türkiyəyə mühacirət edən Əhməd bəy orada fəaliyyətini davam etdirmişdir.

Əhməd bəy Ağaoğlu 1918-ci ildə bolşevik-daşnaklara qarşı mübarizəyə kömək üçün göndərilmiş Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın siyasi müşaviri kimi Azərbaycana qayıtmış, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü seçilmişdir.

Paris sülh konfransında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin tərkibinə qatılan Ağaoğlu ingilislər tərəfindən həbs edilərək Malta adasına sürgün olunmuşdur. Atatürkün təşəbbüsü ilə azadlığına qovuşan Əhməd bəy İstanbulda yenidən milli hərəkata qoşulmuşdur. O həmçinin Qars vilayətinin əhalisinin etimadını qazanaraq Türkiyə Böyük Millət Məclisinin deputatı seçilmişdir.

Əhməd bəy Ağaoğlu dünyagörüşü və siyasi düşüncəsində İslamçılıq, Qərbçilik və Türkçülük ideyası mühüm yer tutmuş, azərbaycanlılarda milliyyətçilik və türkçülük şüurunun oyanmasında və güclənməsində çox mühüm rol oynamışdır.

# Ədəbiyyat

XVIII əsr Qarabağ – Azərbaycan poeziyasının zirvəsini **Molla Pənah Vaqif** (1717–1797) yaradıcılığı təşkil edir. Vaqif lirikasının əsas mövzusunu məhəbbətin tərənnümü təşkil edirdi. Ömrünün son illərində həyatında baş verənlər Vaqifi yaşadığı dövrün siyasi ədalətsizliyini tənqid edən əsərlər yazmağa məcbur edir.


Molla Pənah Vaqif

XIX əsrin birinci yarısında şifahi xalq ədəbiyyatı olduqca böyük, qiymətli və rəngarəng bir irs qoymuşdur. Aşıq şeirinin görkəmli nümayəndələrindən biri olan Aşıq Pəri və digərləri aşıq poeziyasının ənənələri əsasında bir çox məhəbbət və qəhrəmanlıq dastanları yaratmışlar.

Bu dövr Azərbaycan satirik şeirinin görkəmli nümayəndəsi **Qasım bəy Zakir** (1784–1857) idi. O, klassik şeir nümunələri ilə yanaşı, heca vəznində sadə üslubda şeirlər yazmışdır. Zakirin satiraları, mənzum hekayə və təmsilləri də ictimai məzmuna malik olmuşdur. Onun satiralarının başlıca mövzusu dövrünün idarə üsulunun


Qasım bəy Zakir

Qarabağın ictimai-siyasi həyatında yaratdığı ziddiyyətlərdir.

Sonuncu Qarabağ xanı Mehdiqulu xanın qızı **Xurşidbanu Natəvan** (1832–1897) "Xan qızı" adı ilə bütün Qarabağda məşhur idi. O, poetik yaradıcılığa təxminən XIX əsrin 50-ci illərində başlamışdır. Onun irsindən bizə yalnız qəzəlləri çatmışdır. Xan qızı Natəvan həm də yaxşı xəttat, bir sıra incə rəssamlıq və təsviri sənət əsərlərinin müəllifi, bədii sənətkarlığın mahir ustası olmuşdur.


Xan qızı Natəvan

# Musiqi

Azərbaycan incəsənətinin mühüm sahələrindən biri musiqidir. Aşıq musiqisi xalq arasında böyük hörmətə malik idi. Bu dövrdə xanəndəlik də inkişaf etmişdi. Onun ən böyük nailiyyəti muğam məclislərinin meydana gəlməsi və ənənə halına keçməsi oldu.

Bu sahədə Qarabağ özünəməxsus rol oynayırdı. Qafqaz musiqisinə həsr olunmuş bir əsərdə deyilirdi ki, Cənubi Qafqaza musiqi xadimlərini, çalğıçı və xanəndələri şeir, musiqi və mahnıların füsunkar vətəni olan Şuşa verirdi. Bütün Cənubi Qafqaz üçün bir konservatoriya rolu oynayan bu şəhərdən hər mövsümdə, hətta hər ay Cənubi Qafqaza yeni mahnılar, yeni motivlər gəlirdi.

Qarabağın əsilzadə bəy nəslindən olan **Üzeyir Hacıbəyli** (1885–1948) müasir Azərbaycan musiqi mədəniyyətinin qurucusu olmuş, milli bəstəkarlıq məktəbinin təməlini qoymuşdur.

O, Azərbaycan milli operasının, eləcə də Şərqdə ilk operanın – "Leyli və Məcnun" operasının banisidir.

Məşhur bəstəkar Azərbaycan Respublikasının Dövlət Himninin, "Koroğlu" operasının, "Arşın mal alan", "O olmasın, bu olsun" operettalarının müəllifidir.

Əsil adı və soyadı Murtuza Məmmədov olan **Bülbül** (1897–1961) Azərbaycan opera müğənnisi, təsnif ifaçısı, musiqi folkloru tədqiqatçısı, Azərbaycan peşəkar vokal sənətinin banisi kimi tanınmışdır.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olmuş Bülbül Ü.Hacıbəylinin "Leyli və Məcnun" (İbn Salam), "Əsli və Kərəm" (Kərəm), Z.Hacıbəyovun "Aşıq Qərib" (Qərib) operalarında oynamışdır. Onun təşəbbüsü ilə 1932-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində Azərbaycan xalq musiqisini öyrənən, onu toplayıb tədqiq edilməsi ilə məşğul olan Elmi-Tədqiqat Musiqi Kabineti yaradılmışdır.



Üzeyir Hacıbəyli



Bülbül


Xan Şuşinski


Əbdürrəhim bəy Haqverdiyev


Cabbar Qaryağdıoğlu

Azərbaycan klassik xanəndəlik ənənələrinin layiqli davamçılarından biri, muğam sənətinin "Xan"ı adlandırılan İsfəndiyar Cavanşir – **Xan Şuşinski**nin də Azərbaycan musiqisinin inkişafında müstəsna yeri vardır. Onun geniş diapazonlu gur və məlahətli səsi yüksək ifaçılıq mədəniyyəti sayəsində Azərbaycan muğam sənətini zənginləşdirmişdir.

Şuşanın musiqi həyatındakı yeniliklərdən biri də yazıçı-dramaturq **Əbdürrəhim bəy Haqverdiyev**in rəhbərliyi ilə xanəndə **Cabbar Qaryağdıoğlu**nun və tarzən **Mirzə Sadıq Əsəd** oğlunun ifasında Füzulinin poeması əsasında "Məcnun Leylinin məzarı üstündə" musiqili səhnəciyinin göstərilməsi idi. XX əsrin əvvəllərindən Şuşada ilk Şərq konsertləri də keçirilməyə başladı.

## Maarif

Azərbaycanın çar Rusiyası tərəfindən işğalından sonra ibtidai təhsil yenə də mollaxanalarda cəmlənmişdi. Bu məktəblərin müsəlman ruhaniləri tərəfindən idarə edilməsinə baxmayaraq, o dövrün tanınmış adamları məhz bu mollaxanalarda təhsil almışdılar. 1801-ci ildə Şuşada İbrahim xan məscidi nəzdində yaradılan məktəb uzun müddət fəaliyyət göstərmişdir.

Çar Rusiyası maarifin inkişafına görə Avropa dövlətlərindən geridə qalırdı. Dövrün mütərəqqi dəyişiklikləri maarif sisteminə çətin yol tapırdı. Təhsil silki səciyyə daşıyırdı. Rusiyanın təhsil sisteminin ilk pilləsini kənd məktəbləri, sonrakı pilləsini isə qəza məktəbləri təmsil edirdi. Belə məktəblərdən birincisi Şuşada yaradılan qəza məktəbi oldu.

XIX əsrin 70-ci illərindən başlayaraq məktəblərdə əsas yer rus məktəblərinə verildiyindən qəza məktəbləri pullu şəhər məktəbləri ilə əvəz olundu.


Qarğabazar kəndi rus-tatar (müsəlman) məktəbi

Beləliklə, Şuşada yaradılan qəza məktəbi də şəhər məktəbinə çevrildi.

Əsrin ikinci yarısından etibarən "Üsuli-cədid" (yeni üsul) məktəbləri yaradıldı. "Üsuli-cədid" bu dövrdə geniş yayılmış pedaqoji cərəyan idi. Məktəblərdə təlim ana dilində aparılır, ümumtəhsil xarakteri daşıyırdı. Belə məktəblərdən biri də Mir Möhsün Nəvvab tərəfindən Şuşada açılmışdı. Maarif xadimlərinin ən mühüm vəzifələrindən biri də ana dilində dərsliyin yaradılması idi. Azərbaycan dili üzrə tədris vəsaitini kənd müəllimləri də hazırlayırdı. Belə dərsliklərdən biri Cəbrayıl qəzasının Qarğabazar kənd məktəbinin müəllimi tərəfindən hazırlanmış "Tatar (Azərbaycan – *red.)* dili rəhbərliyi" dərsliyi idi. XX əsrin əvvəllərində azərbaycanlı qızlar üçün məktəblər də açılırdı. Hacı Zeynalabdin Tağıyevin Bakıdakı qız məktəbindən sonra digər bölgələrdə olduğu kimi, Şuşada və Qarğabazar kəndində də belə məktəblər açılmışdı.

## Qarabağ abidələri

Azərbaycanda insanların yaşadığı ən qədim mağaralardan biri olan Azıx mağarası dünyanın qədim insan məskənlərindən biridir. Azıx mağarası Qarabağın Xocavənd rayonunun Azıx kəndində yerləşir.

Bu yaşayış məskəni Azərbaycanın, o cümlədən Qarabağın insanlığın ilk vətənlərindən biri olduğunu sübut edir.

1960-cı illərin əvvəllərində arxeoloq Məmmədəli Hüseynovun rəhbərlik etdiyi ekspedisiya Azıx mağarasını kəşf etdi.



"...Mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar etmişdir və ondan sonra burada tədqiqatlar aparılmışdır. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik. Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar. ...Biz bu zirvəni qət etmişik. Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin bir yerdə deyək: "Azıx Azərbaycandır!", "Qarabağ Azərbaycandır!""

*Azərbaycan Respublikasının Prezidenti,*
*Müzəffər Ali Baş Komandan*
**İlham Əliyev**


Azıx mağarası

1968-ci ildə uzun zamandan bəri Azıx mağarasında aparılan qazıntıların nəticəsində orada yaşamış insanın alt çənə sümüyü aşkar edildi. Tapıntı üzərində aparılan tədqiqatlardan sonra onun 350-400 min illik bir tarixə malik olduğu aydın oldu.

Azıx mağarasında, həmçinin müxtəlif vəhşi heyvanların sümükləri, ocaq izləri və daş alətlər də tapılmışdır.

Vaxtilə dünyanın ən qədim insanlarının yaşadığı bu mağaranın yerləşdiyi Azərbaycan torpağı 1993-cü ildən etibarən erməni işğalı altına düşsə də, artıq ulu yurdumuz müzəffər ordumuzun uğurlu əməliyyatları ilə azadlığına qovuşmuşdur.

Albaniya memarlıq nümunələrindən biri olan "Xudavəng" (Tanrı məbədi) monastır kompleksidir. "Xudavəng" monastırı Tərtər çayının sol sahilində, Kəlbəcər rayonunda yerləşir.

Monastırın əsası VI–VII əsrlərdə qoyulmuşdur. Xudavəng monastırı IX əsrdən etibarən Xaçın Alban knyazlığının dini mərkəzi olmuşdur.


Xudavəng monastırı

Alban yepiskopunun iqamətgahı da burada fəaliyyət göstərmiş və xristian dininin təbliğat mərkəzi olmuşdur. Mehranilər sülaləsindən olan Xaçın knyazı Həsən Cəlalın oğlu Vaxtanq XIII əsrdə kompleksin ərazisində geniş tikinti işləri aparmışdır. Monastıra daxil olan tikililərin divarlarında yağlı boya ilə çəkilmiş çoxlu şəkillər və yazılar həkk edilmişdir. Daha sonra burada kilsə tikilmişdir. Kilsənin şərq fasadında daş üzərində knyaz Vaxtanqın təsviri həkk olunmuşdur. Alban knyazı tərəfindən inşa edilmiş baş kilsə memarlıq xüsusiyyətlərinə görə erməni və gürcü kilsələrindən fərqlənir.

Xudavəng Baharlı və Bayandurlu sülalələri dövründə, eləcə də Səfəvilər zamanında ölkənin mərkəzindən xeyli uzaqda olduğuna görə diqqətdən kənarda qalır. Xanlıqlar dövründə də Xudavəng Qarabağ xanlığının ərazisinə daxil olur və o dövrdə Qarabağda olan xristian alban məlikliklərinin monastırına çevrilir. Torpaqlarımız işğal edildikdən sonra "Xudavəng" məbədi ermənilərin təcavüzünə məruz qalmışdır. Düşmən abidədəki Alban kilsəsinə aid xaç və yazıları balta ilə çaparaq yox etmiş, tarixi saxtalaşdırmağa çalışmışdır. Onlar öz təbliğatlarında bu məbədi erməni kilsəsi kimi təqdim etməklə dünya ictimaiyyətini çaşdırmağa çalışmışdır. 1991-ci ildə Azərbaycanın yenidən müstəqilliyini qazanması ilə udinlər qədim kilsə ənənələrini bərpa etmək fürsəti qazandılar. Bu istiqamətdə bir sıra mühüm addımlar atıldı. İlk növbədə, Şəkinin Kiş kəndi və Qəbələ rayonunun Nic qəsəbəsində, eləcə də Oğuzdakı qədim alban məbədlərində təmir-bərpa işləri aparılaraq udinlərin ixtiyarına verildi. Hazırda bu məbədlərdə ayinlər udi dilində yerinə yetirilir. 2003-cü ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının dövlət qeydiyyatına alınması Alban kilsəsinin bərpası istiqamətində atılan ən böyük addımlardan biridir.

2008-ci ildə Alban-Udi dini icmasının bir sıra üzvləri Qüds (Yerusəlim) kilsəsinin xeyir-duasını alaraq Fələstindəki İordan çayında xaç suyuna salınırlar. Beləliklə, Alban-Udi dini icmasının müstəqilliyi bərpa olunur.

Vətən müharibəsi nəticəsində müzəffər ordumuz tərəfindən torpaqlarımız azad olduqdan sonra Xudavəng məbədinin də idarəsi Azərbaycanın xristian əsilli sakinlərinə verilmişdir.

## Xudafərin körpüsü

Xudafərin körpüsü Cənubi Azərbaycanla Şimali Azərbaycanın orta əsr şəhərlərini birləşdirən karvan yolunun üstündə tikilib. Mühüm hərbi-strateji əhəmiyyət daşıyan körpü Araz çayının ən dar, qayalıqla əhatələnən yerində



Xudafərin körpüsü



inşa edilmişdir. Körpünün dayaqları çayın ortasında olan təbii sal daşlar üzərində qurulduğundan onlara Xudafərin adı verilib. Bu körpünün Azərbaycanın iqtisadi və mədəni əlaqələrinin inkişafında böyük əhəmiyyəti olmuşdur. Xudafərin körpüsü 1027-ci ildə Şəddadi hökmdarı Fəzl ibn Məhəmməd tərəfindən inşa etdirilmişdir. Ağa Məhəmməd şah Qacarın Azərbaycana yürüşü zamanı bir hissəsi uçurulsa da, sonradan bərpa edilmişdir. Araz çayı üzərində salınan iki Xudafərin körpüsündən birincisi "Baş Xudafərin körpüsü" adlanır.

1993-cü ildə mənfur ermənilərin ərazimizə soxulması nəticəsində körpüyə ciddi zərər dəymişdir.



Hazırda körpünün müəyyən hissəsi varlığını qoruyub saxlayır. İkinci Qarabağ müharibəsindən sonra Xudafərin körpüsünə sancılan şanlı bayrağımız qürurla dalğalanmaqdadır.

## Füzuli abidələri

Füzuli rayonu tarixi abidələrlə: məscid, türbə və karvansaralarla zəngindir. Bu abidələr sırasına XVII əsrdə Qarğabazar kəndində inşa edilən Qiyasəddin məscidi və Qarğabazar karvansarası da daxildir. Bu abidələr xalq arasında Şah Abbas məscidi və karvansarası kimi də tanınır. Məscidin qapı çatı üzərindəki yazısından onun Qarğabazar kəndinin kəndxudası Hacı Qiyasəddin tərəfindən inşa etdirildiyi aydınlaşır. Məscid kəndin mərkəzindəki sal qayalı təpənin üstündə inşa edilmişdir. Karvansara isə həmin təpənin cənubunda yerləşir. Karvansara və məscid memarlıq üslubuna görə alban dövrü memarlıq ənənələrinin oxşarıdır. Buna görə onların eyni memar tərəfindən tikilməsi ehtimalını yaradır.





Qarğabazar karvansarası

Vətən müharibəsi nəticəsində azad edilən bu tarixi-memarlıq abidələrimizin işğal dövründə düşmən tərəfindən mal tövləsinə çevrildiyi aydın olmuşdur.

Qiyasəddin məscidi





> "Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın".
>
> *Azərbaycan Respublikasının Prezidenti*
> **İlham Əliyev**

**Ağdam məscidi Ermənistan işğalı dövründə**



**Ağdam İmarət kompleksi**

## "Ruhlar şəhəri"ndə qalan tək nişanə

Qarabağın XIX əsr dini memarlıq abidəsi olan Cümə məscidlərindən biri də Ağdam şəhərində qarabağlı memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilmişdir. O, orta əsr Azərbaycan memarlığında geniş yayılmış qoşa minarəli Cümə məscidləri ənənəsini davam etdirərək Qarabağın memarlıq təcrübəsinə uyğun özünəməxsus məscid obrazı yaratmışdır. Ağdam Cümə məscidi işğal zamanı dağıntılara məruz qalmışdır.

Ermənilər məscidin içərisində mal-qara və donuz saxlayaraq insani keyfiyyətdən uzaq olduqlarını bir daha göstərmişlər. Torpaqlarımız işğaldan azad olunduğu zaman şəhərdə nisbətən salamat qalan tək tikili olmuşdur.

## Şahbulaq qalası

Şahbulaq qalası Qarabağ xanı Pənahəli xan tərəfindən XVIII əsrin 50-ci illərində inşa etdirilmişdir.  Qarabağ xanlığının ərazisində inşa etdirilən məşhur qala öz adını Ağdamın Şahbulaq adlı ərazisindən götürmüşdür. Şahbulaq qalası Bayat qalasından sonra Qarabağ xanlığında inzibati mərkəz kimi inşa edilib. Müdafiə xarakteri daşıyan qala müəyyən bir dövr ərzində yaşayış yeri kimi istifadə olunsa da, Şuşa qalasının inşa olunmasından sonra öz əhəmiyyətini itirmişdir.



Şahbulaq qalası

Pənahəli xanın iqamətgahını Bayat qalasından Şahbulaq qalasına köçürtməsini Mirzə Adıgözəl bəy belə təsvir edir:

"Mən gərək möhkəm bir yerdə məskən və mənzil salam. Düşməni dəf etməkdən kahallıq və fəsad əhli ilə mübarizədə səhlənkarlıq etməyəm. Buna görə Bayat şəhərini dağıtdı və gəlib bir təpənin ətəyində Şah bulağı adı ilə məşhur olan bir qala bina etdi".

Şahbulaq ərazisindəki qala və məscidin memarlıq üslubu sonradan Şuşada aparılan inşaat işlərinə əhəmiyyətli təsir göstərmişdir. Demək olar ki, Şuşanın bütün qəsrləri memarlıq baxımından Şahbulaq qalasının xüsusiyyətlərini təkrarlayır.

Bu memarlıq abidəsi Birinci Qarabağ müharibəsinə qədər yaxşı mühafizə edilib saxlanmışdı. 1993-cü ildə erməni işğalçıları tərəfindən Ağdam işğal edilərkən Şahbulaq qalası da bundan nəsibini aldı. Erməni işğalçıları abidənin daxilində olan məscid, hamam və bulaqları dağıdıblar.

Vətən müharibəsindən sonra Şahbulaq qalası da azadlığına qovuşdu. Öz doğma xalqına qovuşan tarixi memarlıq abidəsində təmir-bərpa işlərinə başlanıldı.



Şuşa qala qapısı

## Şuşa qalası. Mədəniyyət paytaxtı

Qarabağın gözəl guşələrindən olan Şuşa müdafiə məqsədilə tikilmiş qala-şəhərdir. Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşir indiki Şuşa şəhərinin yerləşdiyi yerdə düşmən əlinin çatmayacağı dağ başında böyük qala tikdirmək qərarına gəlir. Əvvəllər Qarabağ xanının adına uyğun olaraq "Pənahabad" adlandırılan Şuşanın strateji baxımdan əlverişli yerdə yerləşməsi onu düşmən üçün əlçatmaz etmişdir.

Yeni qalanın tikilməsi üçün elə bir məkan seçilməli idi ki, elatlarla, həm də


Şuşa qalası

Pənahəli xanın hakimiyyətinə tabe olan mahallarla əlaqə yaratmaq  mümkün olsun.

Qalanın tikintisi üçün seçilmiş yer şərq tərəfi istisna olmaqla hər tərəfdən sıx meşələrlə əhatə edilmişdi. Qala ərazisi bir çox yerlərdə dərələrlə əhatə olunmuşdu.

> Qalanın inşası üçün seçilən "Əbədi keçilməz, əlçatmaz yer hətta ən güclü düşmənin belə onu mühasirəyə almasına imkan vermirdi".
>
> *Azərbaycan tarixçisi*
> **Əhməd bəy Cavanşir**

Qalanın inşası üçün seçilmiş yerin uğurlu olmasını bir çox tarixi hadisələr də isbat edir. Üç tərəfdən – cənub, qərb və şərqdən – Şuşa yaylasını əhatə edən yüksək qayalıqlar müxtəlif istiqamətlərdə bir-birinin üstündə ucalaraq, şimal istiqaməti istisna olmaqla, bütün tərəflərdən tamamilə əlçatmazdır.

Şuşa şəhərinin azad olunması zamanı qəhrəman igidlərimiz məhz həmin qayalıqlardan dırmaşaraq şəhərə daxil olmuş və əlbəyaxa döyüşlərdə düşməni məhv edərək şəhər-qalanı azad etmişlər.

## Şahid minarələr

Şuşa Dövlət Tarix-Memarlıq Qoruğuna yüzlərlə tarixi abidələrimiz daxildir. Lakin əfsuslar olsun ki, onların bir çoxu erməni vandalizminin qurbanına çevrilib.

Şuşanın baş meydanında Pənahəli xan tərəfindən qamışdan iki qapılı məscid tikilmiş, sonralar isə onun yerində oğlu İbrahimxəlil xan tərəfindən daha möhtəşəm məscid ucaldılmışdır.

Bir ildən sonra elə bu yerdə onun qızı Gövhərağanın vəsaiti ilə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən daha bir məscid inşa edilmişdir.



> Qarabağ xanı İbrahimxəlil xan tərəfindən inşa edilən məscid mükəmməl şəkildə təmir olunmuşdur. Məscidin ətrafında qoşa minarə ucaldılmışdır.
>
> *"Kitabi-tarixi Qarabağ"*
> **Mir Mehdi Xəzani**

Binada "Qurani-Kərim"dən ayələr, məscidin inşa tarixi və Gövhərağanın vəsiyyətnamələrini əks etdirən çoxlu daş kitabələrə rast gəlmək olar. Binanın ikinci mərtəbəsi və minarələr, eləcə də kitabələr məşhur nəqqaş Mir Möhsün Nəvvab tərəfindən işlənmişdir.

1992-ci ildən bu günə qədər gözəl Şuşanın bir sıra tarixi-mədəni abidələri Ermənistan işğalı nəticəsində dağıntılara məruz qalmışdır. Onlardan biri də Yuxarı Gövhərağa məscididir. Azad olunandan sonra ilk dəfə qəhrəman əsgərlərimiz tərəfindən məsciddə azan səsləndirilmişdir.




Şuşa şəhərindən görüntü

Şuşa şəhərində yerləşən məscidlərdən biri də 1855-ci ildə inşa edilmiş Aşağı Gövhərağa məscididir. Şəhərin ikinci cümə məscidi olan Aşağı Gövhərağa məscidi həm Aşağı məscid, həm də Kiçik məscid adları ilə tanınmışdır.

Yeni məscidin inşası Gövhərağanın maddi dəstəyi əsasında həyata keçirildiyinə görə, sonradan Aşağı məscid həm də Aşağı Gövhərağa məscidi adı ilə tanınmağa başlamışdır.

Aprel döyüşlərindən sonra Cəbrayılın Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin edildikdən sonra ölkə prezidentinin tapşırığı əsasında kənd yenidən quruldu. Burada həmçinin Şuşa məscidinin bənzəri olan məscid inşa edilməsi işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesaj idi. Şuşa məscidinin bənzərinin inşası Şuşaya böyük qayıdışın xəbərçisi idi.


Şuşada Gövhərağa məscidi işğaldan əvvəl

# "Xarıbülbül" festivalı

Şuşanın rəmzi olan Xarıbülbül gül üzərinə qonmuş bülbülü xatırladır. Sanki bülbülün sinəsi altındakı gül al-qırmızı rəngə boyanıb. Qarabağda bu adla dəfələrlə konsertlər verilmiş, festivallar təşkil edilmişdir. Şuşada təşkil olunan və Xarıbülbülün şərəfinə belə adlandırılan Beynəlxalq Musiqi Festivalında ölkəmizin məşhur xanəndə və müğənniləri çıxış etmiş, Azərbaycan musiqisinin əzəmət və incəliyini nümayiş etdirmişlər.



"Xarıbülbül" festivalı, 1989-cu il. Şuşa



"Xarıbülbül" festivalı, 1989-cu il. Şuşa



"Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı Şuşa şəhərində 1989-cu ildə xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi münasibəti ilə keçirilməyə başlandı. Cıdır düzündə keçirilən festivalda yerli ifaçılardan başqa, digər xalqların musiqi qrupları da iştirak edirdi. Konsert gənc xanəndələrin ifa etdiyi "Qarabağ şikəstəsi" muğamı ilə açıldı. Qarabağ atlarının yarışları ilə davam edən festival izləyənlərin böyük marağına səbəb olmuşdu.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra "Xarıbülbül" festivalı beynəlxalq səviyyəli tədbirə çevrildi.

Lakin Qarabağ müharibəsinin başlanması və Şuşa şəhərinin işğal olunması ilə festivalın fəaliyyəti dayandırıldı.

Şuşa şəhərinin erməni işğalçılarından azad edilməsi Ermənistan üzərində parlaq tarixi qələbəmizlə nəticələndi. Bu minvalla artıq "Xarıbülbül" festivalını bərpa etmək mümkün idi.




Festivalın ertəsi günü Prezident İlham Əliyev tərəfindən Şuşa şəhərində "Xarıbülbül" otelinin açılışı oldu, yeni dizaynda inşa olunacaq məscidin təməli atıldı.

**"Xarıbülbül" festivalı, 7 may 2021-ci il. Şuşa**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etdi. Bu sərəncamla "Vaqif poeziya günləri" və "Xarıbülbül" festivalı da bərpa olunmuş hesab edildi.

2021-ci il mayın 12-i və 13-də Heydər Əliyev fondunun təşkilatçılığı ilə Şuşada festival uzun müddətdən sonra yenidən başlandı.

Festivalda Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi kollektivlərinin çıxışı, xalq və klassik musiqidən ibarət proqram təqdim edildi.

Tədbirdə bir sıra ictimaiyyət və mədəniyyət xadimləri, Qarabağdan, o cümlədən Şuşadan olan tanınmış şəxslər iştirak etdi. Açılış mərasimində Qarabağ şikəstəsi səsləndirilərkən konsert iştirakçıları musiqinin həzin səsindən kövrəldi. Xalq artisti Polad Bülbüloğlunun ifası ayaq üstə alqışlandı.

**"Xarıbülbül" festivalından görüntülər, 7 may 2021-ci il. Şuşa**





10

# QARABAĞ BU GÜN

Vətən müharibəsi başa çatdıqdan az sonra işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işlərinə başlanılmışdır. Qarabağ və Şərq Zəngəzur iqtisadi rayonlarında aparılan yenidənqurma və tikinti işlərinin sürəti həmin əraziləri 30 il ərzində xarabaya çevirən düşmənlərimizi belə heyrətə salmışdır.








## Füzuli aeroportu

Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə müharibədən dərhal sonra tikintisinə başlanılmış Füzuli Beynəlxalq Hava Limanına ilk sınaq uçuşu 2021-ci il sentyabrın 5-də təşkil edildi. Aeroportun rəsmi açılışı isə oktyabrın 26-da oldu. Həmin gün Türkiyə prezidenti və digər rəsmi şəxsləri gətirən bir nömrəli təyyarə birbaşa Ankara-Füzuli hava reysi ilə Füzuli Hava Limanına eniş etdi.

# Zəfər yolu




Ali Baş Komandanın göstərişi ilə müzəffər ordumuzun Şuşaya doğru hücum etdiyi çətin dağlıq ərazilərdə yol tikintisinə də müharibədən dərhal sonra başlanılmışdı.

2021-ci il noyabrın 7-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tikintisi başa çatan Zəfər yolundan keçərək Şuşaya çatdılar. Əvvəlcə Füzulidə Zəfər yolu lövhəsi üzərindən ağ örtük götürülərək yolun rəsmi açılışı həyata keçirildi. Zəfər yolunun rəsmi açılış mərasimi Şuşada tamamlandı.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Bu yol Vətən müharibəsində qələbəmizin və Qarabağa qayıdışımızın rəmzinə çevrilmişdir.










# Şuşa ili – 2022

Ölkə başçısı İlham Əliyevin 2022-ci il 5 yanvar tarixli sərəncamı ilə 2022-ci il "Şuşa ili" elan edildi. Sərəncamda təməli Qarabağ xanı Pənahəli tərəfindən qoyulmuş bu şəhərin Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında oynadığı müstəsna rolu vurğulanır.

Bu sərəncamdan sonra respublikamızın müxtəlif yerlərində, idarə və müəssisələrdə, o cümlədən təhsil ocaqlarında "Şuşa ili"nə həsr olunmuş silsilə tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər içərisində Dünya Azərbaycanlılarının V Qurultayı xüsusi əhəmiyyət kəsb edir. Bu qurultay 2022-ci il aprel ayının 22-də Şuşa şəhərində keçirildi. Prezidentin qurultaydakı çıxışı iştirakçılar tərəfindən böyük coşqu ilə qarşılandı. Dünya ölkələrinin kütləvi informasiya mənbələri də ölkə başçısının çıxışını və qurultayın gedişini geniş şəkildə işıqlandırmışdı.

Bunlardan əlavə, Şuşa şəhərində çoxsaylı mədəni-kütləvi tədbirlər, ənənəvi "Xarıbülbül festivalı", muğam müsabiqəsinin final mərhələsi də keçirilmişdir.



"Biz bu gün azad Qarabağda, azad Şuşada dünya azərbaycanlılarının qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir."

*Azərbaycan Respublikasının Prezidenti,*
*Müzəffər Ali Baş Komandan*
***İlham Əliyev***



# Böyük Qayıdışın ilk qaranquşu – Ağalı kəndi

İşğaldan azad edilən ərazilərə qayıdış Zəngilan rayonunun Ağalı kəndindən başlandı. Əvvəllər üç kənddən ibarət olan Ağalıda qısa müddət ərzində "Ağıllı kənd" layihəsi çərçivəsində ən müasir tələblərə cavab verən böyük kənd salındı.

2022-ci il may ayının 27-də Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi oldu.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva mərasimdə iştirak etdilər. Dövlətimizin başçısı və Birinci vitse-prezident Ağalı kənd meydanı ilə tanış oldular, sonra isə yerli sakinlərlə görüş baş tutdu.



"Biz iqtisadi cəhətdən müstəqilik. Bu gün iqtisadi cəhətdən müstəqil ölkələrin sayı o qədər də çox deyil. Bunu yaxın tarix göstərib. Ancaq biz tam müstəqilik, heç kimdən asılı deyilik, öz həyatımızı özümüz qururuq və heç bir yardıma, kreditə ehtiyacımız yoxdur. Əksinə, biz özümüz indi bəzi ölkələrə kreditlər veririk. Məhz iqtisadi müstəqillik nəticəsində bu gün, bax bu Ağalı kəndi deyə bilərəm ki, dünyanın ən mütərəqqi kəndlərinin birinə çevrilib. Bunu biz etmişik, öz gücümüzlə və azad edilmiş bütün digər torpaqlarda öz gücümüzlə bərpa işlərini aparırıq və indi nəhəng layihələr icra edilir".

*Azərbaycan Respublikasının Prezidenti,*
*Müzəffər Ali Baş Komandan*
***İlham Əliyev***

İyul ayının 19-dan etibarən Ağalı kəndinə ilk qayıdış  başlandı. Yeni Ağalı kəndinə birinci mərhələdə 41 ailə köçürüldü. Kənd meydanında Dövlət Xidmətləri Mərkəzi yaradılmışdır. Burada Azərpoçt MMC-nin rayon şöbəsi, ASAN xidmət mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərəcək.

Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq edilmişdir. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğa davamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması bu standartların tərkib hissələridir.



2022-ci ilin sentyabrın 10-na qədər Ağalı kəndində 50 ailə məskunaşdırılmışdır. Kənddə istifadəyə verilmiş 360 yerlik məktəb binasında distant təhsilin aparılması üçün də bütün imkanlar yaradılmışdır. Məktəb 360 şagirdin  təhsil alması üçün nəzərdə tutulmuşdur.

Kənddə həmçinin 60 yerlik uşaq bağçası da istifadəyə verilmişdir.


Qarabağ
Azərbaycandır!